www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 fevral 2015-ci il Cümə axşamı № 38 (6066) Qiymәti 40 qəpik

**Xəbər**

## MTN narkobanda ələ keçirdi; 15 nəfər tutuldu

yazısı səh.2-də

**Gündəm**

### Oliqarxların "vergi qiyamı" gözlənilir



"Fazil Məmmədova qarşı çıxanlar "vurulacaq" ; **Natiq Cəfərli:** "Bu proses yüksək rütbəli məmurlar arasında olan münasibətləri gərginləşdirə bilər"

yazısı səh.3-də

### Mərkəzi Bank "iqtisadi qiyamət"ə hazırlaşır...

yazısı səh.6-da

### İtaliya səfiri "Khazar İslands"ı möhtəşəm layihə hesab edir

yazısı səh.3-də

### Hələbdə şiddətli döyüşlər davam edir

yazısı səh.8-də

*Ceyms Uorlik:*

### "Qarabağ məsələsində irəliləyiş Ukraynadan asılı olacaq"

yazısı səh.11-də

### Lamiyənin anasından və onu "zorlayan" qohumundan şok açıqlamalar

yazısı səh.12-də

### Ermənistanda hakimiyyət dəyişə bilər

yazısı səh.13-də

### Tikinti şirkətinin rəhbəri həbs edildi

yazısı səh.14-də

### Karqo inhisarçısı Əbülfəz Məlikova qarşı ilginc ittihamlar

yazısı səh.13-də

### Azərbaycan-Gürcüstan sərhədindəki özbaşınalıqlar səngimir

yazısı səh.15-də

### Gəncədə kişi ikinci və üçüncü arvadını eyni üsulla öldürüb

yazısı səh.14-də

## "7 rayon söhbəti"nin gündəmə gəlməsinin pərdəarxası

# QARABAĞ MƏSƏLƏSİNDƏ "SIFIR VARİANTI"NA QAYIDILIR - SENSASİON İDDİA

Konflikt ətrafında ritorika dəyişir; Ermənistanda daxili siyasi durumun qəfil kəskinləşməsi təsadüf deyil; münaqişənin dondurulması ən çox kimə lazımdır...




yazısı səh.9-da

## Amerika diplomatının Bakı səfərinin pərdəarxası

**Elxan Şahinoğlu:** "ABŞ-Azərbaycan münasibətlərində yeni dövr başlayır"

yazısı səh.5-də



### Emin Hüseynovun yaxalanması üçün yeni plan...

yazısı səh.5-də



*İlhamiyyə Rza:*

### "İndi özümü daha güclü hiss edirəm"

yazısı səh.4-də



### Sərdar Cəlaloğlu Milli Şuranı İŞİD-ə bənzətdi

yazısı səh.7-də

## Arif Hacılı ABŞ səfirinin müavini ilə görüşdü



**Fevralın 18-də Müsavat Partiyasının başqanı Arif Hacılı Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyində ABŞ səfirinin siyasi məsələlər üzrə müşaviri Susan Çesli ilə görüşüb. Partiyadan verilən xəbərdə deyilir ki, görüşdə Azərbaycan-ABŞ əlaqələri, Azərbaycanda ictimai-siyasi vəziyyət, bu ilin payızında keçiriləcək parlament seçkiləri, ölkədəki siyasi məhbuslarla bağlı vəziyyət və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.**

Görüşdə Müsavat Partiyası başqanının müavini Elman Fəttah iştirak edib.

❑ E.SEYİDAĞA

## "Azadlıq-2015" seçki bloku toplantı keçirib

**Fevralın 18-də "Azadlıq - 2015" seçki blokunun Siyasi Şurasının iclası olub. Bu barədə musavat.com-a blokun mətbuat xidmətindən xəbər verilib. İclasda "Azadlıq - 2015" seçki blokuna daxil olan KXCP, Azadlıq, Az.DP, Aydınlar, BAP, ALDP, AXP sədrləri və "Azadlıq- 2015" seçki bloku seçki qərargahının üzvləri iştirak edib.**

Toplantıda siyasi məhbuslarla bağlı bloka daxil olan partiyaların adında prezident İ. Əliyevə və məhkəmələrlə edilən müraciətlərlə bağlı məlumatlar dinlənilib.

Toplantıda son dövrdə Prezident Administrasiyası və siyasi partiyalar arasında keçirilən görüş, görüş ətrafında yaranmış vəziyyət müzakirə edilib. Proses ümumən pozitiv dəyərləndirilib. Habelə prosesin ölkədə siyasi qüvvələr arasında dialoq mühitinin yaradılması və reallaşması ilə bağlı tərəfinin dərinləşdirilməsi məqsədəuyğun sayılıb. Toplantıda PA və siyasi partiyalarla növbəti görüşün əsas tematikasının seçki islahatına həsr edilməsi təklifinin rəsmiləşdirşdməsi və təklifin təşkilatçılara göndərilməsi barədə qərar qəbul edilib. Bu məsələ ilə əlaqədar prosesdə tərəf olan siyasi partiyaların ayrıca görüşünün keçirilməsi maraqlı sayılıb və bu istiqamətdə məslələtləşmələr aparılması faydalı hesab edilib.

Milli valyuta ətrafında yaranmış vəziyyətin xalqın və milli sahibkar kütlənin maraqları əsas götürülməklə idarə edilməsi üçün hökumətə müraciət edilməsi və təkliflər hazırlanması razılaşdırılıb.

Bundan əlavəb "Azadlıq - 2015" seçki bloku Seçki Qərargahının tərkibi təsdiq olunub. Bəybala Əbil Seçki Qərargahının sədri seçilib. İctimai- siyasi vəziyyətə dair və 2015-ci il Milli Məclisə seçkilərə hazırlıqla bağlı digər məsələlər müzakirə edilib və müvafiq qərarlar verilib.

## AMİP katibi ABŞ-da seçkilərlə bağlı tədbirvə iştirak edib

**Azərbaycan Milli İstiqlal Partiyasının beynəlxalq əlaqələr katibi Elşən Mustafayev ABŞ-da səfərdə olub. Dünən Bakıya qayıdan Elşən Mustafayev Mayami şəhərində "Yeni sosial erada seçkiləri necə qazanmalı və sosial media" mövzusunda beynəlxalq konfransda iştirak edib.**

E.Mustafayevin "Yeni Müsavat"a verdiyi xəbərdə bildirilir ki, "Dünyada DLB Qrup" təşkilatının və İsveçin "Jalmarson fondunun" əməkdaşlığı ilə təşkil olunan konfransda Latın Amerikası və Avropa dövlətlərinin sağ mərkəz siyasi partiyalarının nümayəndələri iştirak ediblər. AMİP-i isə tədbirdə o təmsil edib. E.Mustafayevin sözlərinə görə, müasir seçki sistemləri üzrə dünyanın aparıcı mütəxəssislərinin, PR agentliklərinin də iştirak etdiyi konfransda geniş diskussiyalar aparılıb, ölkələr üzrə təqdimatlar olub. Sonda iştirakçılar və təşkilatçılar müzakirə olunmuş məsələlərin aktuallığını və vacibliyini nəzərə alaraq yaxın gələcəkdə növbəti belə bir konfransın keçirilməsini qərara aldılar.

❑ E.SEYİDAĞA

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# MTN-dən daha bir əməliyyat: 15 nəfər tutuldu



## Öldürülən həkimin xanımı qayınatasını və medianı məhkəməyə verdi

**Öldürülən tibb elmləri namizədi, ürək-damar cərrahı Cavid Həmişəyevin həyat yoldaşı İradə Oruclu qayınatası Zaməddin Həmişəyevə, Hafizə Həmişəyevaya, "Yeni Müsavat" qəzetinə və ATV-yə qarşı məhkəmə davası açıb.**

İddiaçı Z.Həmişəyevin fikirlərini təkzib edən yazılar dərc etməyimizi, ATV-dən "Öz aramızda" adlı verilişdə səsləndirilmiş yalan məlumatın təkzib edilməsini istəyir. İ.Oruclu keçmiş qayınatası və qayınanasının ictimai qaydada üzr istəmələrini və ona 50 min manat dəyərində təzminatın ödənilməsini tələb edir. Nizami Rayon Məhkəməsinə təqdim edilən ərizəyə 19 fevral, 12:30-da baxılacaq.

Qeyd edək ki, 25 may 2013-cü ildə Nərimanov rayonu, Həsən Əliyev küçəsi, ev 92, mənzil 8 ünvanında Tibb Universitetinin nəzdində fəaliyyət göstərən müalicə klinikasının kardiologiya şöbəsinin müdiri, 1977-ci il təvəllüdlü Cavid Həmişəyevin meyiti aşkarlanmışdı. Bundan sonra mətbuatda və "Yeni Müsavat" qəzetində bu səs-küylü qətllə bağlı yazılar dərc olunub. C.Həmişəyevin atası Z.Həmişəyev KİV-lərə bildirib ki, onun oğlunun qətlə yetirilməsini gəlini İradə Orucova sifariş verib. İ.Orucovanın nümayəndəsi, tanınmış vəkil Aslan İsmayılov isə Z.Həmişəyevin söylədiklərinin həqiqət olmadığını, onun qətlə yetirilmiş oğlunun əmlakına sahiblənmək üçün gəlininə şər atmaqdan çəkinmədiyini söyləyib. Qətli törədən üç şəxs - Türkan Bağırlı, Yasin Ərəbov və Koroğlu Məmmədov hüquq-mühafizə orqanlarının əməkdaşları həbs edib. 2014-cü il iyunun 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində bu səs-küylü qətldə təqsirləndirilən şəxslərin cinayət işi üzrə proses başlayıb. Hər 3 şəxs tamah məqsədi ilə qəsdən adam öldürməkdə ittiham olunaraq müxtəlif müddətlərə azadlıqdan məhrum ediliblər.

❑ E.MƏMMƏDƏLİYEV



**Ukrayna və İrandan Azərbaycana qaçaq yolla külli miqdarda narkotik maddə gətirməyə cəhd edən dəstə ifşa olunub. MTN-in İctimai Əlaqələr İdarəsindən "Trend"ə verilən məlumata görə, nazirlik tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Ukrayna və İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə - yəni gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirilərək Azərbaycan ərazisinə ümumilikdə 40 kiloqrama yaxın narkotik vasitənin qanunsuz daşınmasının qarşısı alınıb, bu hüquqazidd əməllərin törədilməsinə görə 15 nəfər şübhəli şəxs qismində tutulub.**

MTN və Dövlət Gömrük Komitəsi tərəfindən birgə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycan vətəndaşları - Əsgərov Rahət Cəlil oğlu, Məmmədov Vasif Yaqub oğlu, Əzimov Bayram Habil oğlu, habelə Cəfərov Binnət Vidadi oğlu, Əliyev Yusif Kamal oğlu, Mehdiyev Oqtay Muxtar oğlu, Cəfərov Qara Vidadi oğlu, Həsənov Elnur Camal oğlu, Muradov Loğman Şükür oğlu və Ukrayna vətəndaşı Bayramov Əli Yusif oğlu Ukraynadan ölkəmizə narkotik vasitələrin qanunsuz daşınmasında şübhəli şəxs qismində saxlanılıb, onlardan ümumilikdə 24 kiloqram 500 qramdan artıq qurudulmuş marixuana aşkar edilərək götürülüb.

Faktla bağlı DGK-nın İstintaq İdarəsində AR CM-in 206.3.2-ci, 234.4.1-ci və 234.4.3-cü maddələri ilə cinayət işləri başlanılıb.

Bundan başqa, MTN tərəfindən narkotik vasitələrin qanunsuz daşınması ilə bağlı daha bir neçə əməliyyat-axtarış tədbiri keçirilib. Belə ki, İran-Azərbaycan marşrutu üzrə narkotiklərin qanunsuz daşınmasında şübhəli bilinən Azərbaycan vətəndaşı - Abuşov Vüsal Mircəfər oğlu saxlanılıb, ondan 3 kiloqram 900 qrama yaxın tiryək aşkar edilərək götürülüb.

Digər əməliyyat-axtarış tədbiri nəticəsində İran-Azərbaycan marşrutu üzrə narkotiklərin qanunsuz daşınmasında şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşı - Abbasov Məmməd Şura oğlu saxlanılıb, keçirilən baxış nəticəsində ondan 600 qrama yaxın heroin aşkar edilərək götürülüb.

Növbəti əməliyyat-axtarış tədbiri nəticəsində İran-Azərbaycan marşrutu üzrə narkotiklərin qanunsuz daşınmasında şübhəli bilinən Azərbaycan vətəndaşları - İsmayılov Ramil Vahid oğlu, Həsənalıyev İlqar Qurban oğlu və Məmişov Cavid Allahverən oğlu saxlanılıb, onlardan 720 qramdan artıq tiryək və 10 kiloqramdan artıq qurudulmuş marixuana aşkar edilərək götürülüb.

Faktlarla bağlı MTN İstintaq Baş İdarəsi tərəfindən AR Cinayət Məcəlləsinin 206.3.1-ci və 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı, təkrar törətmə), 234.4.1-ci, 234.4.2-ci və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma, təkrar törətmə) maddələri ilə cinayət işləri başlanılıb. Abuşov Vüsal Mircəfər oğlu, Abbasov Məmməd Şura oğlu, İsmayılov Ramil Vahid oğlu, Həsənalıyev İlqar Qurban oğlu və Məmişov Cavid Allahverən oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib.



## Dostu Emin Ağalarova bahalı avtomobil hədiyyə etdi

**Tanınmış azərbaycanlı bəstəkar-müğənni Emin Ağalarov dostundan qiymətli hədiyyə alıb. Avtolent.az-ın xəbərinə görə, E. Ağalarov bu barədə "İnstagram" səhifəsində məlumat yayıb. Müğənniyə dostu bahalı avtomobil hədiyyə edib: "Dostum İtalo Fontana mənə inanılmaz hədiyyə etdi. Onlardan dünyada cəmi 50 ədəddir".**

## "24 aprel Türkiyə-Ermənistan münasibətlərinin gələcəyi üçün test olacaq"

**Avropa Birliyi (AB) Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşmasını dəstəkləyir. Musavat.com erməni KİV-ə istinadən xəbər verir ki, bu barədə təşkilatın Ermənistandakı nümayəndəsi Trayan Xristea İrəvanda "Ermənistan-AB münasibətləri. Seçilən yeni kurs" mövzusunda keçirilən diskussiyanın gedişində bildirib.**

"Biz Sürix protokollarının Ermənistan parlamentindən geri çağırılmasına baxmayaraq, tərəfləri heç bir şərt qoymadan əlaqələri normallaşdırmaq prosesinə sadiq qalmağa səsləyirik", - deyə o qeyd edib.

AB yetkilisinin sözlərinə görə, "soyqırımın" 24 aprel ildönümü iki ölkə münasibətlərinin gələcəyi üçün bir test olacaq.

## Təqaüdçülərə şad xəbər

**Azərbaycanda təqaüdçülər pensiyalarını başqa bankların bankomatlarından götürə biləcəklər. Publika.az xəbər verir ki, bunu Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev jurnalistlərə bildirib.**

O qeyd edib ki, pensiyalar götürülən zaman bankomatların qarşısında növbələr müşahidə olunur: "Bu hal pensiyaların maliyyələşdirilməsində problem kimi qiymətləndirilməməlidir. Bu, vətəndaşların maliyyələşmə günündə, yəni bir gündə bankomatdan öz vəsaitlərinit nağd çıxarılması səbəbindən baş verir. Bu məsələnin tənzimlənməsi üçün DSMF müvafiq qurumlarla birgə iş aparır. Bu, iki istiqamətdə aparılır. İlk növbədə, problemin yumşaldılmasını nəzərdən keçiririk və plastik kart sahiblərinə müxtəlif bankların bankomatlarından istifadə etmək imkanının yaradılması barədə düşünürük. Banklar arasında interfeys əlaqəsinin gücləndirilməsi hesabına pensiyaçılarımız plastik kartdan müxtəlif bankların bankomatları vasitəsilə pensiyalarını əldə edə biləcəklər. İkinci yol isə nağdsız ödəniş şəbəkəsinin genişləndirilməsi və pensiyaçılar arasında bu sahədə təşviqatın aparılmasıdır".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



YENİ MÜSAVAT
N 38 (6066) 19 fevral 2015

**Dünya bazarında neftin qiymətinin kəskin şəkildə düşməsi və Azərbaycanda büdcə gəlirlərinin azalması səbəbindən hakimiyyət alternativ gəlir mənbələri, xüsusən də vergi toplamaları hesabına büdcə kəsirlərini qapatmağa çalışır. Son zamanlar ölkə başçısının sərəncamı ilə Vergilər Nazirliyində struktur dəyişiklikləri edilməsi və vergilər naziri Fazil Məmmədova 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilməsi də adıçəkilən şəxsə müstəsna səlahiyyətlərin verilməsi kimi izah edilir.**

# Oliqarxların “vergi qiyamı” gözlənilir

## “Fazil Məmmədova qarşı çıxanlar “vurulacaq"; **Natiq Cəfərli:** “Bu proses yüksək rütbəli məmurlar arasında olan münasibətləri gərginləşdirə bilər”

“Yeni Müsavat”a daxil olan informasiyalara görə, vergilər nazirinin hədəfində yüksək rütbəli məmurlara, oliqarxlara məxsus şirkətlər də var. İllərlə vergi borcunu ödəməyən şirkətlər indi büdcə vəsaitlərinin artmasına və Avropa Oyunlarına hazırlıq işlərinə “könüllü” yardım etməli olacaqlar.

Artıq ölkə boyu ən xırda ictimai-iaşə obyektlərindən başlamış iri şirkətlərə qədər vergi müfəttişlərinin ixtiyarına verilib. Bu prosesə qarşı çıxan, müqavimət göstərən hər kəs kəskin şəkildə cəzalandırılır.

Xırda sahibkardan oliqarxlara qədər hər kəsi zərbə altında qoyan bu işin başında duran vergilər naziri Fazil Məmmədovun tezliklə hücumlara məruz qalacağı və yüksək rütbəli məmurların müqaviməti ilə üzləşəcəyi istisna edilmir.

**İqtisadçı ekspert Natiq Cəfərli “Yeni Müsavat”a açıqlamasıda bildirdi ki, uzun müddət gəlirlərini dövlət büdcəsindən gizlədən məmurların hazırda aparılan yoxlamalara necə reaksiya verəcəyi heç kimə sirr deyil:** “Azərbaycanda iri məmurlara bağlı böyük holdinqlərin vergidən yayınma halları ilə bağlı faktlar son illər daha çox işıqlandırılırdı, mətbuatda da bu məsələ müzakirə olunurdu. Yüksək rütbəli məmurlara məxsus və ya onların himayəsində olan iri şirkətlər vergidən ciddi şəkildə yayınırdılar. Təbii ki, indiki durumda dövlət büdcəsinin gəlirlərinin azaldığı bir vaxtda bu məsələnin həll edilməsi gündəmə gəlirsə, bu normal bir addımdır. Çünki ölkə büdcəsində yaranan problemlərin həlli yolları vergi yığımının effektivliyinin artırılmasından keçir. Vergilər Nazirliyi iri şirkətlərdə bu günə qədər aparılmayan ciddi yoxlamalara start verəcəksə və onların vergidən yayınmasının qarşısını alacaqsa, bu, bəyənilməli bir addımdır. Ancaq Azərbaycanda heç də hər şey bu qədər sadə deyil”.

**Ekspertin fikrincə, burada çox ciddi maraqların kəsişməsindən söhbət gedir:** “Müxtəlif şirkətlərin rəhbər şəxsləri olan məmurların bir-biriləri ilə şəxsi münasibətlərindən tutmuş bazarda yer qazanmaq üçün apardıqları anormal rəqabətə qədər bir çox problemlər yaşanır. Bu günə qədər oliqarxlara məxsus holdinqlərin vergidən yayınmasına göz yumulması başqa qeyri-leqal məsələlərdən xəbər verirdi. Həmin holdinq sahiblərinin üzərinə bəzən büdcədə nəzərdə tutulmayan bəzi xərclərin qoyulması ilə bu əvəzlənirdi. Yəni, hər hansı bir holdinq vergidən yayınırdısa, o zaman haradasa bir məktəbin tikilməsinə, təmir olunmasına dövlətin etməli olduğu, amma etmədiyi işin həmin şirkət tərəfindən həyata keçirilməsinə şərait yaradılırdı. Belə demək mümkünsə, hökumətlə həmin oliqarxlar arasında ”centlmen razılaşması" var idi. İndi isə görünən odur ki, həmin razılaşma pozulub və şirkətlərlə dövlətin vergi orqanları arasında münasibətlər gərginləşəcək. Bu, iri məmurlar arasında olan münasibətləri də gərginləşdirə bilər. Çünki oliqarxlar arasında çox sıx əlaqələr var, qohumluq əlaqələri, biznes münasibətləri və sair. Bu, narazılığın artmasına səbəb olacaq. Ancaq ölkədə şəffaf və leqal şəkildə vergi sisteminin həyata keçirilməsinə çox böyük ehtiyac var. Çox arzu edərdik ki, hökumət bunu büdcədə olan problemləri qapatmaq üçün yox, əvvəlki illərdə də normal iqtisadi prosesin tərkib hissəsi kimi həyata keçirərdi. O zaman vergi yığımlarının həcmi indiki qədər kəskin şəkildə aşağı olmazdı".



**Politoloq Natiq Miri isə artıq oliqarxların ən yüksək səviyyədə tapşırıq aldıqlarını və bu prosesə qarşı çıxmağın nə qədər təhlükəli olacağını anladıqlarını bildirdi:** “Oliqarxlar tərəfindən Fazil Məmmədova qarşı ola biləcək hücumları mən istisna edirəm. Çünki bu, Fazil Məmmədovun ortaya qoyduğu bir məsələ deyil, hakimiyyətin çox yüksək səviyyədə qəbul etdiyi bir qərardır. İndiki şəraitdə neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar dövlətin Neft Fondundakı və büdcədəki ehtiyatları tədricən əriməyə başlayıb. Manatın tədricən sərbəst buraxılması siyasəti də göstərir ki, hakimiyyət uzun müddət milyardlarla manatı havayı küləyə sovurmaq fikrində deyil. Ona görə də büdcəni yenidən toparlamaq üçün bu cür siyasətə əl atmaq məcburiyyətində qaldı. Ona görə də mən düşünürəm ki, bu qərar oliqarxların Fazil Məmmədova qarşı hücumuna səbəb ola biləcək. Əksinə, oliqarxlar bu siyasəti anlayırlar. Mənim fikrimcə, bu cür tapşırıq verilməmişdən öncə yüksək rütbəli məmurlara göstərişlər verilib. Onlar bu məsələyə mane olmaq yerinə büdcəyə toplanan vəsaitin artırılması üçün öz köməklərini əsirgəməyəcəklər. Çünki məhz hakimiyyətin yaratdığı şərait əsasında oliqarxlar bu qədər vəsaitə sahib olublar. İndi dövlətin ehtiyaclarının artdığı bir şəraitdə onlar da yararlı olmağa çalışmalıdırlar”.

**Politoloqun fikrincə, böhranla üzləşən əksər xarici ölkələrin təcrübəsində bu kimi hallar yaşanır və dövlət müəyyən mərhələdə oliqarxları köməyə çağırır:** “Bu, təkcə Azərbaycana aid məsələ deyil. Bu siyasət Rusiyada da baş verdi. Rubl öz dəyərini kəskin itirdiyi ərəfədə Putin Rusiya oliqarxlarını öz kabinetinə çağırdı və rublun mövqeyinin möhkəmlənməsi üçün konkret tapşırıqlar verdi. Bu mənada orada bütün oliqarxlar rublun sabit saxlanılması üçün çalışırlar. Bu siyasət Azərbaycanda da davam edir. Kim bu siyasətə qarşı çıxacaqsa, həmin məmur dərhal zərərsizləşdiriləcək və bütün kapitalı əlindən alınacaq. Ona görə düşünürəm ki, böyük bir sabotaj gözlənilmir”.

**Natiq Miri onu da vurğuladı ki, Fazil Məmmədova qarşı çıxan istənilən şəxs həmin andan etibarən həm vəzifəsini, həm də kapitalını itirmiş sayılır:** “Ancaq hansısa oliqarxlar öz müəssisələrinə görə etiraz edəcək, qalmaqal yaradacaqsa, həmin şirkətlərdə dərhal total yoxlamalar başlanacaq, qazandığı bütün sərvət əlindən alınacaq. Mən bu dərəcəyə çatacağını düşünmürəm. Azərbaycanda hakimiyyətə qarşı çıxmağa cəhd edəcək oliqarxların olduğuna inanmıram. Bu elə bir sistemdir ki, bu sistemin ortaya qoyduğu qaydalardan kənara çıxmaq mümkün deyil. Kənara çıxan olacaqsa dərhal vurulacaq”.

❑ **Nərgiz LİFTİYEVA**



# İtaliyanın Azərbaycandakı səfiri “Khazar İslands”ı möhtəşəm layihə hesab edir

**“Avesta Konsern”in bütün dünyada böyük marağa səbəb olan “Khazar İslands” layihəsinin ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin diqqət mərkəzində olduğunu, xarici ölkə səfirlərinin layihənin həyata keçirildiyi əraziyə səfər etməsini dəfələrlə xəbər vermişik. İtaliyanın Azərbaycandakı səfiri Ciampaolo Kutillo “Khazar İslands” yeni şəhər kompleksinə səfər edən növbəti səfir olub. Diplomatı mehribanlıqla qarşılayan “Avesta Konsern”in prezidenti Hacı İbrahim Nehrəmli hörmətli qonağa rəhbərlik etdiyi şirkət, onun həyata keçirdiyi layihələr və bütün dünyada böyük marağa səbəb olan “Khazar İslands” layihəsi haqqında geniş məlumat verib.**



Səfir Ciampaolo Kutillo Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını, Azərbaycanla İtaliya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini, bu münasibətlərin artıq tərəfdaşlıq səviyyəsinə qalxdığını və iki ölkənin iş adamları arasında əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib. O, “Khazar İslands” layihəsinin iki ölkənin iş adamlarının uğurla əməkdaşlıq edə biləcəyi layihələrdən önəmli birisi olduğunu vurğulayıb və belə möhtəşəm layihənin həyata keçirdiyinə görə Hacı İbrahim Nehrəmlini təbrik edib. Səfir bildirib ki, layihənin ideyası xüsusilə təqdirəlayiqdir. “Khazar İslands” layihəsinin Azərbaycanda gedən dinamik inkişafın məntiqi nəticəsi olduğunu qeyd edən Hacı İbrahim Nehrəmli, bu layihə ilə prezident İlham Əliyevin iqtisadi siyasətinə dəstək olmaq istədiyini, layihənin Azərbaycanda bir çox sahələrin, xüsusilə də turizmin inkişafına böyük töhfə verə biləcəyini deyib. İş adamı “Khazar İslands” layihəsi çərçivəsində dünyanın bir çox ölkəsindən olan böyük şirkətlərlə əməkdaşlıq etdiklərini, bu sırada İtaliya şirkətlərinin də olduğunu qeyd edib.



Hacı İbrahim Nehrəmli qeyd edib ki, layihənin miqyası daha böyük əməkdaşlığa imkan verir və buna görə də “Khazar İslands”a maraq göstərəcək bütün şirkətlərlə əməkdaşlığın mümkün olduğunu bildirib. Səfir Ciampaolo Kutillo Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında iqtisadi əlaqələrin daha da dərinləşməsi, İtaliya yeni şirkətlərinin “Khazar İslands” layihəsinə qoşulması və xüsusilə də sərmayə qoyuluşu istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb. “Khazar İslands” yeni şəhər kompleksi çərçivəsində görülən işlərlə tanış olam səfir Ciampaolo Kutillo fəxri qonaqlar kitabına ürək sözlərini də yazıb.

Görüşdə İtaliyanın Ticarət Agentliyinin Azərbaycan üzrə nümayəndəliyinin direktoru Luici D’Aprea da iştirak edib.

❑ **Xəbər xidməti**



YENİ MÜSAVAT

N 38 (6066) 19 fevral 2015

# “İndi özümü daha güclü hiss edirəm”

## İlhamiyyə Rza: “Mənim üçün “125-lər” Siyasi Klubu Vətən, xalq, millət sözlərinin pafossuz deyildiyi, səsləndiyi yeganə yerdir”

**Fevralın 14-də “125-lər” Siyasi Klubunun yaradılmasının bir ili tamam olub. Bu ilin noyabr ayında keçiriləcək parlament seçkisində müstəqil namizədlərin birliyi kimi yaradılan qurumun rəhbəri İlhamiyyə Rza ilə söhbətdə ötən bir ili incələdik.**

***- İlhamiyyə xanım, 1 il necə keçdi? İlkin hədəflərinizə çata bilmisinizmi?***

- Doğrusu, hədəflərimizi bir qədər fərqli şəkildə müəyyən etmişik. Strateji hədəflər və yaxın hədəflər. Strateji hədəflərimiz hüquqi dövlət quruculuğunda iştirak etmək, müstəqil, azad, demokratik, iqtisadi baxımdan varlı, geosiyasi baxımdan nüfuzlu bir ölkəyə sahib olmaq üçün töhfə verməkdir. Yaxın hədəfimizsə bütün bu söylədiklərimizi həyata keçirə bilmək üçün ölkənin ali qanunverici orqanında təmsil olunmaqdır. Məhz bu məqsədlə təşkilatlandıq. Keçən il fevralın 14-də “Sevgililər günündə” xalqımıza, vətənimizə sevgilərlə bu klubu təsis etdik. Pafoslu görünə bilər, amma mənim üçün “125-lər” Siyasi Klubu Vətən, xalq, millət sözlərinin pafossuz deyildiyi, səsləndiyi yeganə yerdir.

***- Təsis olunduğunuz gün toplanıb qurum daxilində özünüzə bir hesabat verdinizmi?***

- Bir il başa çatdığına görə əlbəttə ki, hesabat verməlisən, ilk növbədə özünə. Bu bir il müddətində çalışdıq ki, ölkənin ictimai-siyasi həyatında iştirak edək, təşkilat olaraq tanınaq. Baş verən önəmli olaylara münasibət bildirməklə siyasi kimliyimizi formalaşdıraq. Mənə elə gəlir, biz bir qurum olaraq bir ildə ölkənin gündəmində öz yerimizi tuta bildik. Hər halda, çalışdıq ki, Azərbaycanın siyasi, iqtisadi gündəmindəki əsas mövzularla bağlı biz də ortaya mövqe qoyaq.

***- Dekabr ayında keçirilən bələdiyyə seçkisi sizə hansı təcrübəni qazandırdı? “125-lər”ə yaxın insanlar seçkiyə qatıldı, üzvləriniz, çevrənizdəki insanların təcrübəsi Azərbaycandakı seçki sistemi ilə bağlı hansı gerçəkləri ortaya çıxardı?***

- Bələdiyyə seçkilərində “125-lər” klubu olaraq iştirak etmirdik. Bizim hədəfimiz, bildiyiniz kimi, parlament seçkisidir. Ancaq klub üzvlərindən seçkiyə qatılanlar oldu və biz bunu, necə deyərlər, alqışladıq da. Çünki seçki, istənilən halda, demokratiya prosesidir və hədəflərimizə çatmaq, öz potensialımızı gerçəkləşdirmək üçün ədalətli seçkini yeganə yol sayırıq. Bələdiyyə seçkisində partiya mənsubiyyəti olan bəzi üzvlərimiz iştirak etdilər. Uğur da qazandılar. Amma bu, bələdiyyə seçkilərinin ümumən uğurlu keçdiyinin göstəricisi deyil. Seçkilərin neçə keçdiyini müşahidə edən, monitorinq aparan qurumların rəyi mənfidir. Öz müşahidələrimiz də ürəkaçan olmadı təəssüf ki. Uğur sözünü işlətməyimsə, kampaniyanın aparılmasına aiddir. “125-lər” Siyasi Klubu şəbəkə prinsipini əsas götürdüyündən şəbəkənin digər üzvləri komanda şəklində öz köməyini əlbəttə ki, əsirgəmədi. Ümid edirəm və inanıram ki, parlament seçkilərində də belə olacaq - biz vahid komanda kimi işləyə biləcəyik.

**““Dəmir ledi” ifadəsinin qadın üçün kompliment olmadığını düşünürəm”**

***- Dediyiniz kimi, həm beynəlxalq qurumlar, həm ölkə içərisindəki demokratik institutlar son bələdiyyə seçkilərinin total saxtakarlıqlarla müşayiət olunan digər seçkilərdən heç nə ilə fərqlənmədiyini deyir. Hətta sizin kluba qarşı da müəyyən iradlar səsləndi. Bu durumdan narahat deyilsiniz?***

- Bizi narahat edən daha çox ölkədəki siyasi qurumların, eləcə də müstəqil şəxslərin seçki prosesində fəal iştirak etməməsidir. Nə passiv, nə aktiv boykotu siyasi mübarizədə düzgün taktika hesab etmirəm. Təbii, burada obyektiv səbəblər də yox deyil: ölkədə seçkinin nəticələri dəfələrlə saxtalaşdırılıb. Bu da öz növbəsində vətəndaşın seçici fəallığına, ümumiyyətlə, ictimai fəallığına böyük zərbədir. Bununla belə, hesab edirik ki, dəyişikliklərə yalnız ardıcıl siyasət yürütməklə çatmaq olur. Bunun üçünsə, yalnız sivil yol -seçki qəbulediləndir. Ümumiyyətlə, ölkədə seçkilərlə bağlı mənfi rəy və qənaətlərə baxmayaraq, hesab edirəm ki, prosesin düzgün aparılması qələbəni təmin edən əsas şərtlərdən biridir.

***- Yerli media əsasən sizə siyasətçi kimi deyil, televiziyaçı kimi müraciət edir. İllərdir efirdə olmamağınıza baxmayaraq siz seyrçinin yaddaşındasınız. Belə demək mümkündürsə, köhnə obrazınız yeni obrazınıza mane olmur ki? Ümumiyyətlə, siyasətçi kimi özünüzü necə hiss edirsiniz?***

- Ölkəm məni efirdən tanıyıb. Bu gerçəyi heç cür dəyişmək olmaz. Siyasətdə mən hər nə qədər uğur qazansam da vətəndaşlar üçün daha çox televizyonçu obrazındayam. Və etiraf edim ki, bundan çox məmnunam. Bir insanın öz peşəsi ilə tanınıb sevilməsindən gözəl nə ola bilər axı. Demək ki, boşuna keçməyib illərim. Əslində böyük mənada özümü necə hiss etməyimdə dəyişikliklər baş verməyib. Jurnalist fəaliyyətim dövründə olduğu kimi, o zamanlarda olduğu qədər, ölkə həyatında baş verənlərdən etkilənirəm və bir vətəndaş kimi əlimdə olan meydandan, rıçaqlardan istifadə edərək hadisələrə təsir etməyə çalışıram. Fərq ondadır ki, artıq bunu bir fərd olaraq yox, vətəndaş təşəbbüsü ilə təşkilatlanmış siyasi mahiyyətli bir qurum adından, bu qurumun üzvləri ilə birlikdə edirəm. Bu da hesab edirəm ki, güclənmişəm anlamına gələ bilər. Odur ki, sualınıza qayıdaraq, cavab verirəm ki, son bir ildə özümü daha güclü hiss edirəm.



**“Parlament seçkilərində də belə olacaq - biz vahid komanda kimi işləyə biləcəyik”**

***- Gözəl qadın siyasətdə də efirdəki qədər cəlbedicidirmi?***

- Nədənsə çoxları siyasətçi qadını, rəsmi, emosiyalardan uzaq, karyerist birisi kimi təsəvvür edir. Sözsüz, sadaladıqlarım qadının gözəlliyini artıran cəhətlər deyil. Amma mən düşünmürəm ki, siyasətçi qadında sadaladığım bu xüsusiyyətlər olmalıdır. “Dəmir ledi” ifadəsinin də qadın üçün kompliment olmadığını düşünürəm. Odur ki, obrazımda elə də ciddi dəyişikliklərin baş verməyi qənaətindəyəm. Nə davranışımda, nə də verdiyim qərarlarda ürəyimin, ağlımın, vicdanımın əleyhinə getməmişəm. Getsəydim, bu, mütləq öz zahiri ifadəsini göstərərdi. Ümumiyyətlə, istənilən sahədə gözəllik gərəkdir, amma bu, daxili gözəllik olmalıdır. Əməllərində, niyyətində... məndə bu varsa, nə mutlu mənə. Qalır bircə bunu qorumaq, artırmaq.

***- Seçkiyə Yasamaldan getməyə qərar vermisiniz. Nədən məhz bu dairəni seçmisiniz?***

- Ümid edirəm ki, mənim gələcək seçicilərim də bu müsahibəni oxuyub nədən məhz onları seçdiyimi biləcəklər. Yasamal rayonu 17 saylı 3-cü seçki dairəsini seçməyimin səbəbləri çoxdur. Amma bu səbəblər içində ən həlledicisi həmin ərazidə dostlarımın yaşaması, onlara, onların köməyinə, dəstəyinə güvənməyimdir. Həmçinin onların da mənə güvənməsi istəyidir. Özü də tək onların deyil, seçiləcəyim təqdirdə, məhz həmin ərazidə yaşayan insanları parlamentdə təmsil etmək istəyidir. Əhalinin bütün kontingentləri barədə az-çox məlumatım var və hesab edirəm ki, onlarla dil tapmaq, əməkdaşlıq etmək mənə çətin olmayacaq. Qərar verməzdən öncə, rəyləri də öyrəndim, bəzi məlumatları gözdən keçirdim. Ərazi əhalisini intellektual hesab edənlər çoxluq təşkil etdi. Bilirsiniz ki, mənim xitab etdiyim auditoriya həmişə intellektual kəsim olub. İstər televiziyada, istər mətbuatda, istərsə də sosial şəbəkələrdə. Özü də intellekt mənim üçün heç də diplomların sayı, topladığın bilgilərin, oxuduğun kitabların miqdarı ilə ölçülmür. İntellektual adam, həyat, peşə, təhsil, elm təcrübəsini, bir sözlə, əldə etdiyi faydalı nəyi varsa, cəmiyyətin mənafeyi üçün istifadə edən, etmək istəyən mədəni insandır mənim üçün. Mən seçkilərdə məhz belə insanlara səslənəcəyəm. Çünki dediyim kimi, hər zaman özünü məhz bu kateqoriyadan olan insanlarla əhatə etməyə çalışmışam. Yasamalda yerləşən təhsil ocaqlarının, mədəni müəssisələrin sayını nəzərə alsaq, ərazini Bakının mədəni mərkəzlərindən biri də hesab edə bilərik. Belə yerlərin xüsusi aurası, mikromühiti olduğuna inanıram. Həmin məkanlardan biri "Sovetski" deyilən ərazi idi ki, indi onun haqqında keçmiş zamanda danışmalı oluruq. Həmin ərazi söküləndə əhalinin mülkiyyət hüquqlarına, yurd yeri duyğularına anlayış və hörmətlə yanaşılması çağırışı ilə çıxış etmişdik də, xatırlayırsınızsa. Bu, "125-lər" klubunun müzakirələrindən birində hazırladığımız müraciət, çağırış idi. Demək istədiyim odur ki, Yasamal əhalisini kompakt yaşadığı əraziyə görə xarakterizə etmək mümkün olub. Dediyim kimi, öz “iqlimi” olan mikromühitlər olub hər zaman orda. Təəssüf ki, böyük bir tarixi dövrün nişanəsi olan “Sovetski” kimi məhəllələr daha yoxdur. Amma keçmişə çox bağlı olmaq, nostalji duyğuları naminə tərəqqiyə də göz yummaq olmaz. Bütün hallarda, zaman sürətə irəliləyir və öz yolunda bütün dekorasiyaları dəyişir. Çox vaxt bu proses ağrısız ötüşmür. Əlbəttə, bütün proseslərin mərkəzində insan dayananda həmin ağrıların nisbəti xeyli aşağı düşür.

**“Yasamal rayonu 17 saylı 3-cü seçki dairəsini seçməyimin səbəbləri çoxdur. Amma bu səbəblər içində ən həlledicisi odur ki...”**

***- Siyasətçilər ölkədə siyasi mübarizə imkanlarının zəifliyindən də şikayətçidirlər. Xüsusən seçki dönəmində vətəndaşlarla namizədlər arasında süni əngəllər yaradılır, onların görüşlərinə rəsmi səviyyədə müdaxilələr edilir, efir imkanları süni əngəllərlə məhdudlaşdırılır. Siz sosial şəbəkədə çox aktivsiz. Dünyadakı tendensiyalar da göstərir ki, indi siyasətçilər elektoratlarına sosial şəbəkələr üzərindən daha çox mesaj verir. Siz bu metodu nə qədər uğurlu, yararlı sayırsınız? Məsələn, facebook üzərindən ciddi seçki təbliğatı qurmaq mümkündürmü?***

- Bilirsiniz, sosial şəbəkələrin açdığı imkanlar genişdir. Xüsusilə başqa imkanların yox kimi göründüyü bir zamanda. Əlbəttə ki, bundan yararlanmamaq düzgün olmazdı. Lakin bununla da kifayətlənmək olmaz. Unutmayaq ki, ölkə başdan-başa internetləşsə belə, real, gerçək ünsiyyətin əvəzini heç nə vermir. Odur ki, çalışacağam virtual ünsiyyətlə kifayətlənməyim. İstənilən inkişaf, irəliləyiş mübarizədən keçir. Mübarizənin mümkün olduğu bütün sivil imkanlardan istifadə etmək siyasətçinin borcudur. Bu gün məhz sosial şəbəkələr mənə öz tamaşaçımla, dolayısı ilə elektoratımla əlaqələrimin qırılmasına imkan verməyib. Əksinə, bəlkə də onların dairəsini genişləndirib. Ətrafıma həmfikir insanları toplayıb. Bir sözlə, sosial şəbəkə böyük imkanlar açıb. İnanıram ki, seçki kampaniyamda bundan bacarıqla istifadə edəcəyəm. Sonda ətrafımda olan fikir ortaqlarıma, seçkiyə qatılan 125-lərə, eləcə də, məxsus olduğu düşərgədən asılı olmayaraq, bu ölkənin sabahını düşünüb səmimi olaraq parlamenta can atan insanlara uğur diləyirəm.

❑ **Aygün MURADXANLI**

# Amerika diplomatının Bakı səfərinin pərdəarxası

## Elxan Şahinoğlu: “ABŞ-Azərbaycan münasibətlərində yeni dövr başlayır”

**“Bakıdakı danışıqlarda əsas müzakirə mövzularından biri Qarabağ məsələsinin həllinin tezləşdirilməsi ilə bağlı olub. Azərbaycan üçün daha çox şimal tərəfdən olan təhlükələrdən danışılması da mümkündür. İlham Əliyev dəfələrlə ad çəkmədən vurğulayıb ki, belə bir təhlükələr var. Ona görə də bu nöqteyi-nəzərdən Azərbaycanın təhlükəsizliyinin təmin olunması üçün müzakirələrin aparıldığı istisna deyil”.**

**“Turan” agentliyinin direktoru Mehman Əliyev** ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Viktoriya Nulandın fevralın 17-də Bakıya etdiyi qəfil səfəri və onun mesajlarını dəyərləndirərkən bunları söylədi. M.Əliyev deyir ki, bu gün stabillik məsələsi artıq demokratiyadan keçir: “Dünən stabillik neftdən keçirdi. Yəni böyük pullar var idi, bu pulların hesabına cəmiyyətdə razılıq yaratmaq olurdu. Amma bu gün artıq bu, problemdir. Ona görə də birgə işləmək, vəziyyətdən çıxmaq üçün hansısa milli konsensus, işbirliyi lazımdır. Bu da siyasi və iqtisadi islahatlar məsələsinə gəlib çıxır. Əlbəttə, siyasi islahatlar ilk növbədə demokratik sistemin qurulmasından, insan haqlarına hörmətdən, mülkiyyətin toxunulmazlığından, qanunun aliliyi, məhkəmə, media azadlığından keçir. Yəni bu komponentlər olmadan azad, normal, sağlam iqtisadiyyatın qurulması mümkün deyil”. **Ekspert deyir ki, Amerika ilə gərginlik daha çox Azərbaycanda süni şəkildə yaradılmışdı:** “İndi də Azərbaycan rəsmiləri ardıcıl şəkildə bildirirlər ki, heç bir gərginlik mövcud deyil, bu gərginliyin arxasında erməni lobbisi dayanıb. Amma fakt odur ki, rəsmi Bakı Amerika ilə münasibətlərdə problem olmadığını bəyan edir”.

**Amerikalı diplomatın Bakı səfərindən sonra Tiflis və İrəvana səfər etməsi hansı anlamı daşıyır? Bu, Cənubi Qafqazla bağlı Vaşinqtonun hansısa ortaq layihəsinin anonsudur, yoxsa başqa məram-məqsəd var? M.Əliyev:** “İş ondadır ki, regionlarda ən ciddi problem yaradan tərəf Rusiya idi. Məsələn, Ermənistanın assosiativ sazişi imzalamaqdan imtina etməsi və Avrasiya Birliyinə girməsi prosesə açıq şəkildə Rusiyanın təzyiqinin olduğunu göstərdi. O cümlədən Moskva Azərbaycan və Gürcüstana da təzyiq edir, ancaq hər ölkəyə özünəməxsus şəkildə. Ona görə də Rusiyanın zəifləyib indiki vəziyyətə düşməsi postsovet ölkələrində daha sərbəst islahatların aparılmasına və daha qərbyönümlü siyasətə zəmin yaradır. Ona görə də amerikanlar bundan istifadə edib Azərbaycanda və digər ölkələrdə avropayönümlü, qərbyönümlü islahatların aparılmasını tələsdirəcəklər. Azərbaycan tərəfi də artıq situasiyanı başa düşür və partiyalarla başlayan dialoq da bunu təsdiqləyir”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyir ki, Nulandın Bakıya səfərinə ehtiyac var idi:** “Çünki son illər Azərbaycan rəsmiləri ABŞ-ın siyasətini kəskin tənqid edirdi. Rəsmi Bakı Vaşinqtonun Azərbaycanda hakimiyyəti devirmək kimi planının olduğundan şübhəli idi. Ukraynada ”Maydan" hadisələri rəsmi Bakının şübhələrini daha da artırdı. Reallıqda Vaşinqtonun hazırkı şərtlər altında Azərbaycanda hakimiyyət dəyişikliyi etmək kimi planı yoxdur".


Elxan Şahinoğlu

**Politoloq hesab edir ki, daha çox önəmli olan da ilk açıqlama “ABŞ Azərbaycanda ”rəngli inqilab" həyata keçirmək istəmir" fikirləri idi:** “Prezident İlham Əliyevin mövqeləri hələ ki güclüdür. İlham Əliyevin mövqelərini zəiflədəcək alternativ qüvvə isə zəifdir. Ona görə də Vaşinqton indiki məqamda məhz güclü ilə əməkdaşlıq variantını seçdi. İkinci önəmli açıqlama ”ABŞ-la Azərbaycan arasında enerji əməkdaşlığı yüksək səviyyədədir" fikirləridir. İlham Əliyevin Avropanı alternativ qazla təmin etmək siyasəti Vaşinqtonun xoşuna gəlib. TAP və TANAP layihələrini irəli sürən İlham Əliyev faktiki təşəbbüsü ələ alıb. Cənubi Qaz Dəhlizi Rusiya qazına alternativ olacaq yeganə real layihədir və bu layihənin hərəkətverici qüvvəsi İlham Əliyevdir. Təsadüfi deyil ki, fevralın 12-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının təsis konfransına Dövlət Departamentinin rəsmisi də gəlmişdi. Halbuki rəsmi Bakı bu tədbirə xüsusi olaraq ABŞ-dan kimsəni dəvət etməmişdi. Ancaq Vaşinqtonun bu layihəyə böyük marağı olduğundan Bakıdakı tədbirdə iştiraka qərar verdilər. Yaxın illərdə məhz enerji əməkdaşlığı ABŞ-Azərbaycan münasibətlərinin əsasını təşkil edəcək. Vaşinqtonun Azərbaycana göndərdiyi səfir Robert Sekuta da Dövlət Departamentində energetika sahəsinə cavabdeh idi".

**E.Şahinoğlu hesab edir ki, Vaşinqtonun iki azərbaycanlı girovu azad etməsinə yönəlik fəaliyyəti Azərbaycan hakimiyyətində və cəmiyyətində müsbət reaksiyaya səbəb olub:** “Əgər Vaşinqton həmin iki azərbaycanlının azadlığa çıxmasına nail olarsa, bu, Azərbaycan-ABŞ münasibətlərini daha da möhkəmləndirəcək. Bütün hallarda ABŞ-Azərbaycan münasibətlərində yeni dövr başlayır. Vaşinqton əvvəlki illərdə olduğu kimi insan haqları və demokratiya məsələlərində rəsmi Bakı qarşısında sərt tələblər qoymayacaq. Əlbəttə, Vaşinqton ABŞ-ın Azərbaycanda fəaliyyət göstərən bütün qeyri-hökumət təşkilatlarının, o cümlədən AzadlıqRadiosunun yenidən fəaliyyətə başlamasında maraqlıdır. Ancaq bu baş verməyəcəksə, buna görə Dövlət Departamenti rəsmi Bakı ilə münasibətləri gərginləşdirməyəcək. Vaşinqton üçün hazırda önəmli olan Azərbaycanı Rusiyanın orbitinə daxil olmaqdan yayındırmaqdır".

**E.Şahinoğlu deyir ki, Azərbaycan hakimiyyətinin özü də Rusiyadan ehtiyat edir:** “Ona görə də indiki zamanda rəsmi Bakının Vaşinqtonun dəstəyinə ehtiyacı var. Bu, rəsmi Bakının ”balanslaşdırılmış xarici siyasət" konsepsiyasına da uyğundur. İlham Əliyev təhlükəsizlik və enerji məsələlərində ABŞ-la əməkdaşlığın davam etdirilməsini istəyir. Buna görə də rəsmi Bakı ABŞ əleyhinə ritorikanı tədricən yumşaltmağa qərar verib. İlham Əliyevin Vaşinqtona rəsmi səfərə dəvət edilməsi də reallaşa bilər".

❑ **Cavid TURAN**

# Emin Hüseynovun yaxalanması üçün yeni plan... - iddia

## RATİ sədrini həbs etmək üçün İsveçrə səfirliyinə qəribə tələ qurulub

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) direktoru Emin Hüseynovun İsveçrənin Azərbaycandakı səfirliyinin binasında gizlənməsi barədə xəbər mətbuatın gündəmindədir. İndi əsas müzakirə mövzusu Emin Hüseynovun hansı formada ölkədən çıxarılmasıdır.**

Bu, mümkündürmü? Qanunlar nə dərəcədə imkan verir?

**Hüquqşünas Müzəffər Baxış** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, səfirliyin binası İsveçrə dövlətinin ərazisidir. Onun sözlərinə görə, belə hallarda dövlətin həmin əraziyə daxil olmağa heç bir səlahiyyəti yoxdur: “Emin Hüseynov könüllü o səfirlikdən çıxmasa, istintaqın o səfirliyin ərazisinə girməyə heç bir ixtiyarı yoxdur. Əks halda, bu, beynəlxalq hüquq normalarının və Azərbaycan qanunlarının pozulması kimi qiymətləndiriləcək. Həm də ciddi qalmaqal olacaq. Beynəlxalq normalara əsasən, hər hansı dövlətin digər dövlətin ərazisindəki səfirliyi onun ərazisi hesab olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan dövləti həmin səfirliyin ərazisinə müdaxilə edib, Emin Hüseynov barəsində məhkəmənin onun axtarılması, tutulması qərarını təmin edə bilməz. Bu, çox böyük beynəlxalq qalmaqal kimi qiymətləndirilə bilər”.

**Hüquqşünas onu da dedi ki, səfirlik E.Hüseynovu ölkədən çıxarmaq səlahiyyətinə də malik deyil. Müsahibimizin sözlərinə görə, səfirlik bununla bağlı hər hansı cəhd göstərsə, dəmiryol və ya hava yolu vasitəsilə RATİ sədrini ölkədən çıxarmaq yönündə addımlar atsa, Azərbaycan dövləti qanunlarla bunun qarşısını ala və E. Hüseynovun həbs edilməsini təmin edə bilər:** “Düşünmürəm ki, səfirlik belə bir fəaliyyətə cəhd göstərsin. Bilirlər ki, belə bir cəhdin qarşısı Azərbaycan dövləti tərəfindən alınacaq. Ona görə Emin Hüseynov həmin səfirliyin binasında qalmağa məcburdur.

Səfirlik onu nə qədər saxlayacaqsa, o qədər də qalacaq".

M.Baxış həmçinin dedi ki, E.Hüseynova siyasi sığınacaq verilərsə, bu halda da onun ölkədən çıxması məsələsi tənzimlənə bilməz. Onun fikrincə, E. Hüseynov qanuni yollarla Azərbaycan dövlətinin əlinə düşsə, onu həbs edəcəklər. Çünki ona siyasi sığınacaq versələr də, ölkə ərazisindən kənara çıxara bilməyəcəklər.


Emin Hüseynov

Xatırladaq ki, E.Hüseynovun son 6 ayda İsveçrənin Bakıdakı səfirliyi tərəfindən qorunması xəbərini İsveçrənin Milli SRF Telekanalında yayımlanan “Rundschau” verilişi ortaya çıxarıb.

İsveçrə jurnalistlərinin yaydığı xəbərə əsasən, Emin Hüseynov ehtimal olunduğu kimi İsveçrənin Bakıdakı diplomatik missiyasındadır. İsveçrə telekanalının "Rundschau" proqramının efirə hazırladığı verilişdə Emin Hüseynovun “səfirlik sığınacağı”nın detalları açıqlanır. “2014-cü ilin avqustu idi. Hər dəqiqənin əhəmiyyəti var idi. Emin Hüseynov özünü İsveçrə vətəndaşı kimi qələmə verərək polisin təqibindən yaxa qurtara bildi” - Hüquq müdafiəçisi Florian İrminger dramatik hadisələri İsveçrə telejurnalistinə belə təsvir edir və bildirir ki, həmin vaxtdan Emin səfirliyin binasında gizlənir. "Rundscahu"nun rəsmi sorğusuna cavab verən İsveçrə Xarici İşlər Nazirliyi bildirib ki, Emin Hüseynova “humanitar əsaslarda” sığınacaq verilib.

“Yeni Müsavat”a daxil olan xəbərdə isə bildirilir ki, hazırda hakimiyyət İsveçrənin Azərbaycandakı səfirliyinə E.Hüseynovla bağlı ciddi təzyiq göstərir. Təzyiqin əsas istiqaməti olaraq səfirlik binasının “zərərsizləşdirilməsi” seçilib. İddialara görə, səfirliyə hazırda məskunlaşdığı binanı icarə verən şəxs saxlanılıb və ona bu yaxınlarda bitəcək icarə müqaviləsini uzatmaması ilə bağlı göstəriş verilib. Əks halda, ona qarşı təzyiqlərin davam edəcəyi bildirilib. Binanın sahibi isə qarşı tərəfin dediyi ilə razılaşıb. Məlumatda həmçinin iddia olunur ki, E. Hüseynovu məhz bu zaman kəsiyində, səfirlik binanı boşaldarkən, yerdəyişmə edərkən yaxalamaq planı var.

**“Yeni Müsavat” İsveçrənin Azərbaycandakı səfirliyinin bu məsələ ilə bağlı mövqeyini öyrənməyə çalışsa da, buna nail olmadı. Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **Sevinc TELMANQIZI**

# “Bu, bir media məsələsi deyil”

## Zeynal Məmmədli AzadlıqRadiosunun taleyi ilə bağlı danışdı

**AzadlıqRadiosu Azərbaycan bürosunun fəaliyyəti ilə bağlı durum öz mübhəmliyini qoruyur. Radionun bəzi əməkdaşlarının səsi Avropadan gəlir, bəziləri işsizdir, hətta müqaviləsini dayandıran da var. ABŞ dövlət katibinin müavini Viktoriya Nulandin ölkəyə səfəri, ABŞ-ın yeni səfirinin təyinatından sonra radionun taleyi ilə bağlı suallar da artıb. Çoxları hər iki yeniliyin radionun taleyinə müsbət təsir edəcəyi düşüncəsindədir.**


Zeynal Məmmədli

Radionun Azərbaycan xidmətinin Bakı bürosunun rəhbəri Zeynal Məmmədli “Yeni Müsavat”a açıqlamasında son durumdan danışdı. Dedi ki, radionun ştatında çalışanlar, əməkdaşlıq edənlər öz hesablarına məzuniyyətə buraxılıblar. Onun sözlərinə görə, bununla bağlı radionun mərkəzi aparatı məlumatlıdır: “Biz də fikirləşirik ki, səfirin gəlməsi, ABŞ dövlət katibinin müavini Viktoriya Nulandın burda olması hardasa, nəyəsə aydınlıq gətirə bilərdi. Amma bir şeylər yoxdu. Əvvəl-axır bu məsələlərdə nəsə dəqiqlik olacaq. Xanım Nulandın səfəri başa çatacaq. Bundan sonra yəqin bu məsələlərlə bağlı reaksiya olacaq. Qalan məsələlərdən təfərrüatı ilə bağlı bilgim yoxdur”.

**Müsahibimiz radionun qapısına möhür vurulandan sonra kiminsə mühacirət etməsi ilə bağlı məlumatı olmadığını dedi. Onun sözlərinə görə, radio bağlanmamışdan qabaq kim işdən çıxıbsa, çıxıb. Bu isə ofis möhürlənməmişdən qabaq baş verib:** “Qalan hamı öz işindədir. Çox əlaqə saxlaya bilmirik, hamının qayğıları, işi-gücü çoxdur. Kim vətəndədirsə vətəndədir. Vətəndə olmayanlar da qayıdacaq”.

**Z.Məmmədlinin sözlərinə görə, müqaviləsini dayandırmaq üçün işçilər sərbəstdilər. Müsahibimiz dedi ki, buna görə heç kimi qınamaq olmaz:** “Maddi çətinlikdir. Hamının ipoteka borcu, kreditləri var. Hər kəsin seçim etmək hüququ var. Üstəlik, gələcək fəaliyyəti necə olacaq, bunlar narahatlıq yaradır. Burda münasibət beldir ki, kim çıxırsa, başqa işə girirsə, çox normal qarşılanır.

Qeyri-müəyyənliyin nə qədər davam edəcəyi ilə bağlı bilgimiz yoxdur. Bu, bir media məsələsi deyil. Bu, iki dövlət arasında danışıqların nəticəsindən asılı olacaq".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 38 (6066) 19 fevral 2015



# Allah sizə rəhmət eləsin, dirilər!..

**Hüseynbala SƏLİMOV**

**Ümid etmək olar ki, ABŞ dövlət katibinin müavininin ölkəyə səfəri münasibətlərə azacıq da olsa aydınlıq gətirəcək. Belə hallarda təmasların intensivləşməsi mühüm məsələdir, çünki Aristotelin təbiət haqqında dediklərini bütünlüklə siyasətə də aid etmək olar-təbiət kimi elə siyasət də boşluğu sevmir...**

Həm də ABŞ-dan təkcə hakimiyyət deyil, elə demokratlar da gileylidir. Belə nəticə hasil etmək olar ki, ya müəyyən məsələlər bu ölkə üçün ümumiyyətlə önəm kəsb etmir, ya da onlar o qədər kiçik məsələlər hesab edilir ki, onların ümumi münasibətlərə heç bir xələl gətirməyəcəyi düşünülür...

Kim bilir, bəlkə ABŞ-ı elə belə Azərbaycan da qane edir? Axı özümüzün müstəsna yerimiz haqqındakı əfsanəni də elə özümüz yaratmışıq. Ən azı bu son aylarda neftin kəskin ucuzlaşması onu göstərdi ki, ABŞ Azərbaycan kimi bir neçə ölkəni neft məsələsində, necə deyərlər, mat qoyar...

Biz bu vaxta qədər nə demişik? Guya ki, Azərbaycan Avropanın və ABŞ-ın neft və qaz siyasətində müstəsna rol oynayan ölkədir. Budur, "müstəsna rolu" olan ölkə elə seytnota düşüb ki, hətta səsini də çıxara bilmir...

Amma hamıdan ağır durumda bizik - bu ölkənin demokratları... Qalanların başı seriallara və bir də avtomobil qəzalarından reportajlara qarışıb, sanki bu ölkədə başqa heç nə baş vermir...

Digər məsələlərə gəldikdə isə, bəli, qışdan da daha bir şey qalmayıb. Bunu ona görə demirik ki, özümüzün və cəmiyyətimizin qış yuxusundan ayılacağına ümid bəsləyirik, yox, belə deyil, ən azı ona görə ki, biz ilin bütün fəsillərində yatırıq - yayda da, qışda da...

Bəlkə Mirzə Cəlil sağ olsaydı indi də bir "Dirilər" əsərini yazardı və həmin bu əsəri də elə "Allah sizə rəhmət eləsin, dirilər!" sözləri ilə bitirərdi...

Elə biz də sanki ona qoşulub "Allah sizə rəhmət eləsin, dirilər!"- deyirik. Bəlkə nə vaxtsa sizin də gözünüzə gün düşəcək, qəflət yuxusundan, serialların və sosial xəbərlərin əsarətindən qurtulub bu ölkəyə daha geniş nəzərlə baxacaqsınız...

Bəlkə də özünüz o vaxt az qala təəccübdən bir daha öləcəksəniz və məəttəl qalacaqsınız ki, bu ölkədə nələr olub, hansı küləklər əsib, hansı sular axıb?!.

İndi isə bunun fərqində deyilsiniz. Nə demək olar? Yatın, yuxunuz şirin olsun və yuxuda gördükləriniz də çin olsun...

Axı aciz və biçarə bir demokrat bundan savayı nə deyə bilər sizə? Amma yox, bu günlərdə ağlıma çox gözəl bir "şüar" gəldi: "Bütün ölkələrin biçarə və aciz demokratları, birləşin!"...

Bəli, onlar birləşməlidir, çünki yuxuları ərşə çəkilib bu adamların, işin tərsliyindən də onların ölkələrində ayıq adamları sevmirlər. Həm də "Güc birlikdədir"-deyiblər. Birləşsələr, bəlkə ABŞ dövlət katibinin müavini iltifat göstərib onları da qəbul edər...

Birləşəcəklərmi? Bilirsiniz, ən axmaq situasiyanın, ən axmaq işin belə öz "nəzəriyyəçi"ləri olur. Onların işi-peşəsi bəzi axmaq adamların axmaq işlərini və qərarlarını "nəzəri" cəhətdən əsaslandırmaqdır...

Bəli, neçə ilin söhbətidir. Bəzi adamların ambisiyaları ucbatından birləşə bilmədik, ortada ciddi bir problem yox idi, sadəcə, bəzi adamların çox böyük ambisiyaları vardı...

Qərəz, birləşmək mümkün olmadı. O vaxt bəzi "nəzəriyyəçil"ər bunu belə yozdular ki, nə etmək olar, demokratlar çətin birləşir... O vaxt üzümüzü tutduq həmin "nəzəriyyəçi"lərə və soruşduq: siz kimə demokrat deyirsiniz, bu şeyx Nəsrullahlaramı?..

Amma eşitmədilər bizi. Nə etmək olardı? Bu "nəzəriyyəçi"lərin də problemi onda idi ki, onlar da həmin şeyx Nəsrullahların sayəsində mövcud idilər. Bəli, o vaxtdan yatdıq və dedik ki, demokratlarımız birləşəndə ayılarıq...

Qərəz, neçə illərdi ki, "yatırıq". Başqa nə etmək olar? İşin tərsliyindən havaların da soyuqlaşacağını deyirlər. Havalar soyuyanda bu ölkədə adamın əhvalı lap pozulur, çünki bədənində bir məzar soyuqluğu hiss edirsən, elə bil ki, bura böyük bir MƏZARSTANDIR...

Belə bir film də var. Təsəvvür edirsinizmi? Evdə ruhlar dolaşır, onların heç birinin özünün ölməsindən xəbəri olmur, hamı özünü diri hesab edir... Və belə ölü-diri evində psixoloji cəhətdən gərgin bir dram oynanılır...

Nə qədər qəribə olsa da, adam bəzən özünü həmin filmin personajları yerində təsəvvür edir; nəbzini-pulsunu yoxlayırsan ki, əcəba, bəlkə elə mən özüm də o filmdəki kimi çoxdan ölmüşəm, amma xəbərim yoxdur?..

# Mərkəzi Bank "qiyamət"ə hazırlaşır...

## Ekspertlər bildirirlər ki, tezliklə manatın məzənnəsinə psixoloji deyil, gerçək təsirlər də işə düşəcək...

**Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov Dövlət Televiziyasındakı çıxışında bildirib ki, Azərbaycanda manatın uzunmüddətli zəifləməsi üçün heç bir amil yoxdur. E.Rüstəmov bildirib ki, Azərbaycanda bivalyutalı səbət 2008-2011-ci illəri əhatə edən dövrdə də tətbiq olunub və bu, AMB-yə daha çevik məzənnə siyasəti həyata keçirmək imkanı verib: "Lakin o zaman neftin qiyməti çox yüksək səviyyədə olduğu üçün Azərbaycanın ödəmə balansının yüksək profisitliyi şəraitində balansdan irəli gələn manatın məzənnəsinin möhkəmlənməsinə böyük bir təzyiq var idi.**



Digər tərəfdən isə əhəmiyyətli dərəcədə avro da dollara qarşı bahalaşırdı. Hər iki amil manatın məzənnəsini möhkəmləndirməyə doğru aparırdı. Əgər biz o dövrdə bivalyutalı səbətdə avrodan imtina etməsəydik, bu gün daha möhkəm manat məzənnəsi ilə üz-üzə olardıq. Bunun üstün tərəfləri var, təbii ki, məsələn, inflyasiyanın azaldılması və sair. Lakin bunun da ixracatçıların mənafeyinin qorunması, iqtisadiyyatın diversifikasiyasına mənfi təsiri var və sair. Bütün bunları nəzərə alaraq, biz o zaman bivalyutalı səbətdən imtina etdik. Bu gün isə biz tam başqa bir mənzərə ilə rastlaşırıq. Bilirik ki, davamlı şəkildə avro dollara qarşı ucuzlaşır. Bizim məzənnəmizin sərt şəkildə dollara bağlandığına görə, bu ötürücülük manata da təsir edir. Çox maraqlıdır ki, bu gün manatın məzənnəsi bizim əsas ticarət tərəfdaşlarımıza qarşı üzən rejimdədir. Çünki biz dollara bağlıyıq, dollar isə digər məzənnələrə qarşı sərbəst rejimdədir. Avrozona bizim əsas tərəfdaşlarımızdan biridir. Və biz iqtisadi perspektivlərimizi düşünürük. Belə şəraitdə manatın dollardan tam asılılığını aradan qaldırmaq üçün biz avronu səbətdə bərpa etdik. Demək istərdim ki, bu bərpa *(avronun səbətdə payı-red.)* o qədər də əhəmiyyətli deyil. Bu isə bizə imkan verir ki, avronun dollara qarşı gözlənilən əlavə zəifləməsi manata ötürülməsin".

Baş bankir deyib ki, bivalyutalı səbətə keçid bütövlükdə məzənnə siyasətinə çeviklik və müstəqillik gətirəcək.

"Manatın uzunmüddətli zəifləməsi üçün bu gün heç bir amil yoxdur. İqtisadi praktikaya nəzər salsaq, bu, iki halda baş verə bilər. Birinci, əgər ölkənin ödəmə balansında davamlı defisit varsa. İkinci isə bu şəraitdə ölkənin heç bir ehtiyatlarının olmamasıdır. Lakin Azərbaycanın ÜDM-in 70 faizinə yaxın bir səviyyədə valyuta ehtiyatları var. Bir sözlə, bu iki fundamental amildən praktikada heç biri Azərbaycanda yoxdur", - deyə E. Rüstəmov bildirib. Bununla belə, baş bankir qeyd edib ki, "bütövlükdə qlobal səviyyədə gedən proseslərə biz reaksiya verməliyik".

**Əksər ekspertlər isə bildirirlər ki, manat qısamüddətli dövrdə kəskin ucuzlaşmayacaq. Ekspert Qubad İbadoğlunun sözlərinə görə, Mərkəzi Bankın müəyyən olunmuş dəhliz çərçivəsində valyuta bazarında iştirakını davam etdirəcəyi halda manatın qısa müddətli dövrdə kəskin ucuzlaşacağını gözləməyə dəyməz:** "Çünki mövcud iqtisadi və maliyyə imkanları yaxın müddətdə bu prosesin nəzarətdə saxlanılmasına imkan verir. Onsuz da Mərkəzi Bankın valyuta ehtiyatları manatın sabitliyi üçün xərclənir. Digər tərəfdən də məzənnə siyasətində ikitərəfli məzənnənin hədəflənməsindən valyuta səbəti dəyərinin hədəflənməsinə keçid zamanı avro yenidən səbətə daxil edilsə də, onun xüsusi çəkisi çox aşağı götürülüb. Lakin məlum açıqlamanın yaratdığı psixoloji təsirlər yaxın müddət ərzində aşağıdakı neqativ tendensiyaların güclənməsinə stimul verəcək:

Birincisi, Mərkəz Bank valyuta bazarında satışyönlü müdaxilə rejimində daha gərgin işləməyə məcbur olacaq. Bu isə müdaxilə xərclərinin artımını və valyuta ehtiyatlarının azalmasını sürətləndirəcək".

Ekspert qeyd edib ki, əhalinin gözləntiləri çox olduğuna görə, manatla olan depozitlərin geri götürülməsi davam edəcək. Bu da manata olan inamın azalmasını şərtləndirəcək. Həmçinin baş verənlər dövriyyədə nağd əməliyyatların artımına və gizli iqtisadiyyatın genişlənməsinə gətirib çıxaracaq. İri məbləğdə olan *(əmlak, torpaq və maşın bazarlarında)* alışlar və satışlarda dollara üstünlük veriləcək. Nəhayət, ölkədən kapital axını sürətlənəcək. "Mərkəzi Bank ötən ilin sonuncu rübü üzrə tədiyə balansının nəticələrini açıqlamasa da, artıq əvvəlki rüblər üzrə profisitin azalması qeydə alınıb. Daha ciddi azalma isə bu ilin 1-ci rübündə gözlənilir. Bu isə o deməkdir ki, əgər neftin orta illik qiyməti hətta indiki səviyyəsində qalarsa, tədiyə balansının profisiti kəskin azalacaq. Bir müddətdən sonra manatın məzənnəsinə artıq psixoloji deyil, gerçək təsirlər də işə düşəcək. Əsl "qiyamət" də onda qopacaq. Mərkəzi Bankın hazırkı qərarını həmin günə hazırlıq kimi dəyərləndirmək olar,- deyə Q.İbadoğlu vurğulayıb.

**İqtisadçı Vüqar Bayramov isə qeyd edib ki, paytaxtda əksər valyutadəyişmə məntəqələrinin qarşısında uzun növbələr ajiotajla bağlıdır:** "Mərkəzi Bankın valyuta səbətinin dəyişdirilməsi ilə bağlı qərarı əhali arasında əsası olmayan ciddi ajiotaj yaradıb. Əslində Mərkəzi Bank əhali arasında yaranan panikanın aradan qaldırmaq üçün vətəndaşlara izahat verməlidir. Dünyanın heç bir Mərkəzi Bankı öncədən devalvasiya olacağı ilə bağlı açıqlama vermir. Azərbaycanın baş bankında ölkədə devalvasiya əhval-ruhiyyəsi yaradaraq insanlar öz manatlarını dollara dəyişməsinə əsas yaratdılar. Mərkəzi Bankın intervensiya xərclərinin yüksək olması arzuolunan deyil. Amma manatını dollara çevirən vətəndaşlar onsuz bir müddətdən sonra pul xərcləmək üçün yenidən dollarlarını milli valyutaya çevirəcəklər. Pul dövriyyəsində bəlli həcmdə manat kütləsi var və kənardan ölkəyə milli valyuta ixrac edilmir. Bu isə o deməkdir ki, onsuz da müəyyən müddətdən sonra intervensiya xərclərində azalma müşahidə ediləcəkdi. Mərkəzi Bank müxtəlif dolayı metodlarla, o cümlədən əmanətlərin indeksasiyası yolu ilə dollara olan tələbi azaltmalı idi".

Yeri gəlmişkən, ekspertlər əhalini manatın kursunun düşəcəyi barədə xəbərlərdən panikaya düşməməyə çağırır. Bildirilir ki, söhbət qəfildən ucuzlaşmadan getmir. Mərkəzi Bank manatın məzənnəsinin müəyyən edilməsinin yeni mexanizmini tətbiq etməyə başlayıb. Yəni manatın dəyərdən düşməsi tədricən davam edəcək. Bildirilir ki, əslində Mərkəzi Bank buna getməyə məcbur olub. Əgər neft kəskin ucuzlaşmasa, yaxud da fövqəladə hadisə baş verməsə, bir manatın bir dollara bərabər olması gözlənilmir.

**RÖYA**

YENİ MÜSAVAT
N 38 (6066) 19 fevral 2015

# MŞ-nin iqtidar-müxalifət görüşünü "şou" adlandırmasına sərt reaksiyalar

**Milli Şuranın Koordinasiya Mərkəzi (MŞ KM) toplantı keçirərək siyasi partiyalarla iqtidar arasındakı görüşlərə münasibətini açıqlayıb. MŞ KM-in üzvləri hadisəni dialoq yox, əslində ölkə iqtidarının avtoritar və repressiv mahiyyətini pərdələmək adlandırıblar. Meydan.tv-nin yaydığı xəbərdə deyilir ki, KM üzvlərinə görə, bu "dialoq" siyasi və vicdan məhbuslarının sayı üzrə "dünya çempionu" olan, parlamentində bir nəfər müxalifətçi olmayan, demokratik təsisat və prinsipləri məhv etməyi prioritetə çevirən hakimiyyətin beynəlxalq birliyə yönələn demokratiya imitasiyasına xidmət edən siyasi şoudur.**

Sənəddə deyilir ki, KM üzvləri bu "şou"da iştirak edən siyasi partiyaların böyük əksəriyyətinin bugünədək fəaliyyətlərinin nəzərə çarpmadığına, onların adlarının belə ölkə cəmiyyətinə heç nə demədiyinə iddia edirlər: "Dialoq" imitasiyası başlanandan ölkədə insan hüquqlarının vəziyyəti daha da pisləşib, yeni həbslər həyata keçirilib, həbsdəki siyasi məhbuslara saxta hökmlər elan edilib, yeni və uydurma ittihamlar irəli sürülüb. Lakin bütün bunlar "dialoq" iştirakçılarını narahat etməyib və onların bugünədək əldə etdiyi yeganə nəticə "dialoqun davam etdirilməsi haqqında razılığa gəlinməsi" olub. Böyük əksəriyyətinin müxalifət adına iddia etməyə mənəvi haqqı olmayan və özlərindən başqa heç kimi təmsil etməyən fərdlərin bir iqtidar məmuru ilə belə predmetsiz və məzmunsuz görüşləri "hakimiyyət-müxalifət dialoqu" sayıla bilməz", - sənəddə vurğulanır.

MŞ rəhbərliyinin bu bəyanatına görüşdə iştirak edən partiyalardan bir neçəsinin sədrinin mövqeyini öyrəndik.

**KXCP sədri Mirmahmud Mirəlioğlu bəyanatla tanış olmadığını dediyi üçün bəyanatın mahiyyətini onun nəzərinə çatdırdıq. Münasibəti belə oldu:** "Mən sizdən eşitdiklərimin əsasında cavab verirəm. Hesab edirəm ki, o bəyanatdakı mövqe, yanaşma hətta tənqidə də layiq deyil, o dərəcədə zəifdir. İkincisi, Azərbaycan siyasətində, xüsusilə Milli Şuranın rəhbərliyində bir sıra insanlar var ki, onlara hörmətimizi saxlamaq şərtilə biz onların şəxsiyyətinə heç bir xələl gətirən ifadə işlətmədən onların fəaliyyətinə münasibət bildirmək istəyirəm. Bu gün Milli Şuranın Koordinasiya Mərkəzində elə şəxslər var ki, onlar kluarlarda, ayrı-ayrı şəxslərlə görüşlərdə, kütləvi görüşlərdə öz adamlarını aldadaraq deyirlər "Əli Həsənov bizə on də fə zəng elədi, amma biz oraya getmədik, Əli Həsənov zəng edib dəvət elədi, biz dedik ki, siz bizi heç cür oraya apara bilməzsiniz, Əli Həsənov filankəsə də zəng etmişdi, ancaq biz onu məcbur elədik ki, getməsin". Tərəfdarlarına bax, bu cür deyirlər. Olmayan şeyləri danışmaq ayıbdır. Mən sadəcə olaraq, təəssüf edirəm. Mən bunu mediaya açıqlamaq istəmirdim, amma məcbur elədilər deyirəm.



**Mirmahmud Mirəlioğlu:** "Orada bəziləri öz adamlarını aldadaraq deyirlər ki, Əli Həsənov bizə on dəfə zəng elədi, amma getmədik"



**İqbal Ağazadə:** "Bu, ciddi xəstəlikdir, müalicəsi mümkün deyil"



**Sərdar Cəlaloğlu:** "İŞİD də özünü Suriyada hakimiyyətə qarşı əsas müxalifət elan etmişdi"

Əli Həsənovla görüşdə isə bütün məsələlər hamısı qaldırılıb. Biz heç o qənaətdə də deyilik ki, bütün orada deyilənlərin hamısı yüzdə yüz həll olunacaq. Bu cür görüşlərin olmasının Azərbaycan cəmiyyətinə xeyri var. Tənqid edən dostlar da unutmasınlar ki, ən çox da xeyri onlara var. Hesab edirik ki, bu görüşlərin səmərəsi də, nəticəsi də hər kəsə olacaq. Mənim buna böyük inamım var. Amma olmaya da bilər, bu da faciə deyil. Tənqid edirlər etsinlər, amma insaflı olmaq lazımdır. İnsafı, ədaləti kənara qoymaq olmaz".

**Ümid Partiyasının sədri İqbal Ağazadə Milli Şuranın rəhbərliyinin bəyanatına sərt münasibət bildirdi:** "Biz haqsızlığa qarşı mübarizə aparırıq. Harada ədalətsizlik varsa, orada mövqeyimizi ifadə edirik. Nə yazıq ki, dörd tərəfimiz haqsızlıq olur bəzən və nəyə qarşı mübarizə aparacağımızı bilmirik. Milli Şuranın da mövqeyi belədirsə, olsun. Eyni bəyanatlarla nə qədər istəsən çıxış etmək olar. Amma adamlara bircə şeyi xatırladıram ki, quyruq acılarını prosesin içərisində demokratikləşməyə ziyan kimi təqdim etməsinlər. 1995-ci ildən 2005-ci ilə qədər "bu gün bizdən başqa müxalifət yoxdur" deyən adamlarla böyük bir kəsim mübarizə aparıb ki, bunlar müxalifət deyil. Bu adamlar əslində siyasətə hakimiyyətdən getdikdən sonra bir təşkilat olaraq gəldikləri dönəmdən bu yana hamının onlara dediyi "siz müxalifət deyilsiniz"in acısını bu gün digərlərindən çıxarır. Ayıbdır belə yanaşma. Məşhur bir deyimdə deyilir ki, zəiflər qisas alır, güclülər bağışlayır, xoşbəxtlər isə unudur. O qədər zəifdirlər ki, 10 il onlara "müxalifət deyilsiniz" deyən adamlardan indi qisas almağa çalışırlar və deyirlər ki, bizdən başqa müxalifət yoxdur. Halbuki bu yanaşmanın özü səhvdir. Mən dünyada bircə nəfər də olsun ağlı başında olan adam tanımadım ki, müxalifət olmaq uğrunda savaşsın, ideoloji müharibə aparsın. Mən bu adamlara deyirəm ki, qardaş, əl çəkin biz müxalifət deyilik, amma biz haqqı müdafiə edirik. Ay qardaş, sənsən müxalifət buyur. Biz heç bilmirik kimik, amma biz haqqı deyirik, haqqı tapdalananın yanındayıq. Necə istəyirsən elə qəbul elə. Müxalifət tək sənsən, sonra?! Bu nəyisə dəyişirmi?! Müxalifətsən anladıq. Cəmiyyətə verə biləcəyini de görək nə verirsən.

Adam bu cür xəstəliyə tutularmı heç. Təəssüf edirəm, yazığım gəlir. Təəssüf edirəm ki, bu marafona qoşulan adını alim, ziyalı qoyan, professor deyilən adamlar da var. Oturduğum parlamentdə haqqı tapdalanan hər bir kəsi müdafiə etmişəm, hər bir kəs haqqında mövqe ifadə etmişəm. Kürsüdən hələ haqsız dediyim bircə dənə söz olmayıb, hələ haqsızın yanında olduğum bircə dənə də çıxışım olmayıb. Bu qədərmi ədalətsiz olub cəmiyyətə ədalət aşılamaq barədə düşünürlər?! Onlar bu cür ciddi xəstəliyə düçar olublar. Təəssüf ki, bu xəstəlik cəmiyyətə, demokratikləşməyə ziyan vurur. Vallah, çox səmimi deyirəm. Əlimdə imkanım olsa o insanları müalicə edərdim. Sadəcə, müalicəsi mümkün deyil. Xəstəlikdir bunlar, ciddi xəstəlikdir. Bir adam da tapılmır ki, bunları bir oturda qarşısına, desə "bala, yazıqsınız özünüzü məhv eləməyin". Yazıqlar olsun. Adamlar gözümüzün qarşısında məhv olur. Bu xəstəliyin adını gərək ekspertlər bildirə".

**ADP sədri Sərdar Cəlaloğlu isə Milli Şuranın müxalifətçiliyini İŞİD-lə, Ukraynada döyüşən üsyançılarla müqayisə etdi:** "İŞİD də özünü Suriyada hakimiyyətə qarşı əsas müxalifət elan etmişdi. Ukraynada mərkəzi hakimiyyətə tabesizlik nümayiş etdirib silahlı mübarizə aparanlar da özlərini müxalifət hesab edir. İndi gəlin görək, İŞİD-in müxalifliyi Suriya dövlətinə və xalqına xeyir gətirdi?! Milli Şuranın və AXCP-nin müxalifət olmağı indiyə qədər bu xalqa nə verib?! Bir müsbət nə isə verib?! Sən müxalifət ola bilərsən, ancaq sənin müxalifətçiliyin indiyə qədər bu ölkədə heç bir cüzi də olsa dəyişikliyə nail ola bilməyibsə, belə müxalifətçilik heç kimə lazım olmayan zərərli müxalifətçilikdir. 20 ildir sən Azərbaycan müxalifətinin önündə getdiyini bəyan edirsən, 20 ildir Azərbaycan müxalifəti uduza-uduza gedir. Sənin müxalifətçiliyin budursa, kimə lazımdır belə müxalifətçilik!? Bu xalq səni 20 ildir görür, alovlu taftalogiyadan ibarət nitq söyləmək xalqa xidmət etmək deyil".

❑ **Etibar SEYİDAĞA**

# Müsavatçı gənclər konfransa hazırlaşır

## Mart ayında konfransın günü ilə bağlı qəti qərar veriləcək; təşkilata gənclərin axını var

**Müsavat Gənclər Təşkilatında (MGT) Əhliman Abbasın gedişindən sonra 6 aydır sədr postu boş qalır. Hazırda qurumu Konfransa Hazırlıq üzrə Təşkilat Komitəsi idarə edir. Gənclər yeni sədr seçkisinə hazırlaşırlar.**

Bununla əlaqədar partiyaya yeni-yeni gənc üzvlər qəbul edilir. Rayon təşkilatlarında konfransda iştirak edəcək gənclərin siyahıları dəqiqləşdirilir. Mart ayında konfransın günü ilə bağlı qəti qərar veriləcək.

**Konfransa Hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü Əbülfəz Sadıqbəyli** hazırlıqlardan danışdı: "Sədr seçkilərinə ciddi hazırlıqlar gedir. Siyahılar dəqiqləşdirilir. Çünki əvvəlki seçkidə iştirak edən gənclərdən gedənlər var. Yeni üzvlər də sıralarımıza qoşulub. Rayon təşkilatları ilə müzakirələr aparırıq. Amma siyahılar hələ tam dəqiqləşdirilməyib. Marta kimi dəqiq qərar verəcəyik. Partiyamızın qurultayından sonra bir mərhələdə 30-a yaxın gənc qəbul etmişik. Növbəti konfransa qədər yəqin ki, bu tipli mərhələlər olacaq və yeni gəncləri təşkilata qəbul edəcəyik".

**Əbülfəz Sadıqbəyli müsavatçı gənclər olaraq, qurultaydan sonra partiya daxilindəki narazılıqlara qarışmadıqlarını qeyd etdi:** "MGT olaraq, elə narazılıqlara qarışmırıq. Başqanımız, liderimiz bəllidir. Belə müzakirələr çox yersiz, mənasızdır. Sırf təxribat xarakteri daşıyır. Mənasız çəkişmələrdir".

Müsahibimiz Müsavat başqanlığına namizədlərin aralarındakı narazılıqların gənc tərəfdarlara da sıçradığını söylədi: "Sözsüz ki, qurultayda tərəflər var idi. 4 namizədi də dəstəkləyən gənclər vardır. Başqan Arif Hacılının, Qubad İbadoğlu və Tural Abbaslının yetərincə gənc tərəfdarları var idi. Digər qalan namizədin də gənc tərəfdarı ola bilərdi. Amma mən indiyə qədər görməmişəm. Gənclər daxilində konkret narazılıq olmadı. Sadəcə, ümumi narazılıq var idi. Amma hansısa iddiaçını dəstəkləməklə bağlı etiraz olmadı".

**Əbülfəz Sadıqbəyli MGT sədrliyinə namizədlərin hələ müəyyənləşmədiyini bildirdi:** "Öz namizədliyini rəsmi olaraq irəli sürən yoxdur. Ona hələ vaxt var. Hər şey siyahılar və konfrans günü dəqiqləşəndən sonra məlum olacaq. Konkret deyə bilmərəm seçkilər nə zaman olacaq. Mart ayında Təşkilat Komitəsi qərar verəcək və vaxtı açıqlayacaq".

❑ **Cavanşir ABBASLI**



**Əbülfəz Sadıqbəyli:** "Bir mərhələdə 30-a yaxın gənc qəbul etmişik"



# Qorxu filmləri

Zamin HACI
zaminhaci@gmail.com

**Biz əslində bu respublikada çox şeyləri bilirik, eyni zamanda çox şeyləri bilmirik. Bəzi bildiklərimizi isə guya bilmirik. Hər halda, özümüzü elə aparırıq. Misal üçün, Şəmkirin keçmiş icra başçısının törətdiyi qanunsuz əməllər haqda 10-12 il qabaq dastanlar yazılırdı. Ancaq təzəlikcə onun repressiyasının qurbanlarından biri türmədə hamilə qalıb uşaq doğanda elə bil Pandoranın yeşiyi açıldı. (Qədim yunan mifologiyasına görə Pandoranın qutusunda çoxlu bəlalar, xəstəliklər varmış, qutu açılıb bunlar yer üzərinə dağılır). Hamı guya şoka düşdü. Etiraf edim ki, mən özüm də yüngülvari titrətmə oldum: Aslan Aslanovun 2003-cü ildə tutdurduğu adamların siyahısını görəndə. Adam bütöv bir nəsili uşaqlı-böyüklü, qocalı-qadınlı türmələrə basıbmış!**

Yaxşı, tutaq ki, icra başçısı əmr elədi, arvad-uşağı konsentrasiya düşərgəsinə yığıb apardılar. Bəs bu əmri yerinə yetirən polislərdə, prokurorlarda, zindan işçilərində və sairə saysız-hesabsız şər mexanizmlərində, vintciklərində ədalət, insaf, vicdan, əxlaq yox idimi? Demək, yox imiş. Gözlərinin qabağında bu qədər vicdansızlığa susan şəmkirliləri deputatxanada Etibar Hüseynov, Mübariz Qurbanlı kimiləri təmsil eləməyə göndərilibsə, bu da təsadüfdürmü? Yoxsa Füzuli, Kürdəmir, Gəncə, Binəqədini... təmsil edənlər daha yönlüdür?

Dəfələrlə başıma gəlib, istəsəniz siz də bu eksperimenti aparın: sosial şəbəkədə Yer kürəsini, dünyanı, hətta Azərbaycanı tənqid edin. Heç kimin vecinə olmayacaq. Ancaq hansısa rayon, məhəllə haqda güldən ağır söz yazın - çaqqal ulaşması düşəcək. Çünki bu, cəmiyyət deyil, ümumxalq, bəşəri təfəkkürü çox zəif bir toplumdur. Mağarasını fikirləşir, qalanı cəhənnəmə olsun. Lamiyəni tutublar? Əcəb ediblər. Mənim bacım deyil. Türmədə zorlayıblar? Gərək ora düşməzdi. Neyləmək olar, taledir. Qismətdir.

Bayaq 2003-cü ili havadan xatırlatmadım. Yadınıza gəlirmi həmin ildəki hoqqalar? İstəsəniz bu da bir bərəət olsun bizə: "Əşşi, başımız o boyda hoqqaya qarışmışdı, Şəmkir hardan yadımıza düşəydi?"

Penitensiar sistemin uydurduğu versiyalar isə hətta telekanalizasiyaların səpmiş üzünə yaxmağa da yaramadı. O qədər gülünc versiyalar uydurdular ki, neçə gündür zarafatcıl oxuculardan məktublar alıram: "Uzun illərdir evliyik, uşağımız olmur, Mədət müəllimin perinatal-penisentiar sistemindəki tibbi xidmətdən yararlanmaq üçün nə edək?" Nə edəcəksiniz, bir-iki dəfə hökumətin əleyhinə danışın, sizi tutub türməyə salsınlar. Ondan sonra içəridə görüşün, ya da bir-birinizə qabda toxum göndərin. Türmələrimiz inkubator sexləri kimi bir yerdir, yapistlər oralarda yeni insan tipləri yetişdirirlər.

Dünən bir başqa dərdi qazıb çıxarmışdılar. Gəncədə arvadını öldürən manyak yaxalanıb. Məlum olub ki, onun öldürdüyü 2-ci arvadıdır, bir arvadı da 2004-cü ildə öldürübmüş! Bəs bu 11 ildə niyə bir köpəyoğlu soruşmayıb ki, o ikinci arvad hardadır? Üstəlik, bu manyak ümumən 3 dəfə evlənibmiş, hər dəfə də özündən 10-20 yaş cavan qızları alırmış. Bu qızların ağlı hardadır? Təhsilsizlik, cəhalət, kasıblıq, mövhumat... Bunlardan törəyir bütün problemlər. Ancaq sən Gəncədə bu mövzularda konfrans, seminar eləmək istəsən yüzlərlə "lələ" çıxar, sənin ağzını partladıb qana bülənd eləyər. Hələ şəhəri qeyri-rəsmi "İmamzadə şəhəri" elan eləməklərini demirəm.

Bircə Alfred Hiçkok çatışmır ki, bu qətl, zorlama, psixoloji terror səhnələrindən qorxu filmləri çəksin. Məsələn, Gəncədəki olaydan "Psixo" filmi çıxar. Şəmkir olayını isə "Quşlar" filminin remeyki kimi ssenariləşdirmək mümkündür - qarğaları keçmiş icra başçısı hesab eləsək...

# Kreml Abbas Abbasova qarşı "qiyam"ı yatırdı

## "Milyarderlər ittifaqı"nın yenidən dirçəldilməsi barədə xəbərlərdən sonra Söyün Sadıqov niyə "ağ bayraq qaldırdı?

**Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyətində ("AzerRos") son yaşananlar, Abbas Abbasovun keçmiş silahdaşı Söyün Sadıqovla təşkilata nəzarət uğrunda açıq mübarizəsi və Kremlin bu savaşda sabiq baş nazir müavininin tərəfini tutması barədə "Yeni Müsavat"ın yazdıqları təsdiqini tapıb.**

Belə ki, son aylar Abbas Abbasova qarşı qiyam qaldıran, onun yaxın adamının "AzerRos"un sədrliyindən, özünü isə Ağsaqqallar Şurasının sədrliyindən uzaqlaşdıran S.Sadıqov "ağ bayraq" qaldırmağa məcbur olub.

Bu barədə publika.az saytı Moskvadakı mənbələrinə istinadən yazıb. Məlumata görə, Söyün Sadıqov Abbas Abbasovun martın 6-da keçirəcəyi qurultaya münasibətini dəyişib. Belə ki, o, bunu "AzərRos"un birləşdirici qurultayı adlandırıb.

"Təşkilatın bütün üzvlərinə qarşılıqlı güzəşt əsasında əməkdaşlıq məsələləri təklif olunub. Bu baxımdan, martın 6-da keçiriləcək qurultayı "Rusiya azərbaycanlılarının birləşdirici qurultayı" adlandırmaq mümkündür" deyə, o bildirib.

Mənbə bu tapşırığın Sadıqova Kreml tərəfindən verildiyini hesab edir. "Bu təşkilat birbaşa Kremlin xeyir-duası ilə yaradılıb. Moskva əsas fiqur kimi Abbas Abbasovu tanıyır. Ona görə də Söyün Sadıqovun "AzerRos"u parçalamasının qarşısını almaq qərarına gəlib.

Yanvarın 17-də Sadıqovun keçirdiyi növbədənkənar qurultaydan sonra qarşıdurma güclənmişdi və Abbasov martın 6-na revanş qurultayı təyin etmişdi. Lakin Sadıqovun bu "sülhpərvər" çıxışı tərəflərin razılaşdığını göstərir. Məlumatlara görə, martın 6-da keçiriləcək qurultay təşkilatın parçalanmasının qarşısını alacaq. Sadıqov "Azər-ros"da hansısa vəzifə alacaq və əvvəlki kimi Abbasovla birgə işləyəcək. Bu tapşırıq məhz Kremlindən gəlib" deyə, mənbə qeyd edib.



Abbas Abbasov

Söyün Sadıqovun güzəştə getməsinə fevralın ilk həftəsində baş verən bir hadisənin səbəb olduğu haqda məlumatların olması diqqət çəkir. Belə ki, fevralın 7-8-də Abbasovun kurasiyasında olan təşkilatın www.fnkaa.ru saytına haker hücumu olub. Hücumdan sonra saytda Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu haqda mənfi məqalələr yayılıb. Müdaxilədən sonra problem aradan qalxsa da, bu, qalmaqala səbəb olub. Abbasov qruplaşması bu hücumun arxasında Sadıqovun dayandığını düşünür.

**Mənbənin məlumatına görə, bu hadisə bütün körpülərin yandırılması və tərəflərin bir-birinə qarşı mübarizədə bütün vasitələrə əl atdığını göstərdi. Məhz bundan sonra tərəflərin yaxınlaşdırılması və qarşıdurmaya son qoyulması haqda Kremldən tapşırıq gəlib:** "Abbas Abbasov güclü adamdır və Sadıqovun onunla başa gəlməsi mümkün deyil. Bunu Sadıqovun özü də yaxşı bilirdi. Görünür, o, "qiyamçı" olmaqla öz çəkisini artırmaq istəyibmiş".

Xatırladaq ki, A.Abbasovun təşkilatdan uzaqlaşdırıldığı 17 yanvar qurultayına Rusiyanın hüquq-mühafizə orqanları ciddi manеə törətmiş, Azərbaycanın Rusiyadakı səfirliyinin müavini isə S.Sadıqovun rəhbərlik etdiyi tədbirdə şəxsən iştirak edərək ona dəstək vermişdi.

S.Sadıqovun qəfil "barışığı" "Milyarderlər ittifaqı" kimi tanınan Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqının yenidən Azərbaycanın siyasi səhnəsində fəallaşmaq istəyi xəbərləri fonunda da diqqət çəkir. Qeyd edək ki, bugünlərdə "Yeni Müsavat" Moskvanın elitar restoranlarının birində "Milyarderlər ittifaqı" üzvlərinin görüşü haqda xəbər dərc etmişdi. Xəbərdə deyilirdi ki, həmin məclisdə Dağıstan prezidenti Ramazan Abdulatipov və Abbas Abbasovla bərabər Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov, eləcə də bu qurumun digər üzvləri olub. Xəbərdə iddia olunurdu ki, Rusiya 2015-ci il parlament seçkiləri ərəfəsi "Milyarderlər ittifaqı"nı yenidən dirçəltməklə Azərbaycan iqtidarına təzyiq etmək niyyəti güdə bilər. R.İbrahimbəyov da belə bir görüşün olduğunu təsdiqləmişdi.

Görünür, S.Sadıqov da Abbas Abbasovun Kreml üçün nə qədər vacib fiqur olduğunu gec də olsa anlayıb, bəlkə də bunu ona başa salıblar...

❑ **Xəbər xidməti**

# Hələbdə şiddətli döyüşlər davam edir

## Koalisiya aviasiyası İraqda cəmi 1 faiz əraziləri İŞİD-dən geri alıb, Bağdad könüllü birliklərdən imtina edir

**Sudan prezidenti Ömər əl-Bəşir İŞİD və son olaraq Misirin Liviya ərazisindəki hava hücumları barədə danışıb. "Euronews" telekanalına müsahibə verən Sudan prezidenti qeyd edib ki, İŞİD-lə mübarizədə yalnız ideoloji cəbhədə qələbə qazanmaq olar.**

Misirin 21 qibtinin öldürülməsinə cavab olaraq Liviyanı bombalamasını yanlış addım kimi dəyərləndirən əl-Bəşir silahlı hücumların radikalizmi daha da artırdığını deyib. Sudanda bu istiqamətdə siyasət apardığını deyən əl-Bəşir xüsusən də gənclər arasında radikalizm əleyhinə təbliğatlar aparıldığını, gənclərin elm adamları ilə təmaslarının təşkil olunduğunu və bununla da radikalizm çağırışlarının böyük miqdarda azaldığını bildirib.

"Əl-Qaidə" və İŞİD kimi qruplaşmaların güclənməsinin səbəblərinə gəlincə, əl-Bəşir deyib ki, bu cür qruplaşmaların arxasında Mossad və CİA (ABŞ kəşfiyyatı) kimi təşkilatlar dayanır. "Çünki bu cür hərəkətləri edə biləcək bir müsəlman yoxdur" - deyə Sudan lideri bildirib.

Suriya ordusu və Hizbullah qüvvələrinin fevralın 17-də səhər saatlarında başlatdığı Hələbin mühasirəyə alınması əməliyyatı davam edir. Səhər saat 5-də qəfil başladılan hücum əməliyyatı nəticəsində bir neçə qəsəbə və kənd Suriya ordusunun nəzarətinə keçib. Bir gün əvvələ qədər 14 kilometr məsafə təşkil edən boşluq dünənki hücumdan sonra 2 kilometrə qədər azalıb. Baş verən şiddətli döyüşlər zamanı hər iki tərəfdən çoxlu sayda itki olub. Müxaliflər hücum zamanı Suriya ordusu və Hizbullahın 200 nəfərə yaxın hərbçi itirdiyini açıqlayıb. Hazırda Hələbin bir hissəsinə nəzarət edən müxalifətin xaricilə əlaqəsi yalnız Reyhanlı istiqamətində 2 kilometrlik "dalan"dır. Dünənki hücum zamanı hökumət qüvvələri Hələbi Türkiyə sərhədi ilə birləşdirən əsas magistrala nəzarəti ələ keçirdiklərini bəyan ediblər. Hələlik Dəməşq itkiləri barədə açıqlama verməyib.



Suriyada islamçı "Ceyşul Mücahidin" siyasi qruplaşmasının lideri Əbu Məhəmməd "əl-Cəzirə"yə açıqlamasında bildirib ki, hazırda əsas döyüşlər Harədədniyə bölgəsində davam edir. Hazırda şiddətli döyüşlərin davam etdiyi bildirilir. "Əl-Məyadin" kanalı isə Həzm Hərəkatının Suriya ordusunun sürətli hücumuna görə "ən-Nusra" qruplaşmasını günahlandırıb. O da bildirilir ki, Hələbin şimal istiqamətində davam edən şiddətli döyüşlər zamanı "ən-Nusra" Cəbhəsi qruplaşmasının müttəfiqi olan silahlı qrupların 30-a yaxın üzvü əsir götürülüb.

Bu arada məlum olub ki, ABŞ hökuməti ötən ilin avqustundan İŞİD-ə qarşı başlatdığı hava hücumlarına 8 milyard dollar vəsait xərcləyib. ABŞ Müdafiə Nazirliyi yanvar ayına qədər İŞİD-ə qarşı mübarizədə 8,3 milyard dollar xərclədiyini elan edib. Ancaq bunun qarşılığında məlum olub ki, koalisiya qüvvələri İraqda yalnız 700 kv.km ərazini İŞİD-dən geri ala bilib. Bu isə İŞİD-in İraqda nəzarət etdiyi ərazilərin 1 faizi qədərdir.

Ancaq bununla yanaşı, İraq ordusunun və könüllü birliklərin təkbaşına daha çox əraziləri azad etdiyi bildirilir.

Xatırladaq ki, ABŞ hökuməti ötən ilin avqust və sentyabr aylarında İŞİD-ə qarşı beynəlxalq koalisiya yaradıb. Diplomatik görüşlərdən sonra dünyanın 60 ölkəsi İŞİD-ə qarşı mübarizəyə dəstək verərək koalisiyaya qoşulduğunu bəyan edib. Bunlardan 14 ölkə isə aktiv üzv kimi İŞİD-in bombalanması prosesinə qatılıb. O da məlum olub ki, bu günə qədər koalisiya 2 min dəfə hava hücumları həyata keçirib. Təxmini hesablamalara görə, gündə orta hesabla 10 hava hücumu həyata keçirilir. Bombardmanlar ən çox İŞİD-in Kobaniyə hücumu zamanı qeydə alınıb.

İraqın nüfuzlu şiə ruhanilərindən Müqtəda əs-Sədr ölkədə son dövrdə artan könüllü silahlı qrupların sayını azaltmağa çağırıb. Ruhani lider bildirib ki, ilk olaraq tərəfdarlarının yaratdığı iki könüllü briqadanın fəaliyyətini dayandırır. Sədr bildirib ki, İraqda təhlükəsizlik İraq ordusu və hökumət qüvvələrinə təhvil verilməlidir. O bildirib ki, son dövrdə "yoldan azanlar" və könüllü silahlı birliklər İraq xalqının canına daraşıb.

Qeyd edək ki, Müqtəda əs-Sədr yanvarın 20-də ordunun məzhəbi ayrılıqdan uzaq vahid milli bir təşkilata çevrilməsi ilə bağlı İraq müdafiə naziri ilə görüşüb və bu istiqamətdə Müdafiə Nazirliyinə lazımi dəstəyi verməyə hazır olduğunu bildirib. Sədr bildirib ki, terrorizmə qarşı savaşda yalnız İraq ordusu savaşmalıdır.

❑ **KƏNAN**

### “7 rayon söhbəti”nin gündəmə gəlməsinin pərdəarxası




# Qarabağ məsələsində “sıfır variantı”na qayıdılır - sensasion iddia

## Konflikt ətrafında ritorika dəyişir; Ermənistanda daxili siyasi durumun qəfil kəskinləşməsi təsadüf deyil; Kremlə yaxın siyasilər və ekspertlərin, azərbaycanlı politoloqun və amerikalı həmsədrin son açıqlamalarındakı nikbin və bədbin notlar barədə; münaqişənin dondurulması ən çox kimə lazımdır...

**Rusiya-Qərb münasibətlərinin yeni fazaya adlaması fonunda postsovet məkanına aid Qarabağ problemi ətrafında ritorika da tədricən dəyişməkdədir. Bunu xüsusən də son günlər Kremlə yaxın ekspertlər və siyasilərin dilindən bir-birinin ardınca səslənən açıqlamalardan sezmək mümkündür.**

Həmin açıqlamaların qayəsini Dağlıq Qarabağla bağlı Azərbaycana xəfif reveranslar təşkil edir. Bu xüsusda son olaraq Rusiya İctimai Palatasının üzvü, **politoloq Sergey Markov** bəzi nikbin fikirlər söyləyib. Sitat: “Atəşkəs müqaviləsindən keçən müddətdə Azərbaycanın ordusu da, iqtisadiyyatı da inkişaf edib. Bunu hamı, o cümlədən ermənilər hiss edir. Artıq blokada vəziyyəti onları bezdirməyə başlayıb. Əminəm ki, bölgə insanları sülh şəraitində yaşamaq və sosial şəraitlərini yaxşılaşdırmaq istəyirlər. Yeni mərhələ üçün isə ilk növbədə Dağlıq Qarabağ ətrafındakı rayonlar geri qaytarılmalı, hərbi gərginlik azaldılmalıdır. Ondan sonra xüsusi status ətrafında danışmaq olar. Ümid edirəm ki, 7 rayonun azad edilməsi ilə də bağlı danışıqlar gedir”. Rusiyalı analitik münaqişənin ATƏT-in Minsk Qrupu formatında həllini görmədiyini də söyləyib, çünki onun zənninə görə, ABŞ prosesi daim bloklamaqla məşğuldur.

Xatırladaq ki, bundan cəmi bir neçə gün öncə Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitə sədrinin 1-ci müavini Vladimir Nikitin “Vesti kavkaza”ta müsahibəsində analoji fikir səsləndirərək demişdi ki, “Rusiya tezliklə Qarabağ münaqişəsini həll etmək barədə düşünür”.

**Rəsmi Bakının yaxın gələcəkdə Avrasiya Birliyinə daxil olmaq barədə düşünəcəyinə ümid etdiyini bildirən Nikitinin sözlərinə görə, Moskva probleminin həlli üçün səylərini artırıb. Sitat:** “Mən bilirəm ki, Rusiya prezidenti Putin və Dövlət Dumasının sədri Narışkin Azərbaycan və Ermənistan prezidentlərinin Qarabağ münaqişəsinin həlli yönündə razılığa gəlməsi üçün hazırda bir sıra məsələlər üzərində işləyirlər. Ümid edirəm ki, hər iki tərəf üçün olduqca ağrılı olan konfliktin optimal həll yolu tapılacaq”.

*****

**Lakin Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu məsələyə bir qədər fərqli prizmadan yanaşır. Meydan TV-yə açıqlamasında o deyib:** “Markov Azərbaycanın 7 rayonunun qaytarılmasını çox ehtiyatla, ”məndə olan məlumata görə" şəklində deyir. Belə bir açıqlamanın arxasında Kremlin Ermənistanda hakimiyyəti dəyişmək planına start verməsi dayanır. Ermənistan iqtidarının müxalifətə qarşı aqressiyası da təhlükənin yaxınlaşdığını göstərir. Əgər əvvəllər müxalifətin mitinqlərinə “yox” deyilmirdisə, artıq vəziyyət fərqlidir. Çünki Sərkisyan Moskvanın dəyişikliyə start verdiyini bilir. Sadəcə, Rusiya Ermənistanla, erməni xalqı ilə düşmənçilik etməməsi üçün 7 rayonunun qaytarılması söhbətini gündəmə gətirməklə baş verəcək dövlət çevrilişinə Azərbaycanı bulaşdırmaq istəyir".

**Politoloq 7 rayonun qaytarılacağına şübhə ilə yanaşır:** “Elə Markov özü də şübhəsini gizlətmir və məsuliyyəti ABŞ-ın üzərinə ataraq, Minsk Qrupu çərçivəsində bunun mümkünsüz olduğunu hesab edir. Fikrini də Amerikanın prosesi blok etməsi ilə izah edir. Halbuki Rusiyadan fərqli olaraq ABŞ və Fransa həqiqətən münaqişənin həllinə çalışır”.

**Qurum rəhbəri hesab edir ki, Rusiya 7 rayonu qaytarsa belə, bu, Azərbaycanın güzəştləri hesabına mümkün olacaq:** “Moskvanın istəkləri bəllidir: Azərbaycanın Avrasiya Birliyinə və Gömrük Sazişinə qoşulması. Qarabağ münaqişəsinin tarixinə baxsaq, start vəziyyətə qayıdırıq. Biz Rusiyanın dəstəyi ilə işğal olunmuş 7 rayonu qaytarsaq da, Dağlıq Qarabağı və suverenliyimizi itiririk. Avrasiya layihələrinə qoşulmaq suverenliyi itirməkdir”.

*****

**Oruclunun fikirlərini əslində bu və ya digər şəkildə bir neçə gün öncə Putinin köməkçisi Sergey Qlazyov yuxarıda adıçəkilən nəşrə müsahibəsində təsdiqləyib - Qarabağ probleminin həllini Avrasiya İqtisadi Birliyi çərçivəsində gördüyünü söyləməklə:** “Düşünürəm ki, Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulması ilk qaranquşdur. Regiondakı bütün konfliktlərin həlli üç Cənubi Qafqaz ölkələrinin bu ittifaqda təmsilçiliyinə bağlıdır. Əgər bizim vahid iqtisadi məkanımız olsa, o zaman heç bir sərhəd olmayacaq və dezinteqrasiya problemləri də aradan qalxacaq. O sırada Qarabağ problemi yoluna qoyulacaq, çünki malların və insanların yerdəyişməsinə mane olan sərhədlər aradan qalxmış olacaq”.

Yəni faktiki surətdə söhbət köhnə SSRİ formatında “həll”dən, daha doğrusu, münaqişəni qeyri-müəyyən müddətə dondurmaqdan, lap dəqiqi, “sıfır variantı”na qayıtmaqdan gedir...

*****

**Öz növbəsində amerikalı həmsədr Ceyms Uorlik dünən erməni mediasına müsahibəsində politoloq Markovun açıqlaması ilə ziddiyyət təşkil edən mövqe sərgiləyib. O, əksinə, ABŞ-ın danışıqlar prosesini intensivləşdirməkdə maraqlı olduğunu söyləyib:** “İndi əsas hədəflərimizdən biri prezidentləri yenidən görüşdürməkdir. Lakin bu görüş nə qədər yaxşı keçsə də, kifayət deyil. Bizə görüş naminə görüş də lazım deyil. Biz istəyirik ki, real danışıqlar aparılsın, proses intensivləşsin. Biz asan məsələlərdən başlaya bilərik. Ola bilsin, yüksək səviyyədə həlli tələb olunan status, dəhliz və ya digər çətin mövzulardan başlamayaq. Lakin digər məsələləri müzakirə edə bilərik. Bunlar telekommunikasiya, infrastruktur və s. ola bilər... Vasitəçilərin rolu ondan ibarətdir ki, prezidentlərin müzakirə edə biləcəyi məsələlər paketini hazırlasınlar. Tərəflər bir-birinə çox yaxındır. Hər iki tərəf münaqişənin həlli üçün 3 prinsip və 6 elementin tətbiqini əsas hesab edir. Təbii ki, bəzi detallar var ki, onların üzərində işimizi davam etdiririk”.

*****

Göründüyü kimi, cənab Uorlik də faktiki, mərhələli həldən danışır və Dağlıq Qarabağın statusunun (taleyinin) qeyri-müəyyən vaxta saxlanmasına işarə vurur. Eyni zamanda problem ətrafında Amerika tərəfdən də konfliktin qismən həllinə, müharibə ehtimalını aradan qaldırmağa yönəlik bir hərəkətliliyin olması qənaəti yaranır. Ancaq Qərbin və Rusiyanın hərəkətliliklərində uzlaşma, ortaqlıq varmı? Sual həm də budur.

❑ **Siyasət şöbəsi**

# Qərb Rusiya ilə savaşda maraqlıdırmı?



**Azər RƏŞİDOĞLU**

**Minsk razılaşması Qərb-Rusiya qarşıdurmasındakı gərginliyi nisbətən aradan qaldırdı. Lakin problem hələ də öz həllini tapa bilməyib. Qərb Rusiyanı dayandıra bilməsə, Moskva işğalçılıq siyasətini davam etdirə bilər.**

Bu səbəbə Qərb Rusiyaya sanksiyalar tətbiqinin qaçılmaz olduğunu düşünür. Rusiya iqtisadiyyatını məhz sanksiyalar vasitəsilə çökdürmək mümkündür. Lakin Qərbə vaxt udmaq lazım idi. Minsk razılaşması da buna xidmət edirdi. Lakin Ukrayna ilə imzalanan sülh sazişi Rusiyanı yeni ərazilər işğalından çəkindirməyə yetərli olacaqmı? Əsas məsələ də elə bundan ibarətdir. Digər tərəfdən, Qərbin Rusiya ilə açıq hərbi qarşıdurmaya getməsi sonu bilinməyən fəlakətə çevrilə bilər. Moskvanın Ukraynanın şərq əyalətlərinin işğal etməsi Qərb-Rusiya hərbi qarşıdurmasını açıq savaşa gətirib çıxarda bilərdi. Qərbdə anlayırlar ki, Rusiyanın məğlubiyyəti qaçılmazdır. Qərblə üz-üzə qalmış Rusiya danışıqlara gedərək sülh əldə etməyə məhkumdur. Bu isə Putin komandasını parçalanma təhlükəsi ilə üz-üzə qoya bilər.

Nə Rusiya, nə də Qərb özünün maraqlarından geri çəkilmək istəmir. Hər iki tərəf anlayır ki, Ukraynanın əldə edilməsi bölgədə bir çox şeyi dəyişə bilər. Qərbin Rusiyaya tətbiq etməyə hazırlaşdığı sanksiyalara baxmayaraq, Krımın Rusiyaya birləşdirilməsini artıq hamı qəbul edir. Bu isə Kremlin mövqelərini daha da gücləndirir.

Rusiya üçün ən böyük təhlükə məhz sanksiyalar yox, ölkə daxilində başlaya biləcək etnik qarşıdurmalar və rəngli inqilablardır. Putinin şişən ambisiyaları Vaşinqtonu Rusiyaya qarşı çıxmağa vadar edir.

“ABŞ Rusiya qarşısından niyə geri çəkilir” sualına cavab tapa bilməkdən ötrü Obamanın komandasına ötəri nəzər yetirmək kifayət edir. Ağ Ev sahibinin komandasında “əsas səhmlərə” iqtisadçılar malikdir, güc nazirlikləri nümayəndələrinə elə də diqqət yetirilmir. Ümumiyyətlə, Obama uzun oyunlar oynamağı sevir. Corc Buşdan fərqli olaraq, Barak Obama xarici siyasətdə hərbi gücdən daha çox maliyyə təzyiqlərindən istifadə edir. Rəqiblərini danışıqlara başlamağa vadar etmək Obamanın əsas prinsipidir. İrana iqtisadi təzyiqlərini artıran Obama Tehranı da danışıqlara vadar edə bildi. Lakin Rusiyanın imperiyanı bərpa etmək istiqamətindəki son addımları Obama strategiyasına təhlükə törədir.

“Ukrayna böhranı” da sübuta yetirdi ki, Obama strategiyası məğlubiyyətə uğramaqdadır. Rusiyanın dünyadan təcrid olunacağı, ağ bayraq qaldıracağı barədə Obamanın dediklərinə artıq ABŞ siyasətinin qırğıları da ironiya ilə yanaşırlar. ABŞ-ın “yumşaq diplomatiyası” dünya siyasətində yeni oyunçuları mövcud boşluğu doldurmağa sövq edir. Obama strategiyası Ukraynada ağır zərbələr aldı. Belə getsə, Obama strategiyası MDB məkanında məğlub ola bilər. Lakin Obama strategiyası tamamilə yeni modellər üzərində qurulub. Vaşinqton Fars körfəzindən əlini çəkə, İranla münasibətləri normallaşdıra və bu oyunda İsraili qurban verə biləcəyini nümayiş etdirir.

Obama strategiyasının Rusiya ilə toqquşmada məğlub ola biləcəyi ehtimalı da yaranıb. Obama iqtisadi təzyiqlərin daha böyük effekt verə biləcəyindən danışır. Obama tərəfdarları belə bir fakta diqqət çəkirlər ki, rus rublu xeyli aşağı düşüb, Rusiya xarici ölkələrə əvvəlki kimi məhsul çıxara bilmir, bütün şərtlər Moskvaya qarşı sanksiyaların ola biləcəyini ehtimal etməyə əsas verir. Odur ki, Ukraynada savaşın yenidən alovlanacağı daha çox ehtimal olunmaqdadır...



# Cibibıçaqlı qatillərin ölkəsi

Samir SARI

**Əgər adam istəsə ki, kriminal xəbərləri bu cür ard-arda düzsün, heç cür alınmaz. Bunu bilərəkdən etmək mümkün deyil. Kriminal xəbərlər olmalıdır ki, onu da müəyyən ardıcıllıqla yaymaq mümkün olsun.**

Fevralın 18-də Musavat.com saytının səhər xəbərləri beləydi:

11:43. Bakıda mənzilə daxil olan maskalı şəxs qadını bıçaqlayıb;

11:40. Ötən gün Bakıda qətl hadisəsi törədən şəxs tutulub;

11:24. Gəncədə 18 yaşlı gənc baş kəsdi;

11:12. Arvadını qətlə yetirən şəxsin əvvəlki həyat yoldaşını da öldürdüyü məlum olub;

10:35. Bir neçə gün əvvəl Bakıda qətl törədən şəxs Rusiyaya qaçıb.

Bu tam olmayan siyahıdır. Dünənin, srağagünün, ötən həftənin statistikası deyil.

Onu da nəzərə alın ki, müəllif bu yazını saat 12.03-də yazmağa başlayıb. Əgər yazı bitənə qədər bıçaqlama, boğma, güllələmə xəbəri gəlsə, yazının sonuna P.S. əlavə edəcək.

Ancaq gün hələ yarı olmayıb, saat 13-dən gecə 24-ə qədər olan qətl hadisələri barədə isə saytlardan, telekanalların kriminal xronikasından xəbər tutacaqsınız.

Bu üzdəndir ki, bəzi həmkarlarımız haqlı olaraq deyirlər: "Bu gün-sabah mediada yalnız kriminal müxbirlər işləyəcək".

Düz deyirlər. Onların çörəyi var. Yazıqlar artıq qətl süjetlərini çəkib çatdıra bilmirlər. Bir qətlin təfərrüatını öyrənməyə macal tapmamış, redaksiyadan xəbər gəlir ki, şəhərin o başında daha bir qətl törədilib, qaçın ora. Heç olmasa, ikinci qətl birinciyə yaxın ərazidə törədilsə, reportyorlar çox əziyyət çəkməzlər. Amma bir qətl Masazırda törədilibsə, o biri Bayılda törədilir. Yazıq reportyor öz çəkiliş qrupu ilə Masazırdan Bayıla yola düşəndə xəbər gəlir ki, bir qatil də Mərdəkanda fərqlənib.

Vəziyyət belədir. Biz hər gün döyüşə yollanırmış kimi cibinə bıçaq qoyub şəhərə çıxan on minlərlə kişinin arasında yaşayırıq. Bəzən bilmirik, cibində bıçaq olan adamla söz də güləşdiririk, məsələn, deyirik, qardaş, maşını bir az yavaş sür, üstümüzə çirkli su sıçratma, yaxud, metro kartına gediş haqqı yükləyəndə ağzını ayıra-ayıra, irişə-irişə qabağa keçən birinə deyirik, ay qardaş, növbəyə dur, siqaret istəyənə sakitcə "yoxumdur" deyirik (amma qaçıb ona siqaret alıb verməliyik).

Bax, biz burada çox müdhiş bir səhv buraxırıq, həyatımızla oynayırıq. Onlar ciblərindəki bıçağı çıxararaq bizi öldürə bilərlər. Ancaq hər dəqiqə belə etmirlər, ya "lənət şeytana" deyirlər, ya da kövrək qəlblərindəki humanizm damarı qabarır və bizi öldürmək imkanına malik ola-ola öldürmürlər, həyatımızı bağışlayırlar.

Əslində gərək səhər işə gələndə (axşam evə qayıdanda) sosial şəbəkədə yazdığımız ilk status belə olmalıdır: "Şükür, sağ-salamat işə (evə) çatdım".

Çünki vəziyyət qəlizdir. Siz kriminogen durumun nəzarət altında olmasına, ölkədə ictimai-siyasi sabitliyin əminliklə qorunmasına, eləcə də ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə cinayət hadisələrinin azalmış olmasına, türkün sözü, aldırış eləməyin, əziz oxucular, başınızın salamatlığını qorumaq üçün tədbirli olun. Demirəm, hər dəqiqə peysərə verin, amma cibibıçaqlı adamı gendən tanımaq lazımdır. O da çətin deyil. Yaşı 18-48 arasında olan hər bir qara gödəkçəli kişinin cibində (sürücülərin isə oturacağının altında) bıçaq ola bilər. Onlarla mübahisə zamanı bu faktoru nəzərə alın. Yəni çalışmaq lazımdır ki, sözünüz çəpləşməsin.

Öz arvadını öldürənlərin söhbəti başqadır. Milli mentalitet belə qətlləri dövlətin qanunundan daha yumşaq mühakimə edir, hətta qətlə bəraət qazandırır. Çünki ortada "namus söhbəti" var. Hərçənd başa düşmək olmur ki, Gəncədə aldığı üç arvaddan birini boşayıb, ikisini öldürən kişinin bəxti niyə xroniki şəkildə gətirmirmiş. Yəni o qadınların hamısı pisdir, bu özü isə namuslu qatildir?

İndi millət nə eləsin, başını necə salamat saxlasın? Bir sıra adamlar deyir ki, silsilə qətllərin qarşısını almaq üçün yeganə çarə edam hökmünün bərpasıdır. Oxumuş adamlar isə deyirlər, yox, olmaz, Avropa konvensiyası-filan var.

Təəssüf ki, cibibıçaqlı qatillərin Avropa konvensiyalarından xəbəri yoxdur, onlar məhəllə məcəlləsini tanıyırlar. Orda isə belədir ki, özünü yaxşı aparmayanı öldürmək olar.

# "Onlar Saakaşvilidən və Qubad İbadoğlundan 20 dəfə bahadırlar"...

## Niyə Azərbaycan demokratlarına xaricdə vəzifə təklif edilmir?; **Hikmət Hacızadə**: "Görürlər ki, Müsavat Partiyasındakı islahatlarım uğursuz oldu, deyiblər ki, Müsavatı inkişaf etdirə bilmədi, ona Ukraynanı tapşırmaq olmaz"

**Gürcüstanın keçmiş hakimiyyətinin bir sıra üzvləri Ukraynanın yeni hökumətində islahatlar prosesini təşkil edəcək. Son olaraq fevralın 13-də Ukrayna prezidenti Pyotr Poroşenko Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvilinin Ukrayna prezidenti yanında beynəlxalq məsələlər üzrə Müşavirlər Şurasının sədri və özünün ştatdankənar müşaviri təyin olunması haqqında sərəncam imzalayıb.**

Ancaq Ukraynada siyasi hökumət islahatlarında iştirak edəcək gürcülərin sayı daha çoxdur. Bir qədər əvvəl Gürcüstan baş prokurorunun keçmiş 1-ci müavini David Sakvarelidze Ukrayna baş prokurorunun 1-ci müavini təyin edilib. Ötən ilin dekabrında isə Gürcüstan daxili işlər nazirinin keçmiş müavini Yekaterina Zquladze Ukrayna daxili işlər nazirinin birinci müavini təyin olunub. O, DİN sistemində aparılacaq islahatlara rəhbərlik edəcək. Ukrayna prezidenti Petro Poroşenko Y. Zquladzeyə Ukrayna vətəndaşlığının verilməsi haqda fərman imzalayıb və ona Ukrayna pasportu təqdim edib.

Qeyd edək ki, bu təcrübədən daha əvvəl Gürcüstan hakimiyyəti istifadə edib. Mixail Saakaşvili yeni hakimiyyətə gələndə məhz Qərb ölkələrindən əsas iqtisadi sahədə mütəxəssislər cəlb edərək hökumətdə islahatlar aparmışdı və bu, uğurlu nəticələr vermişdi. İndi isə Saakaşvili və onun komandasının uğurlu təcrübəsindən Ukrayna hakimiyyəti faydalanmağa çalışır. Maraqlıdır, Azərbaycanın demokratları bu cür vəzifələrə dəvət alıblarmı?

Yeri gəlmişkən, bu günə qədər yalnız Müsavat Partiyasının üzvü Qubad İbadoğlu Qırğızıstanda hökumətə iqtisadi məsələlərdə məsləhətçi olaraq çalışıb və büdcə qanunvericiliyinin təkmilləşdirilməsində uğurlu fəaliyyət göstərib.



Hikmət Hacızadə

Mövzu ilə bağlı danışdığımız **politoloq Ərəstun Oruclu** dedi ki, MDB respublikalarından birinə müşavir vəzifəsinə dəvət ediblər. Ancaq o, bu təklifi qəbul etməyib. Ə.Oruclu deyir ki, Azərbaycandan ekspertlərin nisbətən az dəvət olunması Azərbaycan demokratlarının uğurlu iş təcrübələrinin olmaması və dil bilgilərinin zəif olması ilə əlaqəlidir.

**Müsavat Partiyasının keçmiş üzvü, politoloq, demokratiya təcrübəsi, islahatlar mövzusunun yorulmaz tədqiqatçısı Hikmət Hacızadə xaricdə işləməyə Azərbaycandan da ekspertlərin dəvət olunduğunu desə də, özünə belə bir təklif olmadığını deyir və bunu "xüsusi bir səbəblə əsaslandırır":** "Məni dəvət etməyiblər. Görüblər ki, Müsavat Partiyasındakı islahatlarım uğursuz olub, deyiblər ki, bir Müsavatı inkişaf etdirə bilmədi, ona Ukraynanı tapşırmaq olmaz (gülür).

Ancaq bizdə bunun nümunələri var. Qubad İbadoğluna belə bir təkliflər olub. Ekspert kimi Qırğızıstana dəvət ediblər. Orada işləyib, öz layihələrini həyata keçirib. Orda hökumətin iqtisadi blokunda xeyli dəyişikliklərə imza atıb. Niyə də olmasın. Əslində belə mütəxəssislər Dünya Bankında, Beynəlxalq Valyuta Fondunda var. Ancaq onlar çox maaş alırlar və Saakaşvilinin komandasından və ya Qubad İbadoğlundan 20 dəfə bahadırlar. Xaricdə elə mütəxəssislər var, lakin onlar dil bilmir, yerli xüsusiyyətlərə bələd deyil və ən azı 20 dəfə baha olur.

Saakaşvili və onun komandası Ukrayna ilə faktiki olaraq bir ölkədə yaşayırdı. Orda elə nöqtə-vergüllər var ki, Dünya Bankı heç zaman onları bilə bilməz".

**Hikmət Hacızadə deyir ki, bu cür kənardan ekspertlər dəvət edilməsi Qərbdə uzun illər tətbiq olunub və müsbət nəticələr verib:** "Qərbdə bu cür ekspertlər çoxdur, başqa ölkələrdə onlar işləyirlər. Lakin onlar çox bahadırlar. Bu, dünyada qəbul olunmuş bir şeydir. Bu cür yüksək səviyyəli menecerlər gəlir, yüksək maaş qarşılığında ölkədəki siyasi, iqtisadi və sair sahələrdə islahatlar prosesini təşkil edir. Necə ki, futbolda bacarıqlı məşqçilərə milyonlarla pul verirlər ki, normal komanda qursun. Daxili İşlər Nazirliyi vacibdir, yoxsa futbol komandası? Bacarıqlı və təcrübəli menecerləri dəvət edirlər, bir neçə min dollara gəlib işləyir, islahatlar prosesini aparır".

❑ KƏNAN

# Penitensiar Xidmət Yadigar Sadıqovla bağlı sorğumuzu cavablandırdı

## "Müalicə müddəti Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən müəyyən edilir"

**Müsavat başqanının həbsdəki müavinlərindən biri, vicdan məhbusu Yadigar Sadıqovun ürəyində yaranan problemlərlə əlaqədar müalicə olunduğu tibb müəssisəsindən çıxarılması narahatlıqla qarşılanıb.**



Yadigar Sadıqov

O, hazırda 14 saylı cəzaçəkmə müəssisəsindədir. Müalicəsini orada davam etdirir. Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsi onun səhhətindən narahatlığını bildirərək, bununla bağlı bəyanat yayıb. Bəyanatda Penitensiar Xidmətdən bu məsələyə aydınlıq gətirilməsi tələb olunub. Həmçinin bəyanatda mətbuatdan məsələni gündəmdə saxlanılması və aidiyyəti orqanların mövqelərinin öyrənilməsi xahiş olunmuşdu.

"Yeni Müsavat" Yadigar Sadıqovun müalicəsinin yarımçıq dayandırılması ilə bağlı 16 fevral tarixində Penitensiar Xidmətə sorğu göndərmişdi. Sorğumuza 17 fevral tarixində cavab gəldi.

**Cavabda deyilir:** "Penitensiar Xidmətə daxil olmuş sualınıza cavab olaraq bildiririk ki, digərinin həyat və sağlamlığına qarşı, eləcə də ictimai qayda əleyhinə olan cinayət əməli məhkəmə ilə sübuta yetirilərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.3 (xuliqanlıq) və 127.2.3 (Qəsdən sağlamlığa zərər vurma) maddələri ilə 4 il müddətinə azadlıqdan məhrum edilmiş məhkum Sadıqov Yadigar Sadiq oğlu səhhəti ilə bağlı 31.01.2015-ci il tarixdən müvafiq həkim rəyinə əsasən, Penitensiar Xidmətin müalicə müəssisəsində müalicə kursu keçmiş, 14.02.2015-ci il tarixdə isə cəza çəkdiyi 14 saylı cəzaçəkmə müəssisəsinə keçirilmişdir. Bir daha nəzərinizə çatdırırıq ki, penitensiar müəssisələrdə saxlanılan təqsirləndirilən və məhkum şəxslərin səhhəti ilə bağlı müalicə müəssisəsinə keçirilmələri və həmin müəssisədə müalicə müddəti Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən müəyyən edilir".

❑ Cavanşir ABBASLI

# "Qarabağ məsələsində irəliləyiş Ukraynadan asılı olacaq"



**Ceyms Uorlik: "Prezidentlərin görüşü nə qədər yaxşı keçsə də, bu, kifayət deyil"**



**Vəfa Quluzadə: "Moskva ərazilərimizi yalnız bir şərtlə qaytara bilər: Azərbaycan tamamilə Rusiyanın nəzarətinə keçsin"**

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və ABŞ dövlət katibinin köməkçisi Viktoriya Nulandın bölgəyə növbəti səfəri zamanı təmas xəttindəki gərginliyin dayandırılması ilə bağlı çağırışlarına məhəl qoymayan işğalçı Ermənistan cəbhə xətti boyu azğınlığını ötən gün də davam etdirib. Ermənistan xarici işlər naziri Edvard Nalbəndyan isə Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), Pyer Andrie (Fransa) və İqor Popovu (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.**

"Turan" agentliyi Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən bildirir ki, Nalbəndyan Azərbaycanı çoxillik danışıqlar prosesini və Qarabağ münaqişəsinin tənzimlənməsinin əsas prinsiplərini pozmaq cəhdində ittiham edib. Onun iddiasına görə, Bakı Qarabağ münaqişəsindən öz ölkəsində siyasi repressiyalara bəraət qazandırmaq üçün istifadə etməyə çalışır.

Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun Böyük Sülh Müqaviləsinin müddəaları üzərində işə başlamaq çağırışlarına cavabda Nalbəndyan deyib ki, Ermənistan və Qarabağ razılıq verərsə, bu, mümkün olacaq. Ermənilərin nəzarətində olan Azərbaycanın Kəlbəcər rayonunun keçmiş sakinləri və Ermənistanda diversiyaçı kimi mühakimə edilmiş Dilqəm Əsgərov və Şahbaz Quliyevin taleyinə toxunan Nalbəndyan deyib ki, Bakının onların azad edilməsinə nail olmaq cəhdləri əbəsdir. "Onların cinayəti, o cümlədən 17 yaşlı gəncin oğurlanması, işgəncəyə məruz qoyulması və amansızcasına öldürülməsi sənədləşdirilib və sübut edilib" - deyib.

Qeyd edək ki, ABŞ dövlət katibinin köməkçisi Viktoriya Nuland İrəvanda girov saxlanılan kəlbəcərlilərin məsələsini qaldıracağını vəd edib. Nuland Bakıda qeyd edib ki, Ermənistan azərbaycanlı girovlar Diqləm Əsgərov və Şahbaz Quliyevi Azərbaycana qaytarmalıdır. Nulandın girovlarla bağlı bəyanatı ABŞ tərəfindən edilən ilk rəsmi açıqlamadır. Onun fikrincə, bu, humanitar addım kimi həyata keçirilməlidir: **"Mən bu mesajı Bakıda səsləndirdim, İrəvanda da eyni mesajı səsləndirəcəm. Biz zorakılığa son qoyulmasını, tərəflərin masa arxasına qayıtmasını istəyirik. Biz prosesi dəstəkləmək istəyirik".**

Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan xarici işlər naziri Nalbəndyanın ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşdə dediklərini şərh edib: **"Ermənistan xarici işlər naziri təəssüf doğuran ziddiyyətli şərhləri ilə regionda kimin sülh və təhlükəsizliyin bərqərar olmasına real əngəl yaratdığını bir daha göstərib"**, mətbuat xidmətinin rəhbəri bildirib. Hacıyev hesab edir ki, davam edən gərginliyə görə bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. **"Qeyd olunan "Dağlıq Qarabağ" heç vaxt əsas prinsiplərin hazırlanması üzrə danışıqların hər hansı mərhələsində iştirak etməyib. Göründüyü kimi, Ermənistan tərəfi növbəti dəfə bütün mümkün metodlarla əsaslı danışıqların başlanmasına əngəl yaratmağa çalışır".**

Qarabağın separatçı rejimi isə daha bir ağılsız bəyanat verib. Separatçı Dağlıq Qarabağ respublikasının "prezidenti"nin mətbuat katibi David Babayan Nulandın Bakıda səsləndirdiyi fikirlərə münasibət bildirərkən yenidən erməni hakimiyyətinin sərsəm mövqeyini təkrarlayaraq qeyd edib ki, girovlardan biri yalnız erməni zabit Qurgen Markaryanı öldürən Ramil Səfərovla dəyişilə bilər. Xatırladaq ki, Azərbaycan tərəfi artıq düşmənin bu sərsəm mövqeyinə kəskin münasibət bildirib.

*****

**"Hazırda əsas məqsədlərimizdən biri prezidentləri yenidən bir masa arxasına gətirməyin yollarını axtarmaqdır". Bunu Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Ermənistanın "Mediamaks" agentliyinə açıqlamasında deyib (APA). Onun sözlərinə görə, bunu həm Ermənistan, həm də Azərbaycan prezidentləri istəyirlər:** "Mən Azərbaycan prezidenti İlham Əliyevlə söhbət edərkən, o bildirdi ki, Serj Sarkisyanla görüşmək imkanını dəstəkləyəcək. Lakin prezidentlərin görüşü nə qədər yaxşı keçsə də, bu, kifayət deyil. Biz istəyirik ki, real danışıqlar aparılsın, proses intensivləşsin. Qərar tək prezidentlərdən asılı deyil. Gəlin tərəfləri müzakirə üçün bir araya gətirək. Biz asan məsələlərdən başlaya bilərik. Ola bilər ki, ilk olaraq yüksək səviyyədə həlli tələb olunan status, dəhliz və ya digər çətin mövzulardan başlamayaq. Lakin digər məsələləri müzakirə edə bilərik. Bunlar telekommunikasiya, infrastruktur və s. ola bilər".

**Diplomat bildirib ki, yaxın gələcəkdə yüksək səviyyədə görüş keçirilə bilər:** "Ancaq bizə görüş naminə görüş lazım deyil. Biz buna hazırlaşmalıyıq. Vasitəçilərin rolu ondan ibarətdir ki, prezidentlərin müzakirə edə biləcəyi məsələlər paketini hazırlasınlar. Tərəflər bir-birinə çox yaxındır. Hər iki tərəf münaqişənin həlli üçün 3 prinsip və 6 elementin tətbiqini əsas hesab edir. Təbii ki, bəzi detallar var ki, biz onların üzərində işimizi davam etdiririk. Ancaq reallıqda heç bir fikir ayrılığı yoxdur".

**Uorlikin sözlərinə görə, davamlı sülhə nail olmaq üçün hər iki ölkənin vətəndaşları arasında etimad mühitinin yaradılmasına nail olmaq lazımdır:** "Biz Azərbaycan və Ermənistan xalqları arasında əlaqələri dəstəkləyirik. Ümid edirik ki, erməni idmançılar Bakıda keçiriləcək Avropa Oyunlarında iştirak edəcəklər. Bu cür ünsiyyət faydalıdır".

**Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə edilən səfərlərə toxunan C.Uorlik separatçı rejimlə mütəmadi danışıqları dəstəklədiklərini bildirib:** "Biz Dağlıq Qarabağa səfərlər edirik və bunu gələcəkdə də edəcəyik. Biz onların fikirlərini, yanaşmalarını eşitmək istəyirik. Tək de-fakto rəhbərliklə görüşlər vacib deyil. Mən əvvəlki səfərlərimdə orada gənc insanlarla, ailələrlə görüşdüm. İnsanlar, xüsusilə münaqişənin həllinin birbaşa əlaqəsi olduğu qruplar nizamlanmanın əsas elementləri ilə tanış olmalıdır".

**Bəs Rusiya və Qərbin, həmçinin həmsədrlərin aktivləşməsi sonda münaqişənin ölü nöqtədən tərpədilməsinə səbəb ola bilərmi? Politoloq Vəfa Quluzadə "Yeni Müsavat"a dedi ki, ciddi nəticəyə inanmır:** "Ona görə ki, Rusiya 7 rayonu yalnız bir şərtlə qaytara bilər: Azərbaycan tamamilə Rusiyanın nəzarətinə keçsin. Yəni daha Azərbaycanın bir də müstəqilliyə qayıtmaq və müstəqil dövlət olmaq imkanı olmasın. Amma görək, Azərbaycan rəhbərliyi buna razı olarmı?"

**V.Quluzadəyə görə, həll variantındakı bəzi şərtlər Bakı üçün qəbulolunmazdır:** "Məsələn, Dağlıq Qarabağa ya ən yüksək muxtariyyət verilir, ya da məsələ qeyri-müəyyən zamana saxlanılır. Bu da faktiki olaraq müstəqillik deməkdir. Yəni Dağlıq Qarabağ muxtariyyət alsa, onun xaricdə təmsilçilik açmaq imkanları olacaq, dünyanın müxtəlif ölkələri ilə əlaqə yaratmaq imkanı qazanacaq. Bir məsələ var ki, Rusiya heç bu varianta da razı deyil. Dağlıq Qarabağın müstəqilliyinin müqabilində 7 rayonun azadlığına nail olmaq Ermənistan üçün olduqca əlverişli variantdır. Ancaq Moskva buna da razılaşmır. 7 rayonun azad olunmasının əvəzində bizim torpağa Rusiya sülhməramlılarının yerləşdirilməsi planı hələ 1994-cü ildə var idi. O vaxt Rusiya BMT-dən sülhməramlılarını bölgəyə yeritməklə bağlı mandat istəyirdi. Ancaq ABŞ ATƏT-in Budapeşt sammitində bizi ciddi şəkildə dəstəklədi. İndi isə Rusiya deyir ki, Amerika olmadan biz məsələni həll edə bilərik. Niyə Amerika olmadan? Ona görə ki, Amerikanın həll təklifi beynəlxalq hüquq əsasındadır. Rusiya isə öz maraqlarını və antiamerikanizm mövqeyini əsas götürür".

**Qərbin aktivləşməsinə gəldikdə, politoloq deyir Qərb bu dəqiqə məsələni həll edə bilməyəcək:** "Ancaq Qərb istəyir ki, məsələ həll olunanadək Azərbaycan müstəqilliyini itirməsin, Rusiyanın əlində alət olmasın. Faktiki olaraq bu dəqiqə üçüncü dünya müharibəsi gedir, bunu görmək lazımdır. Amerika və Rusiya Ukrayna uğrunda müharibə aparır". Ekspertə görə, Qarabağ məsələsində irəliləyişlərin taleyi həm də Ukrayna cəbhəsinin nəticəsindən asılıdır.

# Sərkisyanın hərbi cinayətkar kimi tanınması üçün 100 min imza yığıldı



Serj Sərkisyan

**Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyev "Serj Sərkisyanın hərbi cinayətkar kimi tanınması üçün 100 min səs" petisiyasının başa çatdığını xəbər verib. A.Quliyev bildirib ki, QHT Şurasının nəzdindəki İşçi Qrup tərəfindən təşkil edilən petisiya vaxtından əvvəl başa çatıb.**

"Bu işdə əməyi olan hər bir kəsə, o cümlədən İşçi Qrupunun sədri və üzvlərinə, QHT təmsilçilərinə, bu kampaniyanın aparılmasında əvəzsiz xidməti olmuş media mənsublarına, tələbələrə, ictimai aktiv şəxslərə, xaricdə yaşayan soydaşlarımıza və səsimizə qoşulanların hamısına təşəkkürümü bildirirəm. Mən son günlər səsvermə zamanı xüsusi fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinə, rabitə və təhsil işçilərinə bu səslərin qısa müddətdə toplanmasında göstərdikləri fədakarlığa görə ayrıca minnətdarlığımı çatdırıram".

**A.Quliyev qeyd edib ki, şuranın başladığı bu kampaniyaya reaksiya tək Azərbaycandan deyil, xarici ölkələrdən də gəldi:** "Bu prosesi hər gün yaxından izləyən əməkdaşların verdikləri məlumata görə, Avropanın əksər ölkələrindən, ABŞ-dan, hətta uzaq Avstraliyadan da səsimizə səs verən əcnəbilər tapıldı. Bu əcnəbilər arasında tanınmış şəxslər, siyasətçilər, jurnalistlər, ictimai-siyasi xadimlər, mədəniyyət işçiləri, hətta keçmiş səfirlər və diplomatlar da var idi. Təbii ki, burada diqqətimizi cəlb edən Sərkisyan rejimindən bezmiş, sıravi Ermənistan vətəndaşlarının petisiyaya qoşulmaları oldu. Bu onu sübut edir ki, əli Xocalı sakinlərinin, xüsusilə körpə uşaqların, qadınların və ahıl insanların qanına batan Sərkisyanın ədalət məhkəməsi qarşısında dayanmasını tək biz deyil, hətta sıravi ermənilər də tələb edirlər".

Növbəti addımın nə olacağına gəldikdə, şura sədri bildirib ki, kampaniyaya başlamazdan öncə bu barədə fəaliyyət planı hazırlayıblar: "Yaxın günlərdə İşçi Qrupu atılacaq növbəti addımlar və ayrı-ayrı istiqamətdə görüləcək işlər barədə ictimaiyyətə geniş məlumat verəcək. Əminəm ki, Azərbaycan xalqının başına gətirilmiş XX əsrin ən böyük dəhşətlərindən olan Xocalı soyqırımında birbaşa, habelə dolayısı ilə iştirak etmiş hər bir cinayətkar gec-tez haqlı cəzasını alacaq və onlar ədalət mühakiməsi qarşısında cavab verməli olacaqlar".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 38 (6066) 19 fevral 2015

# Lamiyənin anasından və onu "zorlayan" qohumundan şok açıqlamalar

Fariz Yusibov deyir ki, Aslan Aslanov Ruslanın namus üstündə öldürülməsini ört-basdır etmək üçün onu xalası qızının bəkarətini pozmaqda şərləyib tutdurub; **Kifayət Quliyeva:** "Ruslan rayonda neçə qızı belə bədbəxt eləyib, bu hadisədən sonra nə qədər qız polisə gətirilmişdi"

## Aslan Aslanov vəkili hədələyib

### Keçmiş nazir müavini Adəm Məmmədovun cəzalandırılması üçün Vəkillər Kollegiyasına şikayət göndərib



**Şəmkirin sabiq icra başçısı, kənd təsərrüfatı nazirinin keçmiş müavini Aslan Aslanov Vəkillər Kollegiyasına məktub yazıb. A.Aslanov Lamiyə Quliyevanın keçmiş nişanlısı, hazırda ömürlük həbsdə olan Vüqar Əliyevin vəkili Adəm Məmmədovun cəzalandırılmasını tələb edir.**

Redaksiyamıza daxil olan məlumatı vəkil təsdiqləyib. Deyib ki, A.Aslanovun ərizəsi haqda ona məlumat veriblər: "Aslan Aslanov Vəkillər Kollegiyasına barəmdə şikayət ərizəsi göndərib. Yazır ki, guya mən onun şərəf və ləyaqətini alçaldan hərəkətlər etmişəm".

Vəkil deyir ki, Aslanov VK-ya göndərdiyi məktubun altına imza atmazdan əvvəl onu təhdid edib, hədə-qorxu gəlib:

"Mən ona müraciət edirəm. Yoldaş Aslanov, hüquqlarını müdafiə etdiyim şəxsi müdafiə edərkən lazım olan faktların, yeni halların araşdırılması istiqamətində bir hüquqşünas kimi axtarışlar aparmağım mənim vəzifə borcumdur. Düşünmürdüm ki, bu sadə həqiqət barəsində məlumatsızsınız. Əziyyət çəkməyin. Mənə qarşı təhdid və hədə-qorxularınız nəticə verməyəcək. Bir neçə gün əvvəlki hədələrinizə, təhdidlərinizə də əhəmiyyət vermirəm. Vəkillər Kollegiyasına əsassız şikayət ərizəsi verməklə mənə təzyiq edə biləcəyinizi düşünürsüzsə, yanılırsınız! Hüquqlarını müdafiə etdiyim şəxsin müdafiəsi istiqamətində əldə etdiyim və eyni zamanda cəmiyyətimizə məlum olan faktlar sizin maraqlarınıza zidd ola bilər. Vüqarın hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətimə maneəçilik törətmək kimi mənasız işdən də əl çəkin!"

**Vəkil deyib ki, Aslanovdan əvvəl də barəsində şikayət edənlər olub:** "Bir qism şəxslər var ki, çəkişdikləri tərəfin vəkilinin olmasını belə qəbul etmirlər. Təəssüf ki, Aslanov da belələrindəndir. O da digərləri kimi hüquqlarını müdafiə etdiyim şəxsin vəkili olmasını qəbul etmək istəmir, mənə qarşı Vəkillər Kollegiyasına əsassız şikayət ərizəsi göndərib. Təbii ki, onun ərizəsi də digərləri kimi rədd olunub. Aslanov öz-özlüyündə belə təzyiq göstərməklə fikirləşir ki, Vüqar Əliyevin müdafiəsinin həyata keçirilməsinə maneəçilik törədəcək. Lakın çox yanılır! Çünki Vüqar Əliyevin müdafiəsi tərəfimdən sırf qanuni yolla və faktlarla həyata keçirilir. Diqqətinizə çatdırmaq istərdim ki, siz bu addımı atmaqla mənim prinsipiallığımı daha da sərtləşdirirsiniz. Düşünməyin ki, köməksiz, çarəsiz, arxa-dayaqsız, hüquqi savadları aşağı səviyyədə olan insanları həbsxanalarda dustaq etdirməklə, sifarişlərlə qadın, yeniyetmə, cavan, yaşlı - bir sözlə sadə Azərbaycan vətəndaşlarının həbs olunmasına nail olmaqla haqq üzərində qələbə çalmısınız. Siz lap əvvəldən uduzmusunuz. Dövlətin sizə inamından sui-istifadə edəndə, dövlətin gücündən şəxsi məqsədləriniz üçün istifadə edəndə uduzan tərəf olmusunuz... Bilin ki, təxribatlarınıza qarşı özünümüdafiə gücünə malik daha cəsarətli Azərbaycan vətəndaşları var. Hətta hüquq-müdafiə fəaliyyətimin həyata keçirilməsi zamanı ədalətin bərqərar olması uğrunda şəhid olmağa da hazıram!"

❑ E.MƏMMƏDƏLİYEV





**Şəmkirə ezam olunmuş reportyor qrupumuz Lamiyə Quliyevanın ailə üzvləri ilə görüşüb. Lamiyənin anası Kifayət Quliyeva və onun bəkarətini pozmaqda ittiham edilərək həbs olunan qohumu Fariz Yusibov baş verənlərdən danışıblar.**

### "Ruslan deyirdi Şəmkirdə nə gözəl qız varsa, birinci..."

**K.Quliyevanın sözlərinə görə, Şəmkirin o zamankı icra başçısı Aslan Aslanovun oğlu qızını incidirdi:** "Neçə dəfə ağlaya-ağlaya evə gəlmişdi ki, məni məktəbdən çıxar. Ruslan onu bezdirirdi. Gah saçını dartırdı, gah sırğasına ilişirdi. Məktəbin direktoru da ondan qorxurdu. Axırda Ruslanın anasına zəng elədim, dedim, oğluna de Lamiyədən əl çəksin. Bir gün də çıxdım bayıra, gördüm bir oğlan, yanında da cangüdən var. Dedi, xala, məni tanıyırsan? Dedim ki, yox, nə bilim kimsən. Dedi ki, mən Ruslanam, qızınızı istəyirəm, valideynlərimə heç nə demə, Lamiyəni incitməyəcəyəm. Aradan bir həftə keçmişdi ki, gördüm Lamiyə evdə onu söyür, ayağını yerə vurur. Dedim, qızım nə olub? Ağladı ki, Ruslan deyir səni bədbəxt edəcəyəm, qoymayacağam səni kimsə alsın. Bax indi özümü günahkar sayıram ki, gərək uşağımın əlindən tutub Aslanın yanına gedərdim. Deyərdim ki, ya oğlunu yığışdır, ya da biz Şəmkirdən çıxaq gedək. Bu iş də olmazdı... Mənim heç nədən xəbərim olmayıb.

Lamiyə mənə deməyib ki, Ruslan ona məktəbdə təcavüz edib. Ona hədə-qorxu gəlmişdi deyə səsini çıxarmırdı. Ruslan hər yerdə deyirdi ki, hamı atamdan qorxur. Aslan Aslanov ona vaxtında tərbiyə versəydi, nə onun balası ölərdi, nə də bizim başımıza bu müsibət gəlməzdi. Aslanovlar Şəmkirə qan uddururdu. Onun oğlu Ruslan rayonda neçə qızı belə bədbəxt eləyib. Bu hadisədən sonra nə qədər qız polisə gətirilmişdi. Allah uzaq eləsin, yadıma salmaq istəmirəm, hər dəfə danışanda halım pisləşir.

Azca oğluna tərbiyə versəydi belə olmazdı. Ruslan deyirdi ki, Şəmkirdə nə gözəl qız varsa, birinci mənim olmalıdır. O qızların heç birinin valideyni qorxusundan səsini çıxarmadı".






### "Hadisə torpaq yox, Lamiyə üstündə olub"

**Lamiyənin anası danışır ki, 2003-cü ilin aprelində el adəti ilə Vüqarla Lamiyənin nişanı olub:** "Mən Vüqarı öz balam kimi istəmişəm. O uşağın nə günahı var ki, ömürlük cəza verilib? Hadisə baş verən günü də bilməmişəm ki, Lamiyə Ruslanı öldürüb. O, məndən icazəsiz heç yerə getməzdi. Həmin gün bir otaqda qalmışıq, mənə bir kəlmə deməyib".

**K.Quliyeva hadisənin torpaq mübahisəsi üstündə baş verməsini təkzib edir. Onun sözlərinə görə, əgər A.Aslanovun Vüqarın atası İbrahim İsmayılovla mülki davası olsaydı, bu işdə Lamiyə iştirak etməzdi:** "Onda məni niyə həbs edib Gəncə istintaq təcridxanasında üç ay saxladılar? Guya ki cinayəti bilib gizlətmişəm. Bəs bacımın oğlu Fariz Yusibovu niyə tutub 6 il yarım iş kəsdilər? Əgər Aslanla Vüqarın atası arasında torpaq mübahisəsi olsaydı, Lamiyənin bu işə nə aidiyyəti vardı? Bu hadisə torpaq üstündə olmayıb, Lamiyə üstündə olub. Lamiyə üstündə Ruslan Vüqarla neçə dəfə dalaşıb. Axırda iki ailəni məhv etdi. Lamiyənin atası, qardaşı olsaydı, belə iş başımıza gəlməzdi".

**Anası Lamiyənin həbsdə dünyaya gətirdiyi övladından danışdı. O, Lamiyənin əvvəlcədən hamiləliyindən məlumatlı olub - olmaması haqda heç nə demədi:** "Lamiyədən bu uşağın atası haqda heç nə soruşmamışam. Bundan sonra atası yaxın durmasa da, yenə bu uşaq övladıma bir ümiddir".

### "Dedi, boynuna almasan səni zorladacağam"

**K.Quliyeva qızının nəzarətçini döyməsi ittihamını saxta hesab edir:** "O nəzarətçi Zəngilandan köçkündür. Deyirlər ki, ona ev alıb verilib. Heç bu işlə bağlı məhkəməyə gedə bilmədim, xəstə yatırdım".

**Lamiyənin xalası oğlu Fariz Yusibovla da görüşdük. O, Lamiyəni zorlamaqda ittiham edilərək həbs olunub. Fariz deyir ki, qətldən sonra Ruslanın Lamiyənin bəkarətini pozduğunu öyrənib:** "O vaxt Ruslan haqda eşitmişdim. Bilirdim ki, qızın dalınca qapılarına gedib-gəlirmiş. Ancaq hadisədən sonra bildim ki, qıza təcavüz edibmiş. Bu hadisədən 4 gün sonra, məni 2003-cü il mayın 13-də polisə çağırdılar, Lamiyəni tanımağım haqda izahat aldılar. Mayın 14-də yenidən çağırıb dedilər ki, xalan qızına sataşmısan, mən də yalan olduğunu dedim. Mayın 29-da isə məni həbs etdilər.

İyunun 23-nə kimi əsassız saxladılar. Sonra Cinayət Məcəlləsinin 152 və 221.3 maddələri ilə cinayət işi başlanıldı. İstintaqda dəfələrlə çağırıb dedilər ki, Lamiyəni zorladığını boynuna almalısan. Mən də üzləşdirmə tələb etdim. Vəkilim Sərdar Qasımov çox çalışdı, amma ona da təzyiqlər oldu. Sonra Şəmkirin Arif adlı prokuroru kabinetinə çağırdı, tələb elədi ki, zorlamanı boynuma alım. Dedi, bunu etməsən sənin özünü zorladacağam. Dedim, mənə heç nə edə bilməzsiniz, mən etmədiyim işi boynuma almayacağam".

### "Aslanov Vüqarın ağzına tapança salıb..."

F.Yusibovun işinə Şəmkir Rayon Məhkəməsi baxmaqdan imtina edərək Kəpəz Rayon Məhkəməsinə göndərilib. Ona 6 il hökm oxunub. 2007-ci il martın 15-nə qədər həbsdə olub, yerdə qalan 2 il 4 ay isə Goranda açıq-tipli cəzaçəkmə müəssisəsində saxlanılıb.

Məhkəmədə isə Nailə Tahirova və Şahin Quliyev adlı "şahidlər" iştirak edib. Onlar prosesə gəlməyib, ifadələrində isə Farizin Lamiyənin bəkarətini pozduğunu qeyd ediblər. Hakim məhkəməyə gəlməyən şahidlərin ifadəsini əsas tutaraq hökm oxuyub.

**Lamiyənin qohumu deyir ki, həbsdə ona təkliflər edilib:** "Bir mülki geyimli gəlmişdi. Dedi ki, Elpərəst Həsənli və Şahbaz Hüseynovun üzünə dur, buraxılacaqsan. Dedi ki, ədliyyə polisiyəm, məni Aslan Aslanov göndərib. Mən də imtina etdim. Çünki o adamların heç birindən zərər çəkməmişəm. Bu qətlin mahiyyətini dəyişib, namus üstündə olmadığını sübut etmək istəyirdilər. Guya Ruslanın qətlini bu adamlar sifariş verib".

**İstintaq dövründə Vüqarla üzləşdirilən Fariz deyir ki, onu tanımayıb:** "Vüqarla bizi üzləşdirdilər. İkinci üzləşdirmədə üzü, burnu qan içindəydi, polislər qoluna qandal vurmuşdu ki, yıxılmasın, bədəni əsirdi. O qədər döyülmüşdü ki, özündə deyildi. Onu məcbur edirdilər ki, Lamiyəni mənim zorladığımı desin. Aslan Aslanov Vüqarın ağzına tapança salıb ki, Farizin üzünə dur. Onun yerində o gündə kim olsa üzümə durmağa məcbur olardı. Amma Ruslanın öldürülməsində Lamiyə ilə Vüqar bir yerdə olsalar da, Vüqara ömürlük iş düşmürdü".

❑ "Yeni Müsavat"ın Reportyor Qrupu, Şəmkir

# Səudiyyəli şeyxin "elmi kəşfi"...

## Və ya əslində, dünya nə vaxtdan fırlanır?

**Səudiyyə Ərəbistanından olan din xadimi Şeyx Bəndər əl Hayberin Yer kürəsinin fırlanmaması ilə bağlı fikirləri böyük sensasiyaya səbəb olub. XXI əsrdə belə bir açıqlamanın verilməsi elm ictimaiyyəti tərəfindən absurd qəbul edilsə də Şeyx Bəndər öz fikirlərini belə əsaslandırıb:**





"Dünya sabitdir. Hərəkət etmir. Deyək ki, təyyarə ilə Serce hava limanından Çinə doğru gedirik. Dünyanın hərəkətdə olduğunu deyirsiz? Yaxşı, indi diqqətinizi mənə verin. Bu *(su butulkasını göstərir)* dünyadır. Əgər dünya dönürsə, təyyarə havada olanda Çin təyyarəyə doğru gəlməli deyil? Doğrudur, yoxsa səhv? Əgər dünya əks istiqamətdə fırlansaydı, bu dəfə də təyyarə heç vaxt Çinə çata bilməzdi. Çünki Çin də təyyarə kimi hərəkət etmiş olacaqdı".

Bu fikirlər dünya mətbuatında geniş müzakirələrə səbəb olub. Ölkəmizdə də Səudiyyə şeyxinin fikirləri birmənalı qarşılanmayıb. Bunu nəzərə alaraq, son günlərin müzakirə mövzusuna bir daha qayıtdıq və "yerin fırlanması" fikrinin tarixinə nəzər salmağa çalışdıq.

Şərqdə ilk dəfə bu fikri Əbu Reyhan Əl Biruni elmə gətirib. O, XI əsrin ən böyük coğrafiyaşünası hesab olunurdu. "Hindistan" adlı əsərində Biruni, ilk dəfə olaraq yerin günəş ətrafında hərəkətini və dünyanın hərəkətsiz deyil, dönən bir kütlə olduğunu söyləmiş və məşhur hind astronomu Brahmaquptanın "Yer hərəkətdə, göylər isə sükunətdədir" fikrini əsaslandırmışdı. Və Avropa elmi isə yalnız 500 ildən sonra Biruninin elmi əsaslarla irəli sürdüyü bu fikrə gələcəkdi.

995-ci ildə Biruni Yer kürəsinin modelini hazırlamağa başlayır və müxtəlif şəhərlərin, kəndlərin və coğrafi obyektlərin yerini dəqiq təyin etmək üçün diametri təqribən 5 metrə yaxın olan ilk relyefli qlobusu yaradır. Ərəb alimi əl-Biruninin fikrini bir daha elmə qaytaran polyak alimi Nikolay Kopernik olub. Kopernikə qədər dünya sistemi haqqında Ptolomey nəzəriyyəsi "hökmranlıq" edirdi. Bu nəzəriyyəyə görə, Yer kürəsi kainatın mərkəzində yerləşir, Günəş və digər planetlər isə onun ətrafında fırlanır. Göy cisimlərini müşahidə edən Kopernik belə bir qənaətə gəlir ki, Ptolomeyin nəzəriyyəsi yanlışdır. Otuz illik riyazi hesablamalardan sonra Kopernik sübut edir ki, Yer bir planetdir və bütün planetlər Günəş ətrafında dövr edir. Kopernik bildirirdi ki, Yer kürəsindəki müşahidəçi Yerin tərpənməz olduğunu, Günəşin isə onun ətrafında fırlandığını düşünür. Əslində isə Yer Günəş ətrafında fırlanır və bir il ərzində öz orbiti ətrafında tam dövrə vurur. 1543-cü ildə Kopernik "Göy cisimlərinin fırlanması haqqında" əsərini çap etdirmək qərarına gəlir. Dostları çap olunmuş kitabın bir nüsxəsini gətirib ona verəndə alim artıq ölüm ayağında idi. Kopernikin kəşfi elmdə çevriliş yaratmış və kilsə xurafatına sarsıdıcı zərbə vurmuşdu.

Kopernikdən sonra bu fikrini davam etdirən Avropa alimləri isə heç də onun qədər şanslı ola bilmədilər.

İtaliyan alimi Cordano Bruno məhz Nikolay Kopernikin kitabını oxuduqdan sonra bu istiqamətdə axtarışlara başlamışdı. O, günəş sistemi daxilində o zamanlar naməlum planetlərin mövcudluğu barədə, kainatın hüdudsuzluğu və ulduzların ətrafında planetlərin fırlandığı uzaq günəşlər olması haqda nəzəriyyələr irəli sürmüşdü. Bu fikirləri yaydığına görə Bruno 1600-cü ildə məhkəmə qərarı ilə yandırıldı.

İtalyan fiziki Qalileo Qaliley də Yer kürəsinin, ulduzların hərəkətdə olduğunu və Günəşin öz oxu ətrafında fırlandığını iddia etməsi səbəbindən kilsənin çox sərt və qəzəbli münasibətilə qarşılaşdı və kilsə tərəfindən rəsmi surətdə mühakimə olundu. Edama məhkum olunduğunu görən alim çarəsiz qalıb, yazılı şəkildə tövbə etdi və Yer kürəsinin hərəkət etməsi və Günəşin öz oxu ətrafında fırlanması haqqındakı fikirlərindən əl çəkdi. Ancaq məhkəmədən çıxarkən Qalileyin işlətdiyi ifadə bu gün də tarixdə xatırlanmaqdadır: **"Ey Yer kürəsi, sən şahid ol ki, hərəkət edirsən və gələcək nəsillər buna şahid duracaqlar. Amma nə edim ki, kilsə və onun başında dayananlar sənin hərəkət etdiyini sübuta yetirməyə mənə icazə vermədilər".**

Din alimlərinin fikrincə, Qurani-Kərimdə də müxtəlif ayələrdə Yer kürəsinin hərəkət etməsinə işarələr var: "**(O gün) dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər!"** (Nəml surəsi, ayə 88). Qeyd edək ki, Yer kürəsi hər 23 saat 53 dəqiqə ərzində bir dəfə öz oxu ətrafında fırlanır və bunun nəticəsində gecə-gündüz əmələ gəlir. Yer kürəsinin öz oxu ətrafında fırlanmasını göstərən dövretmə hərəkətindən əlavə, 364 gün ərzində bir dəfə Günəş ətrafında fırlanır ki, bunun nəticəsində də dörd fəsil yaranır. Həmçinin Yer kürəsi hər gündə bir dəfə öz oxu ətrafında, hər ildə bir dəfə bütün digər kürələr arasında, onlarla birlikdə Günəş ətrafında fırlanmaqdan əlavə, eyni zamanda yer kürəsi, digər kürələr və Günəş - bunların hamısı bir yerdə sonsuzluğa doğru hərəkət edirlər.

❑ **Nərgiz LİFTİYEVA**



# Ermənistanda Sarkisyana qarşı proseslər başlayır

## Natiq Miri: "Zamanında Ter-Petrosyanı istefaya göndərən və Köçəryanı hakimiyyətə gətirən güc bu gün də həmin variantı həyata keçirə bilər"

**Ermənistanda siyasi əziyyət yenidən gərginləşib. Prezident Serj Sarkisyanla ölkənin ən varlı adamı, "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Sarukyan arasında yaranmış gərginlik siyasi münaqişəyə çevrilib.**

Ermənistan prezidenti ötən həftə Sarukyanın fəaliyyətini kəskin tənqid edərək onu Ermənistan üçün bəla adlandırıb. Həmçinin Sarukyanın Ermənistan milli təhlükəsizlik şurasında üzvlüyü və deputat mandatının alınması barədə tapşırıq verib. Sarukyan isə Sərkisyanın hakimiyyəti öz əlində saxlamaq istəməkdə günahlandırıb. Məlum olub ki, "Daşnaksütyun" Partiyasının təşkilatçılığı ilə Sarkisyanla Sarukyan arasında görüş keçirilib. Ancaq hələlik görüşün detalları bəlli deyil.

Bu arada məlum olub ki, Ermənistanın müxalifətdə olan "Çiçəklənən Ermənistan", Erməni Milli Konqresi və "İrs" partiyaları fevralın 20-də İrəvandakı Azadlıq meydanında mitinq keçirmək haqda qərar verib. Bəzi məlumatlara görə isə keçmiş prezident Robert Köçəryan da Sarukyanı dəstəkləyir.

**Bu isə Ermənistanda hakimiyyət dəyişikliyi mövzusunu yenidən gündəmə gətirib. Siyasi şərhçi Natiq Mirinin fikrincə, Ermənistandakı siyasi ajiotaj Sarkisyan hakimiyyətinin mövqelərinin həm daxildə, həm də xaricdə zəifləməsi ilə bağlıdır:** "Bu proses Sarkisyan hakimiyyətinin Avrasiya İttifaqına üzvlüyündən sonra daha da intensivləşdi. Qərbdə Sarkisyanın mövqeləri zəiflədi, Rusiya isə bütün alacaqlarını aldıqdan sonra rus əsgərinin erməni ailəsini qətl etməsi hadisəsindən sonra onun mövqelərini erməni toplumunda tamamilə sarsıtdı".

**Ekspert deyir ki, Rusiya indi daha çox Azərbaycanı öz tərəfinə çəkməyə çalışır və bu zaman təbii ki, ortaya çıxan təkliflər Ermənistan hakimiyyəti üçün uyğunsuzdur. N.Mirinin fikrincə, Ermənistanın indiki hakimiyyəti anlayır ki, Dağlıq Qarabağ münaqişəsinin davam etməsi onun üçün yaşam təminatıdır:** "Rusiya Azərbaycanı öz orbitinə çəkmək üçün Qarabağ probleminin həlli ilə bağlı bir neçə cəlbedici təkliflər ortaya qoymuşdu ki, bunun da həyata keçirilməsində yeganə əngəl məhz Sarkisyan hakimiyyəti idi. Bu da təbiidir, çünki Sarkisyan anlayır ki, mövqelərinin sarsıldığı indiki şəraitdə Qarabağla bağlı istənilən güzəşt hakimiyyətinin sonu ola bilər. Ona görə ki, bu gün hakimiyyətin çökən iqtisadiyyatın, siyasi və geosiyasi iflasın müqabilində nə cəmiyyətə, nə də havadarlarına təqdim edə biləcəyi parlaq heç nə yoxdur".

**N.Miri deyir ki, hazırda Ermənistanda güclü müxalifət partiyaları var və onlar istənilən an ortaya çıxıb hakimiyyətə iddia edə bilərlər:** "Ermənistanda cəmiyyətin əksəriyyəti tərəfindən dəstəklənən "üçlük" deyilən müxalifət partiyaları mövcuddur və hər an hakimiyyəti əvəz etməyə hazır olduqlarını nümayiş etdirir. "Üçlüyün" təşkil etdiyi on minləri ehtiva edən son etiraz aksiyaları da bu gücü nümayişin göstəricisi sayıla bilər. "Çiçəklənən Ermənistan" Partiyasının rəhbəri Qagik Sarukyanın son Moskva səfəri də Moskvadan siyasi hakimiyyəti əvəzləmək üçün dəstək axtarışı kimi dəyərləndirilməlidir. Məhz bu səfər haqda Sarkisyana verilən məlumatlar da münasibətlərdə stəkanı daşıran damla oldu. Sərkisyan hakimiyyətinə real təhlükə hiss etdiyi üçün əski müttəfiqi Sarukyana qarşı total hücuma keçdi. Bu isə müxalifətin yenidən birləşməsinə, fəallaşmasına gətirib çıxardı. Bu vəziyyətdə Moskvanın dəstəyi olarsa, hakimiyyəti yola salmaq üçün son akkordları vurmağa imkan yarada bilər. Artıq ümumermənistan mitinqinə ciddi hazırlıqlar gedir. Bu etirazların siyasi nəticəsi əsasən Moskvanın mövqeyindən asılı olacaq. Əgər Rusiya Sərkisyandan Qarabağla bağlı istədiklərini ala bilsə, Sərkisyan hakimiyyətdə qalmaqda davam edəcək. İndiki şəraitdə zəifləmiş Sərkisyan Rusiyanın ondan almaq istədikləri üçün sərfəlidir. Yox, əgər Sərkisyanın Rusiyaya təqdim edəcəyi bir şey qalmayıbsa, təbii ki, onun hakimiyyət erası da bitəcək və başqa rusiyayönlü siyasi qüvvələrlə əvəz ediləcək. Bunun üçün də hakimiyyət daxilində imkanlar mövcuddur. Nəzərə almaq lazımdır ki, Ermənistanın baş naziri Ovik Abramyan Sarukyanın qohumudur. Zamanında Ter-Petrosyanı istefaya göndərən və baş nazir kimi Köçəryanı hakimiyyətə gətirən güc bu gün də həmin variantı yenidən həyata keçirə bilər".

❑ **KƏNAN**

# "Karqo xidməti azərbaycanlı inhisarçıların zavalına gəlib"

## "Əbülfəz Məlikov Tükiyədən də haqsız olaraq əlavə dəyər vergisi istəyir"

**Bu günə qədər bir çox sahədə tərəfdaşlıq edən türk və azərbaycanlı iş adamları Azərbaycan Trans Broker firmasının rəsmisi Əbülfəz Malikov tərəfindən edilən təzyiqlərə qarşı etiraz edib.**




Musavat.com-un İHA-ya istinadla verdiyi məlumata görə, illərdir Türkiyə ilə Azərbaycan arasında inkişaf edən, iki ölkənin də iqtisadiyyatına xeyir verən karqo ticarəti hazırda sıxıntılı günlərini yaşayır. 1990-cı illərdən bu yana iki ölkənin də büdcəsinə milyonlarla dollar qazandıran karqo xidməti Azərbaycan inhisarçılarının zavalına gəlib.

Azərbaycan-Rusiya Kargocular Birliyi üzvləri bir araya gələrək Azərbaycanın İstanbul Baş Konsulluğundan verilən açıqlama ilə bu məsələnin tez həll olunması lazım olduğunu vurğulayıb.

**Açıqlamada bildirilir:** "Bu məsələnin tezliklə həll olunacağını güman edirik. Bu vəziyyətdə belə anlaşılır ki, Əbülfəz Məlikov Tükiyədən də haqsız olaraq əlavə dəyər vergisi (ƏDV) istəyir. Bu halda Türkiyədən ixracat həyata keçirən şirkətlər çətin vəziyyətə düşəcək".

**Azərbaycan-Rusiya Karqoçular Birliyinin təmsilçisi açıqlama verərək deyib:** "Türkiyədən Azərbaycana karqo xidməti həyata keçirən 30-a yaxın şirkət var. Bu karqo şirkətlərində 10 minə yaxın işçi çalışır. Bu xidmət ölkələrin büdcəsinə yüksək məbləğ qazandırır. Azərbaycan Prezidenti İlham Əliyevə buradan səslənirik. Bu inhisarçılığı qaranlıq qüvvələrin əlindən xilas edərək sıxıntıya son verməsini tələb edirik".

❑ **GÜLNAR**



# Tikinti şirkətinin rəhbəri həbs edildi

**Azərbaycanda daha bir tikinti şirkətinin qanunsuz əməlləri ifşa edilib. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, "RUM" Mənzil Tikinti Kooperativinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.**

İstintaq zamanı İman Hüseynovun "RUM" MTK-nın direktoru vəzifəsində işləyərkən qulluq mövqeyindən istifadə edib rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə kooperativ tərəfindən Xətai rayonu, M.Hadi küçəsi 41 saylı ünvanda inşa olunmuş çoxmərtəbəli yaşayış binasında mənzilləri təkrarən ayrı-ayrı şəxslərə satmaqla 185 550 manat məbləğində özgə əmlakını aldatma və etibardan sui-istifadə etməklə ələ keçirməsində şübhələr üçün əsaslar olduğundan, ona Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilməklə barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.




# "Zəlzələ Elçin"in məhkəməsi davam etdirilib



**Bakı Ağır Cinayətlər Məhkəməsində Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzinin sabiq rəisi Elçin Xəlilovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. Lent.az-ın məlumatına görə, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı başa çatdırılıb. Çıxış üçün söz dövlət ittihamçısına verilib. O, çıxışa hazır olmadığı üçün proses fevralın 20-dək təxirə salınıb.**

Qeyd edək ki, Respublika Hərbi Prokurorluğu tərəfindən aparılan yoxlama nəticəsində Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzinin sabiq rəisi Elçin Xəlilovun işlədiyi müddətdə ciddi qanun pozuntularına yol verməsi aşkar edilib. Müəyyən olunmuş qanun pozuntuları ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 308.2. və 341.1. (Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə (Rəisin və ya vəzifəli şəxsin hakimiyyətdən və ya öz qulluq mövqeyindən sui-istifadə etməsi, hakimiyyət həddini və ya qulluq səlahiyyətini aşması, hakimiyyətdən qəsdən istifadə etməməsi, bu əməllər müntəzəm, yaxud tamahkarlıq məqsədilə və ya digər şəxsi marağa görə törədildikdə, habelə bu əməllər əhəmiyyətli zərər vurduqda) maddələri ilə cinayət işi başlanıb və Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında onun barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Aparılmış istintaqla müəyyən edilib ki, Elçin Xəlilov Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzinə rəhbərlik etdiyi müddət ərzində vəzifə səlahiyyətlərini aşmaqla külli miqdarda dövlət əmlakını talayıb. Onu da qeyd edək ki, ibtidai istintaq zamanı E. Xəlilov barəsində həbs-qətimkan tədbiri seçilib. Lakin Bakı Ağır Cinayətlər Məhkəməsində ötən il dekabrın 30-da keçirilən hazırlıq iclası zamanı bu qərar dəyişdirilib. Belə ki, iclasda təqsirləndirilən şəxsin vəkili E. Xəlilovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsinə dair vəsatət verib. Məhkəmə vəsatəti təmin edib və E. Xəlilov məhkəmə zalından azadlığa buraxılıb.

# Gəncədə arvadını öldürən kişi əvvəlki həyat yoldaşını da qətlə yetiribmiş

**Gəncədə 3-cü həyat yoldaşını öldürən şəxsin 10 il bundan əvvəl 2-ci arvadını da qətlə yetirdiyi məlum olub. Yerli hüquq-mühafizə orqanlarından APA-nın qərb bürosun verilən məlumata görə, ötən ilin dekabrın 19-da həyat yoldaşı, 1985-ci il təvəllüdlü Esmira Bağban qızı Əliyevanı qətlə yetirdiyinə görə həbs edilən şəhər sakini, 1963-cü il təvəllüdlü Vidalət Təbriz oğlu İsmayılovun daha bir qətl törətdiyi aşkarlanıb. Məlumata görə, V. İsmayılov 2006-cı ildə 2-ci həyat yoldaşı, 1977-ci il təvəllüdlü Rəna Akif qızı Əsgərovanı da qətlə yetirərək Gəncə çayının sahilində yerləşən həyətyanı sahəsində basdırıb. Hazırda hüquq-mühafizə orqanları meyitin basdırıldığı ərazidə araşdırma aparırlar.**

Qeyd edək ki, V. İsmayılov 2014-cü ilin oktyabr ayında 3-cü həyat yoldaşı Esmira Əliyevanı şəxsi münasibətlərin pozulması zəminində şal ilə boğaraq öldürdükdən sonra Göygöl rayonunun Totanlı kəndində yerləşən özünə məxsus evin həyətində basdırıb.

# "Operatorlararası bağlantı tarifi aşağı salınmalıdır"

**Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyi mobil operatorlararası bağlantılara görə müəyyən olunan tariflərin aşağı salınması istiqamətində işlər görür. "APA-Economics"in məlumatına görə, bunu jurnalistlərə rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov deyib. "Bu gün tətbiq olunan operatorlararası tarif metodu bazara üçüncü mobil operatorun, yəni "Azərfon" şirkətinin gəlişi ilə əlaqədardır. Lakin hazırda əsas məqsəd vahid tarifin tətbiq olunması üçün operatorlararası tarifin aşağı salınmasıdır", - deyə nazir bildirib.**

Qeyd edək ki, hazırda operatorlararası bağlantının qiyməti 0,02 manat təşkil edir.

# Bu gün Bakıya və rayonlara qar yağacaq

**Azərbaycan ərazisində hava şaxtalı və yağıntılı olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan verilən məlumata görə, fevralın 19-da Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək.**

Əsasən gecə və axşam yağıntının sulu qar və qarla qarışıq yağması gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz tədricən cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 0-2 dərəcə şaxta, gündüz 1-4 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında fevralın 19-da havanın yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, duman olacağı gözlənilir. Gündüz yağıntının kəsiləcəyi gözlənilir. Şərq küləyi əsəcək. Aran rayonlarında havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 3-7 dərəcə isti, dağlıq ərazilərdə gecə 5-10, gündüz 0-4 dərəcə şaxta olacaq.

## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

## Təbrik



**Elyarın 9 yaşı tamam olur. Onu bu münasibətlə atası Əliyar, anası Almaz, qardaşı Nihad, nənələri Bəsdi, Esmira və ELYAR-sevərlər təbrik edir. Yeni yaşında xoşbəxtliklərin ən gözəlini yaşayasan, müvəffəqiyyət nərdivanlarını rahatlıqla dırmaşarsan və diləyirik ki, üzün həmişə gülər olsun, sevinci heç itirməyəsən. Sevgi dolu qalmağın və xoşbəxt olmağın diləyi ilə. Ad günün mübarək olsun!**

# "Aygün Kazımova və Rihanna məni necə lazımdır təkrarlayır"





**"Mənim bir neçə il öncə etdiyim saç düzümümü təkrarlayırlar". Bu sözləri müğənni, bəstəkar Elza Seyidcahan "Yeni Müsavat"ın əməkdaşına verdiyi açıqlamada bildirib: "Aygün söz atır ki, Rihanna özünü ona bənzədir. Amma xəbəri yoxdur ki, onlar ikisi də Elza Seyidcahanı necə lazımdır təkrarlayır. Bunu fotolardan da aydın görə bilərsiniz".**

Qeyd edək ki, bir müddət əvvəl əməkdar artist Elza Seyidcahanla xalq artisti Aygün Kazımova arasında narazılıq yaşanmışdı. Məlumata görə müğənnilərin dostluğunun pozulmasına səbəb A.Kazımovanın məclislərdən birində kəsdiyi tortun dilimlərindən E.Seyidcahandan başqa hər kəsə verməsi olub. Lakin bugünlərdə A.Kazımovanın ad günündə müğənnilər barışmağa qərar verdilər. İlk barışıq addımı E.Seyidcahan tərəfindən atılıb. Əməkdar artist sosial şəbəkədə həmkarını təbrik edib, onun ünvanına təriflər yağdırmışdı.

❑ **Xalidə GƏRAY**

# "Nar Mobile" abunəçilərin sosial mediadakı bütün sorğularını vahid platformada cavablandırır

## Mobil operator abunəçilərin sosial media vasitəsilə verdikləri bütün sualları birbaşa cavablandırır, sorğular yerindəcə icra edilir



**"Nar Mobile" öz abunəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərmək üçün daha bir mütərəqqi addım atdı. Belə ki, "Nar", abunəçilərinə sosial media üzərindən tam əhatəli müştəri xidməti təqdim edən yeganə mobil operator oldu. "Nar Mobile"ın Müştəri xidmətləri departamentində abunəçilərə sosial media üzərindən birbaşa dəstək vermək üçün xüsusi komanda formalaşdırıldı. Müştərilərə tam və əhatəli dəstəyi nəzərdə tutan xidmət (Full-Fledge Customer Care) özünəməxsusluğu ilə seçilir. Sosial media vasitəsilə (Facebook, Twitter, Instagram və s.) bu xidmətə müraciət edən hər bir abunəçi öz sualına cavab tapmaq üçün daha başqa bir kanala (Çağrı mərkəzi, onlayn yazışma və s.) yönləndirilmir və lazım olan bütün dəstəyi sosial media komandasından tam şəkildə ala bilir.**

**Bundan əlavə, abunəçilərə yüksəkkeyfiyyətli sosial media dəstəyinin göstərilməsi üçün xüsusi vahid platforma da istifadəyə verildi. Bu platforma sayəsində abunəçilərin sorğuları qısa vaxtda cəvablandırılır, onların müsbət, mənfi və ya neytral şərhləri qeydə alınır. Bütün sosial şəbəkələrdə "Nar"-la ünsiyyət tarixçəsinin analizi nəticəsində hər bir abunəçiyə fərdi yanaşma tətbiq olunur. Bununla yanaşı, proqram vasitəsilə abunəçilər üçün əsas maraq kəsb edən məsələləri müəyyən etmək və sorğuları kateqoriyalara bölmək də mümkündür.**

**"Nar Mobile" bundan sonra da müştərilərə daha yaxşı sosial media dəstəyi göstərmək üçün sosial şəbəkələrin bütün növ innovativ imkanlarından istifadə etməyə davam edəcəkdir.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

YENİ MÜSAVAT
N 38 (6066) 19 fevral 2015

**Ölkədə xüsusi qəddarlıqla törədilən qətllərin sayı azalmır. Dünən Gəncədə 1995-ci il təvəllüdlü Əliyev Şahlar qısqanclıq zəminində bacısı ilə münasibətləri olan 1997-ci il təvəllüdlü Hacıyev İmaməddinin başını kəsərək öldürüb. Son bir həftənin cinayət statistikasına diqqət etsək bir günə 2 cinayətin, bəlkə də daha çox düşdüyünü görərik.**

# Ölkədə amansız qətllərin sayı niyə artır?

## Psixoloq Dəyanət Rzayev: "İnsanların aqressivləşməsinin kökündə əsasən təbəqələşmə, yoxsulluq, hüquq-mühafizə orqanlarına inamsızlıq durur..."



Ümumiyyətlə, son vaxtlar cəmiyyətdə xüsusi bir aqressiya, apatiya sezilir. Məsələn, bir neçə gün öncə 5-ci mərtəbədən eyvandan yıxılan qadın bağlı olaydakı kimi: binanın həndəvərinə toplaşan insanlar həyat yoldaşının əllərindən tutaraq 5-ci mərtəbədən 5 dəqiqə asılı qalan qadına kömək etmək əvəzinə heç nə etmir, seyrçi mövqeyində qalır, hətta hadisəni telefonlarına çəkirdilər. Bəs Azərbaycan cəmiyyətinin bu dərəcədə amansız və bədbəxt hadisələrə qarşı soyuqqanlı davranmasının səbəbi nədir?

**Psixoloq Dəyanət Rzayev bunun kökündə təbəqələşmənin və sosial vəziyyətin ağırlığının durduğunu dedi:** "Elə dövrlər olub ki, insanların sosial vəziyyəti bu gündəkindən də pis olub. Amma bu qədər cinayət hadisələri baş verməyib. Mən bunun kökündə təbəqələşmənin durduğunu düşünürəm. Həmçinin hüquq-mühafizə orqanlarının öz funksiyasını yaxşı yerinə yetirməməsi də bu aqressiyanın kökündə dayanan amillərdəndir. Çox vaxt hüquq-mühafizə orqanları hansısa cinayətin üstünü açmağı uzadır, ya da ümumiyyətlə aça bilmir. Azərbaycan balaca ölkədir. Burada cinayətin üstünü açmağa nə var ki?! Amma şərt cinayətin üstünü açmaq deyil, şərt cinayətin qarşısını almaqdır. Bu da bizdə yoxdur. Əvvəllər hündür binalar yox idi, ancaq həyət evləri var idi. Burada da hamı bir-birini tanıyırdı. Əvvəllər, hansısa xırda ailə münaqişəsi baş verəndə belə sahə müvəkkili gəlib hadisəni araşdırırdı. Dalaşan şəxsə niyə işləmirsən, niyə ailəni incidirsən deyib, tənbeh edirdilər. Daha sonra həmin adamı işə düzəldir, münaqişəyə əsas yaradan problemi həll etməyə çalışırdılar. Yəni bir növ gələcəkdə baş verə biləcək hansısa cinayətin qarşısını alırdılar və cəmiyyət özü bu insanın düzəlməsində, islah olunmasında iştirak edirdi. Amma bu gün bunların heç biri yoxdur".

**Psixoloqa görə, işsizlik də insanları aqressivləşdirir:** "Öz ixtisasında işləyən insanlar da səhərdən axşamadək qul kimi işləyir və az maaş alır. Bir gündə 12 saat işləmək olar?! Bu dəhşətdir. Mənə elə gəlir ki, insan ən çox 6 saat işləməlidir. İnsanlar səhərdən axşamadək işləyib 250 manat maaş alır. Bu pulla da onlar dükana girib heç nə ala bilmirlər. Yaşanılan bütün çətinliklər insanları daima gərgin, əsəbi edir. Ümumilikdə əhalini iki təbəqəyə bölmək olar. Acından ölən, kasıb və həddindən çox varlı. Mən 200-250 manat maaş alana kasıb deyirəm. Əgər mənim pulum olsa, 70-100 min manata maşın ala bilərəm. Amma bilsəm ki, ətrafımda kasıb insanlar var, bilə-bilə bunu edə bilmərəm. Gedib yarım milyon maşına pul vermərəm. Çünki bu mənəviyyatsızlığın son dərəcəsi olar. Bu gün əşyalara, daşlara daha çox önəm verirlər, nəinki insanlara. İnsan xəstələnəndə bilmir hara getsin. Çünki sığortası olmur. Dünyada 25 inkişaf etmiş ölkə var. Ən çox inkişaf etmiş ölkələr xristian ölkələridir. Məsələn, Fransanın büdcəsi heç nəyi olmasına baxmayaraq bütün ərəb ölkələrinin büdcəsindən çoxdur".

**Ekspert Azərbaycanda digər ölkələrdə olduğu kimi "polis mənim dostumdur" anlayışının olmadığını bildirdi. İnsanların bütün amansızlıqlara seyrçi qalmasının səbəbini insanların polislərdən qorxmasında görən psixoloq aqressiyanın müsəlman ölkələrində xüsusilə qabarıq olduğunu bildirdi:** "Polislərin əksəriyyəti kişilərdən ibarətdir və çoxu insanla danışmağı bacarmır, çox kobuddurlar. Məsələn, maşınla keçirsən, səni saxlamaq üçün başlayır qışqırmağa. Bu da insanda aqressiya yaradır. Bəlkə də bu səbəbə görədir ki, insanlar polislə əməkdaşlıq etmək istəmir. İnsanlar hansısa bir problem olanda polisə müraciət etmir, çünki qorxur".

❑ **Günel MANAFLI**




# "Azercell" hesabat verdi...

## Vahid Mürsəliyev: "Ölkənin mobil rabitə bazarının 51,3 faizi "Azercell"i seçir"

**"Azərbaycanın lider mobil operatoru "Azercell Telekom" öz fəaliyyətində uğur və nailiyyətlərlə dolu növbəti bir ili geridə qoydu. 2014-cü ilin bütün göstəriciləri "Azercell"in özünün mövcud lider mövqeyini qoruyub saxladığını, bir çox parametrlər üzrə daha böyük irəliləyişlər əldə etdiyini sübut edir". "Azercell Telekom"un prezidenti vəzifəsini icra edən Vahid Mürsəliyev fevralın 18-də keçirilən mətbuat konfransında bu barədə bildirib.**



O qeyd edib ki, hazırda ölkənin mobil rabitə bazarının 51,3 faizi "Azercell"i seçir. Onun şəbəkəsi ölkə əhalisinin 99,8 faizini əhatə edir. 2014-cü ilin sonuna "Azercell" abunəçilərinin sayı 4,5 milyon nəfəri ötüb keçib.

**V.Müsrəliyevin sözlərinə görə, ölkənin qeyri-neft sektorunun ən böyük sərmayədarı olan şirkət ötən il ərzində Azərbaycanda telekommunikasiyanın inkişafına təqribən 57 milyon manat, ölkədə fəaliyyət göstərdiyi 18 il ərzində isə 1,67 milyard manat sərmayə yatırıb:** "2014-cü ildə "Azercell" öz işçilərinin inkişafına 1,2 milyon manat, 18 il ərzində isə 14,2 milyon manat həcmində sərmayə yatırıb. Bunlar isə "Azercell" xidmət səviyyəsinin və nəticədə müştəri məmnuniyyətinin yüksəldilməsi ilə nəticələnib. 2014-cü ildə "Azercell" dövlət büdcəsinə təqribən 112 milyon manat, 18 il ərzində isə 1,11 milyard manat vəsait ödəyib. Dövlət büdcəsinin əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, 2014-cü ildə "Azercell" ödəmələrinin büdcədə xüsusi çəkisi təqribən 1,38 faiz təşkil edib".

**"Azercell" rəhbərinin sözlərinə görə, Azərbaycanın ən geniş və güclü şəbəkəsinə sahib olan və daima keyfiyyəti ilə seçilən "Azercell Telekom" son iki il ərzində öz şəbəkəsini 25 faiz daha da gücləndirib:** "2014-cü ildə şirkət 169-dan çox 2G/3G Radio Baza Stansiyası quraşdıraraq, onların sayını 4 690-a çatdırıb. Bundan əlavə, lider operator 3G şəbəkəsinin tutumunu rekord səviyyədə gücləndirib: ölkə üzrə 48 faiz, Bakıda 92 faiz olub". Həmçinin o, "Azercell"in ölkədə ən böyük müştəri xidmətləri şəbəkəsinə malik olduğunu vurğulayıb. "Azercell" regionda və ölkədə ilk və ən böyük LTE- 4G şəbəkəsinə sahibdir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin də apardığı araşdırmalara görə bu gün "Azercell" ölkədə ən yüksək sürətli mobil internet xidmətini təqdim edir. İl ərzində "Azercell"də abunəçi başına mobil internetdən istifadə 65 faiz artıb",- deyə V.Mürsəliyev qeyd edib. Onun sözlərinə görə, sürəti və keyfiyyəti saxlamaq şərti ilə "Azercell" müştərilərin faydasını düşünərək ötən il böyük tarif endirimləri təqdim edib. Həmçinin o, "Azercell"in Azərbaycan bazarında təqdim etməyə hazırlaşdığı yeniliklərdən də danışıb. Bunlar Sumaks təhlükəsizlik sistemi, Mobil Sağlamlıq, Valideyin Nəzarət Sistemi və Augmented Reality-dir.

Sosial layihələrdən danışan V.Mürsəliyev qeyd edib ki, 2014-cü ildə "Azercell" sosial layihələrin həyata keçirilməsinə 0,3 milyon manat həcmində vəsait sərf edib. O, sonda bildirib ki, müştəri məmnuniyyətinə önəm verən "Azercell Telekom" bu illər ərzində əldə etdiyi inam və etibarı qoruyaraq saxlamaq, qarşıda gələn illərdə daha böyük nailiyyətlər qazanmaq niyyətindədir.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Azərbaycan-Gürcüstan sərhədindəki özbaşınalıqlar səngimir

## Zəlimxan Məmmədli: "İndiyə qədər nə demişiksə..."
## Kamran Ramazanlı: "Külli miqdarda rüşvət insanları bezdirir"

**Azərbaycanla sərhəd ölkələrə gedib-gələn vətəndaşlar ciddi problemlərlə üzləşirlər. Getdikcə vətəndaşlarımız üçün sərhədi keçmək ən əzablı problemə çevrilməkdədir. Gürcüstan azərbaycanlıları da bu cür özbaşınalıqlardan yayına bilmirlər. Soydaşlarımız ölkəmizə gələrkən görünməmiş rəzalətlə üz-üzə qalırlar. "Sınıq körpü" gömrük məntəqəsi sözün həqiqi mənasında cəhənnəm yuvasına dönüb.**




**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli** davam edən özbaşınalıqlarla bağlı sənəd hazırladıqlarını bildirdi: "İndiyə qədər nə demişiksə, həmin vəziyyət qüvvədə qalır. Bu vaxtadək Kənd Təsərrüfatı Nazirliyinə, Gömrük Komitəsinə, dövlət başçısına, baş nazirə və parlamentə müraciətlər etmişik. Amma vəziyyəti dəyişdirəcək "Soydaş haqqında" Qanun qəbul edilmədi. Soydaşlarımız bütün hallarda rahat şəkildə ölkəmizə gəlib, ticarət etməlidirlər. Qanunvericilikdə daha radikal dəyişiklərin əleyhinəyik. Mövcud qanunlar çərçivəsində yaranan boşluqlar doldurula bilər. Biz qanunun verdiyi bütün imkanlardan istifadə edəcəyik. Sənəd hazırlayırıq. Dövlət başçısı və parlamentə göndərəcəyik".

**Əslən Borçalıdan olan ekspert Kamran Ramazanlı da soydaşlarımızın ağır problemlərindən danışdı:** "Borçalı maldarlıq və kənd təsərrüfatı ilə məşğul olan bölgədir. Bildiyimiz kimi, Rusiya və Gürcüstan arasında münasibətlər gərgindir. Sovetlər dövründə məhsullar Rusiyaya aparılırdı. Bu gün əhali belə imkandan məhrumdur. Ermənilərlə də təbii ki, bu məsələ həll oluna bilməz. Yeganə Azərbaycan qalır. Bura gələndə isə dediyimiz biabırçılıqlarla rastlaşırlar. Məhsulların hər birinin buraxılması üçün rüşvət tələb olunur. İnsanlar məhsul xarab olmasın deyə, istənilən rüşvəti verirlər, əziyyət çəkirlər. Gürcüstanda "Soydaş haqqında" Qanun qəbul olunub. Qanuna görə, dünyada yaşayan gürcülər müddətli şəkildə Gürcüstanda işləyə bilərlər. Güzəştlər tətbiq olunur. Yalnız seçim hüquqları yoxdur. Bu qanun bizdə də qəbul olunmalıdır. Azərbaycanın Gürcüstanda 300-ə yaxın şirkət və mağazası var. Nə üçün iş adamları soydaşlarımız yaşayan yerlərə investisiya qoymurlar? Amma Soçi və digər şəhərlərdə investisiya qoyurlar. Əgər soydaşlarımızın orada iş yerləri olsa, heç buralara gəlməzlər. Belə problemlər də yaranmaz".

**Kamran Ramazanlı sərhəddə baş verən qanunsuzluqlardan da söz açdı:** "Sərhəddə dövlət rüsumundan əlavə, insanlardan rüşvət tələb olunur. Gürcüstanda 500 min azərbaycanlı yaşayır. Onların hər birinin burada yaxını var. Tələbələr ölkəmizdə təhsil alırlar. Azərbaycana sovqat gətirəndə müxtəlif bəhanələr gətirilir. Gürcüstan tərəfdə lövhə asılıb. Konkret hüquqlar, hansı məhsulların keçirilib-keçirilməməsi göstərilir. Bizdə isə bu yoxdur. 60 yaşında insan Azərbaycan qanununu bilməyə bilər. Lövhə adi elementar məsələdir. Dövlətə münasibət sərhəddən başlayır. İnsanları nə üçün Azərbaycan haqqında mənfi fikir formalaşdırmağa məcbur edirsiniz? Külli miqdarda rüşvət insanları bezdirir. Lövhələrin asılmamasından sui-istifadə edilir. Qəzetiniz vasitəsilə ölkə rəhbərliyinə səslənirəm ki, nə üçün soydaşlarımızı belə vəziyyətlə üz-üzə qoymalıyıq? Buna son qoyulmalıdır. Borçalı konkret blokada şəraitindədir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT

Son səhifə

N 38 (6066) 19 fevral 2015

RƏQƏMLƏRİN TƏŞƏKKÜLÜ

| | |
|---|---|
| 1234567890 | XII əsr |
| 1234567890 | XV əsr |
| 1234567890 | XVI əsr |
| 1234567890 | XXI əsr |

# Rəqəmlərin sirləri

**Numeroloqların dediyinə inansaq, ədədlər yalnız rəqəm və işarələrin ifadə etdiyi kəmiyyət göstəricisi deyil, onlarda başqa bir qüvvə də var.**

Məlum olduğu kimi, Pifaqor, onun şagirdləri və davamçıları rəqəmlərin sayını azaldaraq 1-9 arasında saxladılar, çünki bu rəqəmlər başlanğıc rəqəmləridir, qalan rəqəmləri onlardan düzəltmək mümkündür. İyirmi əsr keçəndən sonra məşhur Kornelius Aqrippa 1533-cü ildə nəşr etdiyi "Okkult fəlsəfəsi" əsərində həmin rəqəmləri və onların mənasını verdi.

Xatırladaq ki, elm dünyasında Aqrippanı "rəqəmlərin atası" adlandırırlar. Keçək rəqəmlərin sirrinə:

1 - Məqsədin rəmzidir.

2 - Gündüz və gecə kimi əks anlayışların rəqəmidir, müsbət və mənfi keyfiyyətləri birləşdirərək tarazlıq yaradır.

3 - Dəyişkənlik deməkdir, keçmişin, indinin və gələcəyin rəmzi olan üçbucaqla işarə edilir.

4- Sabitlik və möhkəmlik deməkdir. Od, torpaq, hava və su ünsürləri ilə ifadə olunub.

5. Son nəticəni səyahət və sınaqlar vasitəsi ilə əldə edən risk və təhlükə deməkdir.

6- İnam rəmzidir. İdeal rəqəmdir, həm tək, həm də tək rəqəmlərə bölünərək sanki onları birləşdirir.

7 - Sirli, məchul və görünməz şeyləri öyrənmək və bilmək yoludur.

8 - Maddi uğur rəmzidir. İki kvadratla ifadə olunduğu üçün kamil inam rəmzi sayılır.

9 - Elementar rəqəmlərin ən böyüyü, uğur rəmzidir. Dəyişkənliyi irəliyə doğru hərəkətə çevirir.

# Belə şəxsiyyət vəsiqəsi görülmədi

**Müəllimənin təzə ad və soyadı belədir: Abcdefg Hijklmn Opqrst Uvwxyz. 36 yaşlı qadın qeyri-adi ad və soyadı daşımaq hüququnu əldə etmək üçün düz 2 il məmurlarla mübarizə aparıb. Abcdefg Hijklmn Opqrst Uvwxyz deyib ki, o, hər zaman çətin tələffüz olunan ada malik olmaq istəyib. Abcdefg Hijklmn Opqrst Uvwxyz olmazdan öncə müəllimənin adı Ledizunqa Kiborq olub. Əslinə qalsa, heç bu da onun əsl adı olmayıb. Yerli mətbuatın verdiyi məlumata əsasən, kolumbiyalı qadın "öz müqəddəratını təyin etməyə daim ehtiyac duyduğu" üçün əhvalına uyğun olaraq, adını bir neçə dəfə dəyişib.**

Abcdefg Hijklmn Opqrst Uvwxyz doğularkən ona nə ad verildiyi məlum deyil.


REPÚBLICA DE COLOMBIA
ORGANIZACIÓN ELECTORAL
REGISTRADURÍA NACIONAL DEL ESTADO CIVIL
DIRECCIÓN NACIONAL DE REGISTRO CIVIL
NUIP
REGISTRO CIVIL DE NACIMIENTO
Indicativo Serial
Datos de la oficina de registro - Clase de oficina
Registraduría | Notaría X | Consulado | Corregimiento | Inspección de Policía | Código
País - Departamento - Municipio - Corregimiento o/o Inspección de Policía
COLOMBIA-CAUCA-POPAYAN
Datos del inscrito
Primer Apellido: OPQRST
Segundo Apellido: UVWXYZ
Nombre(s): ABCDEFG HIJKLMN
Fecha de nacimiento: Año 1978 Mes MAR Día 24
Sexo (en letras): FEMENINO
Grupo sanguíneo: ----
Lugar de nacimiento (País - Departamento - Municipio - Corregimiento o/o Inspección)
COLOMBIA-CAUCA-POPAYAN
Datos primer testigo
Apellidos y nombres completos

# Səhvən 10 milyon dolları oldu

**Avstraliyada Sue Lamb adlı qadın səhvən milyoner olub. Məlumatlara görə, qadının kredit kartına səhvən 10 milyon dollar köçürülüb. Kartındakı pulu görən qadın əvvəlcə sevinsə də, daha sonra banka xəbər verib. Bank işçiləri onun şikayətinə baxmadığı üçün media nümayəndələrinə xəbər verib. S.Lamp hesabındakı yüksək məbləğdəki pulun ona zərər verəcəyindən qorxduğu üçün bu addımı atıb. Bank xəbərin mediada çıxmasına baxmayaraq, pulu kartdan geri çəkməyib. Bundan sonra qadın hesabındakı pulu xərcləməyə başlayıb. Bir müddət sonra Sue Lambın hesabındakı 10 milyon geri çəkilib. Pul gəlmədən əvvəl banka 900 dollar borcu olan qadının hazırda 7 min 500 dollar borcu var.**

"Focus" jurnalında yazılanlara görə, bank hesabına səhvən köçürülən pulların 3 il müddəti var. 3 il ərzində hesab sahibi banka xəbər verməsə, eyni zamanda bank bu yanlışlığı görməsə pul hesab sahibinin olur.





# Menyuda fil və aslan var

**Zimbabve prezidenti Robert Muqabe 91 yaşını qeyd etməyə hazırlaşır. R.Muqabenin ad günü menyusunda aslan və fil ətinin olması hər kəsi təəccübləndirib. NTV-nin xəbərinə görə, Zimbabve liderinin ad günündə qeyri-adi yeməklərin verilməsi üçün onlarla fil və aslan ovlanıb. Bu heyvanların doğum günü tədbiri zamanı servis edilməsi heyvan haqları müdafiəçilərinin kəskin reaksiyasına səbəb olub. Zimbabvenin vəhşi həyatı qoruma dərnəyi bu hadisənin əxlaqa uyğun olmadığını açıqlayıb. 20 min nəfərin iştirak etdiyi bu əyləncə üçün 120 min dollar xərcləndiyi deyilir.**




**QOÇ** - Yolayrıcında qalmağınız yetər. Gələcəyinizi, taleyinizi düşünürsünüzsə, konkret addımlar atın. İnsanlarla umu-küsüləri bir kənara qoyun. İndi konfliktlərə girişməkdənsə, qarşılıqlı münasibətləri mülayimləşdirmək daha sərfəlidir.

**BUĞA** - Bu təqvimi xoş ovqatla qarşılasanız, planlarınızın əksəriyyəti qaydasına düşməyə başlayacaq. İstirahətdən daha çox əlaqələri dərinləşdirin. Axşama doğru işlə bağlı təkliflərə laqeyd qalmayın.

**ƏKİZLƏR** - Planetlərin yerdəyişməsinə təsadüf edən bu təqvimin sizə əhəmiyyəti böyük olacaq. Çoxsaylı işgüzar görüşlər, perspektivli və yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək.

**XƏRÇƏNG** - Yaxşı olar ki, əsas vaxtınızı istirahətdə keçirəsiniz. Əks təqdirdə cəhdlərinizin boşa çıxması, uğursuz sövdələşmələr, səhhətlə bağlı narahatçılıq və s. kimi mənfi fəsadlar baş verə bilər. Bir az təcrid olunun.

**ŞİR** - Xırda mübahisələri nəzərə almasaq, bu tarix sizin üçün normal bir zaman kəsiyi olacaq. Ədalətsiz insanları görəndə, haqsızlığın şahidi olanda üsyankarlıq göstərməyin. Əksinə, təmkin nümayiş etdirməklə öz ideyalarınızı tədricən onların beyninə yeridin.

**QIZ** - Təəssüf ki, ixtiyarınızda olan bu gün hansısa ciddi müvəffəqiyyətə nail olacağınız gözlənilmir. Ələlxüsus da saat 15-18 arası bəzi xoşagəlməzliklərlə baş-başa qala bilərsiniz. Daha çox neytral olun.

**TƏRƏZİ** - Bu dəyişkən təqvimdən qorxmağınıza lüzum yoxdur. Çünki sizin kimi romantik şəxslərə bu ərəfədə heç bir zərər dəyməyəcək, üstəlik, aktivləşdiyiniz indiki dövrdə şanslarınız da artacaq.

**ƏQRƏB** - Təzadlı gündür. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə səmt ala bilər. Bu səbəbdən də yaxşı bələd olmadığınız şəxslərlə işbirliyi yaratmaqdan, riskli pul sövdələşmələrində iştirak etməkdən vaz keçin.

**OXATAN** - Bütün vacib iş və planlarınızı günün ilk yarısında həyata keçirməyə çalışın. Çünki günün yalnız bu hissəsi ümumi işlərinizdə aktivlik mərhələsi olacaq. Ulduzlar daşınmaz əmlak alış-verişindən uzaq olmağınızı məsləhət görür

**OĞLAQ** - Göy qübbəsi yuxusuzluğunuzdan, həmçinin iştahasızlığınızdan şikayətlənir. Bunun qarşısını almaq üçün bütün qüvvənizi səfərbər etməlisiniz. Əgər hansısa uğursuzluqla rastlaşırsınızsa, bunun səbəbini başqalarında deyil, özünüzdə axtarın.

**SUTÖKƏN** - Bürcünüzün hakimiyyət dövrü bu gün başa çatdığı üçün mübahisə və konfliktlərdən, eləcə də yeni işlərə başlamaqdan vaz keçməlisiniz. Daha çox mənəvi rahatlığınızı təmin edin.

**BALIQLAR** - Saat 14-ə qədər ümumi işlərinizdə passivlik hökm sürəcək. Həmin müddətdə riskli işlərdən uzaq olmalı, yeni müqavilə və təkliflərdən boyun qaçırmalı, eləcə də səhhətinizlə məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Möcüzə uşaq



**Hindistanda qatarda erkən doğum zamanı uşaq dünyaya gətirən qadının övladı möcüzə nəticəsində yaşaya bilib. Bir neçə gün əvvəl baş vermiş hadisə zamanı 22 yaşlı qadın stansiyada qatar gözləyərkən sancıları başlayıb. Uşağını dünyaya gətirmək üçün qatarın tualetinə gedən qadın qorxunc hadisə ilə üzləşib. Çünki uşaq əvvəlcə tualetin dəliyinə, oradan da qatar yoluna düşüb. Qatar keçib getdikdən sonra qatar gözətçisi uşağı tapıb. Anası isə yaxınları tərəfindən tualetdə huşunu itirmiş halda tapılıb.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300